RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 161 (9906) 5 avqust 2025-ci il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Azərbaycan daha bir regionun enerji təhlükəsizliyinin təminatçısına çevrilir

Türkiyənin Kilis şəhərində cari il avqustun 2-də Azərbaycan qazının Türkiyə ərazisindən Suriyaya nəqlinə başlanılması ilə bağlı tədbir keçirilib və bu, haqlı olaraq Azərbaycan və Suriya arasında tarixi enerji əməkdaşlığının əsasının qoyulması kimi dəyərləndirilir.

Azərbaycan qazının Türkiyə ərazisindən Suriyaya ixracına bu il aprelin 11-də Antalyada və iyulun 12-də Bakıda Azərbaycan Prezidenti İlham Əliyevlə Suriyanın keçid dövrü Prezidenti Əhməd Əl Şaraa arasında keçirilən görüşlərdə əldə edilmiş razılaşmalar əsasında, qısa müddət ərzində start verilib. Xatırladaq ki, Əhməd Əl Şaraanın ölkəmizə işgüzar səfəri çərçivəsində iyulun 12-də Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə Suriya Ərəb Respublikası Hökuməti arasında Anlaşma Memorandumu da imzalanmışdı. Sənədi Azərbaycanın iqtisadiyyat naziri, SOCAR-ın Müşahidə Şurasının sədri Mikayıl Cabbarov və Suriyanın energetika naziri Məhəmməd Əl Bəşir imzalamışdılar.

M.Cabbarov avqustun 2-də sözügedən tədbirdə çıxış edərkən bildirib ki, Azərbaycan təbii qazının Türkiyə ərazisi ilə Suriyaya nəql olunması ölkəmizin enerji ixracı tarixində mühüm mərhələdir və Cənubi Qafqaz ilə Yaxın Şərq arasında yeni enerji körpüsünün əsasını qoyur. Türkiyə-Suriya Təbii Qaz Boru Xəttinin açılışı ilə Azərbaycandan Suriyaya qaz nəqlinin başlanması ölkəmizin etibarlı və strateji enerji təchizatçısı olduğunu bir daha nümayiş etdirir. Bu layihə ölkəmizin qaz ixracı coğrafiyasının yeni istiqamətlər üzrə genişləndirilməsinə mühüm töhfələr verəcək.

Suriyaya qaz Kilis şəhərindəki "Yavuzlu Ölçmə Stansiyası"ndan ötürülür. Azərbaycan qazını bu ölkəyə nəql edən boruların günlük potensialı 6 milyon kubmetrdir. Sadəcə hələlik 3,4 milyon kubmetr qazın nəqli nəzərdə tutulur.

İlkin mərhələdə Suriyaya ildə 2 milyard kubmetrə qədər təbii qaz ixracı mümkün olacaq. Həmin təbii qaz vasitəsilə təqribən 1200 meqavatlıq quraşdırılmış güc aktivləşəcək. Bu layihə Suriyada həyatın normallaşmasına çox ciddi töhfə verəcək, insanların həyat səviyyəsini yüksəldəcək və ölkəyə geri qayıdış prosesini sürətləndirəcək.

Suriyanın energetika naziri Məhəmməd Əl Bəşir jurnalistlərə açıqlamasında bu barədə belə deyib: "Azərbaycanlı qardaşlarımıza bu dəstəyə görə təşəkkür edirəm. Təbii ki, bu razılaşma hər iki ölkə başçısının sonuncu görüşündən sonra baş tutub. Bu, birbaşa Suriya xalqının rifahına və elektrik enerjisi ilə davamlı təminatına xidmət göstərəcək. Bu layihə sonuncu deyil, ilk layihədir. Bundan sonra da bizim birgə layihələrimiz olacaq. Azərbaycanın iqtisadiyyat naziri, qardaşım Mikayıl Cabbarov ilə də bir az öncə görüləcək işlərlə bağlı müzakirələr apardıq. Texniki qrupların qarşılıqlı şəkildə səfərləri təşkil olunacaq. Azərbaycanın Suriyada investisiya ilə bağlı proqram və layihələrini müzakirə etdik".

7



## İlham Əliyev Azərbaycan tarixinin ən şanlı səhifələrinin müəllifidir

2003-cü il 15 oktyabr prezident seçkilərində seçicilərin 76,8 faizinin səsini qazanan fenomenal tarixi şəxsiyyət İlham Əliyev hakimiyyətə gəldiyi gündən məqsəd və vəzifələrə çatmaq üçün öz strategiya və taktikasını tətbiq etməklə yeni bir mərhələnin başlanğıcını qoydu. Xalqın mütləq əksəriyyətinin səsini qazanaraq ölkə Prezidenti seçilən İlham Əliyevin xalqa ilk mesajı "Mən hər bir azərbaycanlının prezidenti olacağam" oldu. İlham Əliyev gözəl bilirdi ki, güc birlikdədir. Xalqından güc alan, xalqın birliyinə nail olan liderlər tarixdə əbədiyaşar olurlar. Prezidentliyinin ilk günündən etibarən dayanıqlı inkişaf üçün əsaslı addımlar atan, müstəqilliyimizin və ideoloji dayaqlarımızın daha da möhkəmləndirilməsi, vətəndaş həmrəyliyinin bərqərar olması naminə mühüm işlər görən Prezident İlham Əliyev qısa bir zamanda xalqımızın birliyinin rəmzinə çevrildi. Bununla da dünya tarixinə adını yazdırmış liderlər ilə müqayisədə yeni, fərqli bir dövlət başçısı obrazını yaratmış oldu.

İlham Əliyev siyasətinin təməl prinsiplərinin əsasını xalqa həqiqəti söyləmək, obyektiv və dürüst olmaq təşkil edirdi. Yeni lider hakimiyyətə gəldiyi gündən yalnız bir amal uğrunda mübarizə apardı: Azərbaycanı güclü, qüdrətli etmək: 2020-ci il noyabrın 23-də Ağdam rayonuna səfəri zamanı dövlət başçısı bu haqda danışaraq demişdir: "Mən son 17 il ərzində xalqa müraciət edərkən dəfələrlə deyirdim ki, biz daha güclü olmalıyıq, daha qüdrətli ordu qurmalıyıq... Biz son 17 il ərzində münaqişənin həlli üçün hüquqi baza yaratdıq... Mən bu 17 il ərzində daim deyirdim ki, biz iqtisadi sahəyə güclü təkan verməliyik, iqtisadi müstəqilliyimizi təmin etməliyik və təmin etdik. Bu gün biz iqtisadi cəhətdən heç kimdən asılı deyilik". Cənab İlham Əliyevin hakimiyyətdə olduğu illəri Azərbaycan tarixinin şərəf salnaməsinin yazıldığı illər kimi xarakterizə etmək olar.

6

## Dənizdə suverenliyimizin təminatçısı

### Azərbaycan Hərbi Dəniz Qüvvələri ölkəmizə qarşı yönələ biləcək hər hansı bir həmləni dəf etməyə qadirdir

Azərbaycanın Hərbi Dəniz Qüvvələri isə 1919-cu ilin avqustunda ingilislər ölkəmizi tərk etdikdən sonra formalaşmağa başladı. 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bütün sahələrdə olduğu kimi, ordu quruculuğunda da işləri başa çatdıra bilmədi. Xalq Cümhuriyyətinin donanması Sovet Azərbaycanının Qırmızı donanması adlandırıldı və 1920-ci ilin yayında bu donanma Xəzər Dəniz Qüvvələrinin tərkibinə daxil edildi.

Müstəqillik bərpa olunduqdan sonra parlamentin 1991-ci il oktyabrın 9-da qəbul etdiyi "Azərbaycan Respublikası Silahlı Qüvvələri haqqında" qanuna əsasən, Silahlı Qüvvələrin tərkib hissəsi kimi Hərbi Dəniz Qüvvələrinin yaranmasının hüquqi bazası müəyyən edildi.



8

## Reallığa göz yumanda ədalətli olmaq mümkün deyil

### Yaxud Rusiyada erməniəsilli rəssama görə isterikanın məqsədi nədir?

Tariximizdə, mədəniyyət və incəsənətimizdə, ədəbiyyatımızda görkəmli rol oynamış şəxsiyyətlərimizin abidələri uçurdulub, Şuşanın simvollarından olan Natəvan, Bülbül və dahi Üzeyir bəyin büstləri təhqir edilib, satılmaq üçün İrəvana aparılıb. Yalnız Ulu Öndər Heydər Əliyevin səyləri ilə onlar geri qaytarılıb, Müzəffər Ali Baş Komandan İlham Əliyevin göstərişi ilə yenidən azad olunmuş Şuşada tarixi yerlərində quraşdırılıb.



Təəssüf ki, 30 ilə yaxın bir dövrdə dünya bu vəhşətə göz yumub, münaqişənin guya ki, nizamlanması ilə məşğul olan ATƏT-in Minsk qrupu üzvlərindən heç biri o cümlədən Rusiya Ermənistana irad bildirməyib.

8

## Tramp nüvə sualtı qayıqlarının "lazım olan yerə" göndərildiyini təsdiqləyib

Trampın iki nüvə sualtı qayığını "müvafiq rayonlara" göndərmək əmri avqustun 1-də məlum olub. O, bu addımını Dmitri Medvedevin son dərəcə təxribatçı bəyanatları ilə izah edib. Tramp "Truth Social" sosial şəbəkəsində yazıb ki, "bu qərar axmaq və qızışdırıcı bəyanatların sadəcə söz yox, başqa bir hal olacağı üçün" qəbul edilib. Tramp izah edib ki, sözlər çox vacibdir və çox vaxt gözlənilməz nəticələrə gətirib çıxarır: "Ümid edirəm ki, bu dəfə belə olmayacaq".



İyulun 28-də D.Medvedev "X" sosial şəbəkəsində Rusiyaya qarşı sanksiyaların tətbiqinin tərəfdarı olan amerikalı senator Lindsi Qremlə mübahisə edib. O, Ağ Ev rəhbərinin yeni ultimatumunu - Ukraynada müharibəyə son qoymaq məqsədilə razılığın əldə olunması üçün son müddəti 50 gündən 10 günə endirməsini Rusiya ilə ABŞ arasında "hədə və müharibəyə doğru addım" kimi qiymətləndirib, Tramp və Qremi isə "babalar" adlandırıb.

12

# "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 584 (Cild I); 2025, № 1, maddə 6) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci maddə üzrə:

1.1. 1.1.6-cı maddədən "müvafiq icra hakimiyyəti orqanlarının və" sözləri çıxarılsın;

1.2. aşağıdakı məzmunda 1.1.12-5-ci maddə əlavə edilsin:

"1.1.12-5. **dividend** - dövlət müəssisələrinin fəaliyyəti nəticəsində əldə edilmiş xalis mənfəətdən dövlət büdcəsinə edilən ödəniş;";

1.3.1.1.24-cü maddədən "mərkəzi və yerli icra hakimiyyəti orqanları və onların struktur bölmələri," sözləri çıxarılsın;

1.4.1.1.37-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 1.1.38-ci maddə əlavə edilsin:

"1.1.38. **uzunmüddətli dövr** - beş və daha çox ili əhatə edən dövr.".

2.5.4-cü maddədə "növbəti büdcə ilində onların gəlirlərinə daxil edilir" sözləri "vahid xəzinə hesabının sərbəst qalığına köçürülür" sözləri ilə əvəz edilsin.

3.9-cu maddə üzrə:

3.1. 9.1.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"9.1.3. dividendlər;";

3.2. aşağıdakı məzmunda 9.1.3-1-ci maddə əlavə edilsin:

"9.1.3-1. digər gəlirlər.".

4. 10-cu maddə üzrə:

4.1. 10.1-ci maddə üzrə:

4.1.1. 10.1.1-ci maddədən "faiz üzrə ödənişlər," sözləri çıxarılsın;

4.1.2. 10.1.2-ci maddədə "və səhmlərin alınması" sözləri ", səhmlərin alınması və layihələrdə iştirak payı" sözləri ilə əvəz edilsin;

4.1.3. 10.1.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"10.1.3. borca xidmət üzrə xərclər.";

4.2. 10.3-cü maddənin ikinci cümləsinə "18.4-cü" sözlərindən sonra ", 18.4-1-ci" sözləri əlavə edilsin.

5. 11.7-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar vəsaitlərinin formalaşdırılması, toplanması, istifadə edilməsi və uçotunun aparılması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən qaydada həyata keçirilir.".

6. 11-1-ci maddə üzrə:

6.1. 11-1.1-11-1.3-cü maddələr aşağıdakı redaksiyada verilsin:

"11-1.1. Ortamüddətli və uzunmüddətli dövr üzrə makrofiskal siyasət çərçivəsində icmal büdcənin qeyri-neft baza kəsirinin və dövlət borcunun idarəedilməsi məqsədilə icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbət göstəricisi və dövlət borcunun ümumi daxili məhsula nisbət göstəricisi üzrə yuxarı hədlər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən hər 4 ildən bir ortamüddətli dövrün sonu üçün müəyyən edilir.

11-1.2. İcmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbət göstəricisinin və dövlət borcunun ümumi daxili məhsula nisbət göstəricisinin növbəti ortamüddətli dövrün sonuna hədəflənən yuxarı hədləri başa çatan ortamüddətli dövrün sonuncu ilində müəyyən edilir.

11-1.3. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbət göstəricisinin bu Qanunun 11-1.2-ci maddəsinə uyğun olaraq ortamüddətli dövrün sonuna müəyyən edilmiş yuxarı həddini rəhbər tutaraq həmin ortamüddətli dövrün illəri üzrə icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbəti üzrə əməliyyat (aralıq) hədəflərini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşdırmaqla formalaşdırır və müvafiq illərin icmal və dövlət büdcəsinin layihələrinin tərtibi zamanı nəzərə alır.";

6.2. 11-1.4-cü maddə ləğv edilsin.

7. 12.1.3-cü maddəyə "istiqamətləri" sözündən sonra "və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunmuş qaydaya uyğun ortamüddətli dövr üçün hədəf göstəriciləri" sözləri əlavə edilsin.

8. 16-cı maddə üzrə:

8.1. 16.1.6-cı maddədə "və iqtisadi təsnifata uyğun olaraq paraqraflar" sözləri "təsnifata uyğun olaraq bölmə, köməkçi bölmə, paraqraf və iqtisadi təsnifata uyğun olaraq bölmə, köməkçi bölmə, paraqraf, maddə və yarımmaddə" sözləri ilə əvəz edilsin;

8.2. 16.1.9-cu maddə aşağıdakı redaksiyada verilsin:

"16.1.9. daxili və xarici dövlət borcuna xidmətlə bağlı xərclərin yuxarı hədləri, o cümlədən faiz xərcləri;".

9. aşağıdakı məzmunda 18.4-1-ci maddə əlavə edilsin:

"18.4-1. Bu Qanunun 6.4-cü və 6.5-ci maddələrinə uyğun olaraq dövlət büdcəsində nəzərdə tutulmuş məqsədli büdcə və ehtiyat fondlarından büdcə ili ərzində funksional, iqtisadi və inzibati təsnifata uyğun olaraq yönəldilən vəsaitlərin uçotu həmin vəsaitlərin ayrıldığı məqsədlərə uyğun funksional, iqtisadi və inzibati təsnifat üzrə aparılır.".

10.19-cu maddə üzrə:

10.1. 19.2-ci maddə üzrə:

10.1.1. birinci abzasa aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Büdcə ili ərzində bu Qanunun 18.4-cü və 19.6-cı maddələrinə uyğun olaraq dövlət büdcəsinin xərcləri üzrə aparılmış maliyyə əməliyyatları həmin ilin dövlət büdcəsinin icrasına dair aylıq, rüblük və illik hesabatlarda aparılmış dəyişikliyə müvafiq əks etdirilir və bu Qanunun 16.1.17-ci və 16.1.18-ci maddələrinə uyğun olaraq təsdiq olunmuş göstəricilərdən kənarlaşma kimi qəbul edilmir.";

10.1.2. üçüncü abzasaşağıdakı redaksiyada verilsin:

"Büdcə ili ərzində vahid xəzinə hesabınınsərbəst qalığı bu Qanunun 19.5-1.1-19.5-1.3-cü maddələrində göstərilən ödənişlər icra edilməklə bu Qanunun 19.2-1-ci maddəsində müəyyən olunmuş qaydada idarə olunur və (və ya) idarəetməyə verilir.";

10.2. aşağıdakı məzmunda 19.2-1-ci və 19.2-2-ci maddələr əlavə edilsin:

"19.2-1. Büdcə ili ərzində vahid xəzinə hesabının qalığımüvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən idarə olunur və (və ya) idarəetməyə verilir. Vahid xəzinə hesabının qalığının idarəetməyə verilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

19.2-2. Büdcə ili ərzində yaranan büdcə artıqlığının (profisitin) müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən hissəsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fonduna köçürülə bilər.";

10.3. 19.3-cü maddədən "dövlət xəzinədarlığı tərəfindən qabaqcadan dövlət (büdcə) öhdəlikləri götürülür və bu öhdəliklər çərçivəsində satınalmalardan" sözləri çıxarılsın;

10.4. 19.4-cü və 19.5-ci maddələr aşağıdakı redaksiyada verilsin:

"19.4. Cari il üçün nəzərdə tutulan xərclərin maliyyələşdirilməsi həmin büdcə ili ərzində mümkün olmadıqda, belə xərclərin maliyyələşdirilməsi növbəti büdcə ilindəki ayırmalar hesabına təmin olunur.

19.5. İlin sonuna bütün xəzinə hesablarının qalıqları (bu Qanunun 19.5-1.2.2-ci və 19.5-1.2.3-cü maddələrində nəzərdə tutulmuş vəsaitlərə münasibətdə yalnız onların xərclərinin maliyyələşdirilməsi məqsədilə) vahid xəzinə hesabına köçürülür.";

10.5. aşağıdakı məzmunda 19.5-1-ci maddə əlavə edilsin:

"19.5-1. Vahid xəzinə hesabının sərbəst qalığı aşağıdakı istiqamətlərə yönəldilir:

19.5-1.1. bu Qanunun 15.4-sü maddəsi tətbiq edildiyi halda bu Qanunun 7-ci maddəsində göstərilən xərclərin maliyyələşdirilməsinə;

19.5-1.2. dövlət büdcəsi kəsirinin və onun daxilində aşağıdakı xərclərin (fərqin) maliyyələşdirilməsinə:

19.5-1.2.1. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilmiş qaydada şəhər və rayonlar üzrə vergi orqanlarının xətti ilə dövlət büdcəsinə nəzərdə tutulan daxilolmalardan büdcə ilinin sonuna artıq daxil olan vəsaitin müəyyən hissəsi hesabına yerli icra hakimiyyəti orqanlarının büdcədənkənar xərcləri;

19.5-1.2.2. Dövlət Əməyin Mühafizəsi Fondunun ilin sonuna qalan istifadə olunmamış vəsaiti hesabına onların xərcləri (hər il üçün təsdiq olunan dövlət büdcəsi haqqında qanuna uyğun olaraq proqnozlaşdırılan gəlirlərin məbləği proqnozlaşdırılan xərclərin məbləğindən, habelə faktiki daxilolmalarının məbləği xərclərin məbləğindən az olduqda);

19.5-1.2.3. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən mənzillərin satışından əldə olunan və ilin sonuna qalan xərclənməmiş vəsait hesabına müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydaya uyğun olaraq xərcləri (hər il üçün təsdiq olunan dövlət büdcəsi haqqında qanuna uyğun olaraq proqnozlaşdırılan gəlirlərin məbləği proqnozlaşdırılan xərclərin məbləğindən, habelə faktiki daxilolmalarının məbləği xərclərin məbləğindən az olduqda).

19.5-1.3. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşdırılmış məbləğdə Dövlət borcu və zəmanəti üzrə Təminat Fondunun vəsaitlərinin artırılmasına.";

10.6. 19.6-cı maddəyə "fonduna" sözündən sonra "və Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fonduna" sözləri əlavə edilsin.

11. 20-ci maddə üzrə:

11.1. 20.6.4-cü maddədən "və inzibati" sözləri çıxarılsın;

11.2. aşağıdakı məzmunda 20.6-1-ci maddə əlavə edilsin:

"20.6-1. Müvafiq hesabat ili üzrə dövlət büdcəsinin inzibati təsnifata uyğun olaraq xərclərinin icrasının məbləği müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilir.".

12. 27.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

"27.4. Büdcədənkənar dövlət fondlarının sərbəst vəsaitləri qanunla nəzərdə tutulmuş hallarda investisiyaya yönəldilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyul 2025-ci il*

# "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 245-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 245-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 11.7-ci maddəsinin ikinci cümləsində, 11-1.1-ci, 11-1.3-cü (hər iki halda), 12.1.3-cü maddələrində, 19.2-1-ci maddəsinin birinci və ikinci cümlələrində, 19.2-2-ci (hər iki halda), 19.5-1.2.1-ci, 19.5-1.2.3-cü (hər iki halda), 19.5-1.3-cü (hər iki halda) və 20.6-1-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 11-1.1-ci,19.5-1.2.1-ci, 19.5-1.2.3-cü (ikinci halda), 19.5-1.3-cü (ikinci halda) və 20.6-1-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.3. həmin Qanunun 11.7-ci maddəsinin ikinci cümləsində, 11-1.3-cü (ikinci halda), 12.1.3-cü madddələrində və 19.2-1-ci maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.4. həmin Qanunun 11-1.3-cü (birinci halda) maddəsində, 19.2-1-ci maddəsinin birinci cümləsində, 19.2-2-ci (hər iki halda) və 19.5-1.3-cü (birinci halda) maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi nəzərdə tutulur;

1.5. həmin Qanunun 19.5-1.2.3-cü (birinci halda) maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. aşağıdakı normativ hüquqi aktları təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

2.1.1. beş ay müddətində:

2.1.1.1. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 11.7-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar vəsaitlərinin formalaşdırılması, toplanması, istifadə edilməsi və uçotunun aparılması qaydasını;

2.1.1.2. həmin Qanunun 12.1.3-cü maddəsinə uyğun olaraq, ortamüddətli dövr üçün hədəf göstəricilərinin müəyyən edilməsi qaydasını;

2.1.2. üç ay müddətində həmin Qanunun 19.2-1-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, vahid xəzinə hesabının qalığının idarəetməyə verilməsi qaydalarını;

2.2. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 245-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 31 oktyabr tarixli 809 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 605 (Cild I); 2024,№ 12 (II kitab), maddə 1363; 2025, №1, maddə 24) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bəndə"(hər üç halda)"sözlərindən sonra "maddələrində, 11.7-ci maddəsinin ikinci cümləsində" sözləri, "12.1-ci," sözlərindən sonra "12.1.3-cü," sözləri, "20.4-2-ci," sözlərindən sonra "20.6-1-ci," sözləri əlavə olunsun və həmin bənddə "11-1.2-ci, 11-1.3-cü," sözləri "11-1.1-ci, 11-1.3-cü (hər iki halda)," sözləri ilə, "və üçüncü abzasının birinci cümləsində," sözləri ", 19.2-1-ci maddəsinin birinci və ikinci cümlələrində, 19.2-2-ci (hər iki halda), 19.5-1.2.1-ci, 19.5-1.2.3-cü (hər iki halda), 19.5-1.3-cü (hər iki halda)," sözləri ilə əvəz edilsin;

3.2. 2.4-cü bənddə ", 19.2-ci (ikinci və üçüncü halda)" sözləri "maddələrində, 19.2-ci maddəsinin dördüncü abzasında" sözləri ilə və "maddələrində" sözü "maddəsində" sözü ilə əvəz edilsin;

3.3. 2.12-ci bənddə "11-1.2-ci, 11-1.5-ci" sözləri "11-1.1-ci, 11-1.5-ci,19.5-1.2.1-ci, 19.5-1.2.3-cü (ikinci halda), 19.5-1.3-cü (ikinci halda), 20.6-1-ci" sözləri ilə əvəz edilsin;

3.4. 2.13-cü bənddə "11-1.3-cü" sözləri "11.7-ci maddəsinin ikinci cümləsində, 11-1.3-cü (ikinci halda), 12.1.3-cü maddələrində, 19.2-1-ci maddəsinin ikinci cümləsində" sözləri ilə və "maddələrində" sözü "maddəsində" sözü ilə əvəz edilsin;

3.5. 2.14-cü bənddə "maddələrində, 19.2-ci maddəsinin ikinci abzasında və üçüncü abzasının birinci cümləsində" sözləri", 11-1.3-cü (birinci halda) maddələrində, 19.2-ci maddəsinin ikinci abzasında, 19.2-1-ci maddəsinin birinci cümləsində, 19.2-2-ci (hər iki halda) və 19.5-1.3-cü (birinci halda) maddələrində" sözləri ilə əvəz edilsin;

3.6. aşağıdakı məzmunda 2.18-1-ci bənd əlavə edilsin:

"2.18-1. həmin Qanunun 19.5-1.2.3-cü (birinci halda) maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;".

4. "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 9 fevral tarixli 48 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 2, maddə 61 (Cild I); 2024, № 3, maddə 257, № 5 (I kitab), maddə 529; 2025, № 2, maddə 119) aşağıdakı dəyişikliklər edilsin:

4.1. həmin Fərmanla təsdiq edilmiş Əlavə II - "Azərbaycan Respublikasının Maliyyə Nazirliyi haqqında Əsasnamə" üzrə:

4.1.1. 8.7-ci bənddə "xərcləri üzrə dövlətin adından büdcə təşkilatları qarşısında öhdəlik götürmək, bu öhdəliklər çərçivəsində" sözləri "təşkilatları tərəfindən satın" sözləri ilə əvəz edilsin;

4.1.2. 8.15-ci bəndə "fonduna" sözündən sonra "və Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fonduna" sözləri əlavə edilsin;

4.1.3. 8.33-cü bənddən"sərbəst" sözü çıxarılsın;

4.1.4. aşağıdakı məzmunda 9.15-1-ci və 9.15-2-ci bəndlər əlavə edilsin:

"9.15-1. "Dövlət borcu haqqında" Azərbaycan Respublikası Qanununun 14-1-ci maddəsinə uyğun olaraq, büdcə ssudalarının bağlanılması (ödənilməsi) üçün Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondunun vəsaitindən istifadə etmək;

9.15-2. büdcə ili ərzində yaranan büdcə artıqlığının (profisitin) və vahid xəzinə hesabının sərbəst qalığının "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 19.2-2-ci və 19.5-1.3-cü maddələrinə uyğun olaraq müəyyən edilmiş hissəsini Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fonduna köçürmək;";

4.2. həmin Fərmanla təsdiq edilmiş Əlavə III - "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyi haqqında Əsasnamə" üzrə:

4.2.1. 1-ci hissədən "büdcə xərcləri üzrə dövlətin adından büdcə təşkilatları qarşısında öhdəlikləri qəbul edən," sözləri çıxarılsın;

4.2.2. 8.1-ci bənddən "qabaqcadan dövlət (büdcə) öhdəlikləri götürür və bu öhdəliklər çərçivəsində" sözləri çıxarılsın;

4.2.3. 9.6-cı bənddə "xərcləri üzrə dövlətin adından büdcə təşkilatları qarşısında öhdəlik götürmək, bu öhdəliklər çərçivəsində" sözləri "büdcə təşkilatları tərəfindən satın" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 23 iyun tarixli 962 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 6, maddə 1058 (Cild I); 2024, № 11, maddə 1198, № 12 (II kitab), maddə 1359) ilə təsdiq edilmiş "Su bioresurslarının artırılması, bərpası və mühafizəsi fondu haqqında Əsasnamə"nin 3.6-cı bəndi aşağıdakı redaksiyada verilsin:

"3.6. Fondun hesabında ilin sonuna qalan istifadə olunmamış vəsait vahid xəzinə hesabının sərbəst qalığına aid edilir.".

6. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 15 may tarixli 72 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 5, maddə 940 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin dövlət qurumlarına təqdim etdiyi hesabatların formaları və onların təqdim edilməsi Qaydası"nın 2.0.8-ci yarımbəndindən və həmin Qaydaya 8 nömrəli əlavənin adından "sərbəst" sözü çıxarılsın.

7. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 16 oktyabr tarixli 842 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 10, maddə 1587 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Borcunun və Maliyyə Öhdəliklərinin İdarə Edilməsi Agentliyi haqqında Əsasnamə"nin 1.1-ci bəndindən və 2.0.5-ci, 3.0.15-ci, 3.0.16-cı, 3.0.27-ci yarımbəndlərindən "sərbəst" sözü çıxarılsın.

8. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 30 dekabr tarixli 1568 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, №12, maddə 1433 (Cild I)ilə təsdiq edilmiş "İcmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbət göstəricisinin və dövlət borcunun ümumi daxili məhsula nisbət göstəricisinin hesablanması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

8.1. 3.3-cü və 3.4-cü bəndlər ləğv edilsin;

8.2. 4-cü hissədə "maddəsinin icrasını təmin etmək məqsədilə həmin Qanunun 11-1.2-ci maddəsinə" sözləri "və 11-1.2-ci maddələrinə" sözləri ilə əvəz edilsin.

9. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 11 aprel tarixli 1661 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 4, maddə 322 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən mənzillərin satışı və satışdan əldə olunan vəsaitdən istifadə Qaydası"nın 3.4-cü bəndində "İlin sonuna Nazirliyin xüsusi hesabında qalan xərclənməmiş vəsaitdən" sözləri "Nazirliyin xüsusi hesabında ilin sonuna qalan xərclənməmiş vəsaitdən "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla" sözləri ilə əvəz edilsin.

10. Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 351 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (II kitab), maddə 190 (Cild I) ilə təsdiq edilmiş "Mineral-xammal Bazasının Bərpası üzrə Dövlət Fondu haqqında Əsasnamə"nin 3.6-cı bəndi aşağıdakı redaksiyada verilsin:

"3.6. Dövlət Fondunun hesabında ilin sonuna qalan istifadə olunmamış vəsait vahid xəzinə hesabının sərbəst qalığına aid edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 avqust 2025-ci il*

# Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında", "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamənin təsdiq edilməsi barədə" və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 11-ci və 13-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Torpaq Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 478 (Cild I); 2024, № 3, maddə 250, № 7, maddə 770, № 12 (II kitab), maddə 1338; Azərbaycan Respublikasının 2025-ci il 18 mart tarixli 158-VIIQD nömrəli və 21 iyun tarixli 216-VIIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 6-cı maddənin birinci hissəsinin altıncı - on altıncı abzasları müvafiq olaraq yeddinci - on yeddinci abzaslar hesab edilsin və aşağıdakı məzmunda altıncı abzas əlavə edilsin:

"təbii fəlakət, texnogen qəza və ya hərbi əməliyyat nəticəsində (işğaldan azad edilmiş ərazilər istisna olmaqla) məhv olmuş, yaxud yararsız vəziyyətə düşmüş yaşayış sahələrinin əvəzinə yeni yaşayış evləri və çoxmənzilli yaşayış binaları bələdiyyə mülkiyyətində olan torpaq sahələrində tikildiyi hallarda bələdiyyəyə mütənasib dəyərdə dövlət mülkiyyətindən torpaq sahələrinin ayrılması;";

1.2. 56-cı maddənin 6-cı hissəsinin üçüncü abzasına aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Bu qayda təbii fəlakət, texnogen qəza və ya hərbi əməliyyat nəticəsində (işğaldan azad edilmiş ərazilər istisna olmaqla) məhv olmuş, yaxud yararsız vəziyyətə düşmüş yaşayış sahələrinin əvəzinə yeni yaşayış evlərinin və çoxmənzilli yaşayış binalarının tikintisi üçün torpaq sahələrinin ayrılması halına şamil edilmir.";

1.3. 74-cü maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 74. Təbii fəlakət, texnogen qəza və ya hərbi əməliyyat nəticəsində (işğaldan azad edilmiş ərazilər istisna olmaqla) məhv olmuş, yaxud yararsız vəziyyətə düşmüş yaşayış evləri və ya çoxmənzilli yaşayış binalarının yerləşdiyi torpaq sahələrinə dair tənzimləmə**

1. Təbii fəlakət, texnogen qəza və ya hərbi əməliyyat nəticəsində (işğaldan azad edilmiş ərazilər istisna olmaqla) məhv olmuş, yaxud yararsız vəziyyətə düşmüş yaşayış evləri və çoxmənzilli yaşayış binalarının (bundan sonra - yaşayış sahələrinin) yerləşdiyi torpaq sahələrində yeni yaşayış sahələrinin tikintisi bu maddənin 2-ci hissəsində müəyyən edilmiş hallar əsasında məqsədəuyğun hesab edilmədikdə həmin torpaq sahəsinin əvəzinə müvafiq məqsədlər üçün torpaq sahələri dövlət ehtiyat fondu torpaqlarından, bu mümkün olmadıqda isə mütənasib dəyərdə bələdiyyə mülkiyyətində olan torpaqlardan ayrılır.

Tikilinin mülkiyyətçisi bununla razılaşmadıqda və ya bu maddənin 1-ci hissəsində nəzərdə tutulmuş torpaq sahəsi olmadıqda məhv olmuş, yaxud yararsız vəziyyətə düşmüş yaşayış sahələrinin yerləşdiyi torpaq sahələri, dəyəri mülkiyyətçiyə ödənilməklə rekvizisiya qaydasında alınır.

2. Təbii fəlakət, texnogen qəza və ya hərbi əməliyyat nəticəsində (işğaldan azad edilmiş ərazilər istisna olmaqla) məhv olmuş, yaxud yararsız vəziyyətə düşmüş yaşayış sahələrinin əvəzinə yeni yaşayış sahələrinin həmin torpaq sahələrində tikilməsi aşağıdakı hallar olduqda məqsədəuyğun hesab edilmir:

məhv olmuş, yaxud yararsız vəziyyətə düşmüş yaşayış sahələrinin yerləşdiyi torpaq sahələrinin gələcəkdə baş verə biləcək təbii fəlakət nəticəsində yaşayış sahələrinin tikintisi baxımından yüksəkriskli ərazi olduğu müəyyən edildikdə;

məhv olmuş, yaxud yararsız vəziyyətə düşmüş yaşayış sahələrinin yerləşdiyi torpaq sahələrinin təyinatı tikinti aparılmasına icazə vermədiyi və ya kommunikasiya xətlərinin mühafizə zonalarında yerləşdiyi müəyyən edildikdə.

3. Bu maddənin 2-ci hissəsində nəzərdə tutulmuş hallar tikili mülkiyyətçilərinin müraciəti əsasında və ya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) öz təşəbbüsü ilə otuz gün müddətində apardığı araşdırma nəticəsində müəyyən edilir. Müraciətin və araşdırmanın nəticəsi olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) bu maddənin 2-ci hissəsində göstərilən hallar barədə qərar qəbul edir və həmin qərarı üç gün müddətində tikilinin mülkiyyətçisinə göndərir.".

**Maddə 2.** Azərbaycan Respublikası Mülki Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (I kitab), maddə 250 (Cild I); 2024, № 2, maddə 138, № 4, maddə 365, № 5 (I kitab), maddə 493, № 7, maddə 744, № 12 (I kitab), maddə 1281; 2025, № 1, maddə 17, № 3, maddə 216; Azərbaycan Respublikasının 2025-ci il 18 mart tarixli 158-VIIQD, 161-VIIQD nömrəli, 1 may tarixli 188-VIIQD, 192-VIIQD nömrəli, 3 iyun tarixli 209-VIIQD nömrəli və 21 iyun tarixli 216-VIIQD nömrəli qanunları) 139-1.1.12-ci maddəsinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda139-1.1.13-cü maddə əlavə edilsin:

"139-1.1.13. təbii fəlakət, texnogen qəza və ya hərbi əməliyyat nəticəsində (işğaldan azad edilmiş ərazilər istisna olmaqla) məhv olmuş, yaxud yararsız vəziyyətə düşmüş yaşayış sahələrinin əvəzinə dövlət vəsaiti hesabına tikilmiş yaşayış evlərinə və çoxmənzilli yaşayış binalarının mənzillərinə münasibətdə - həmin evlərin və mənzillərin təqdim edildiyi şəxslərin siyahısı (hər bir şəxsə təhvil verilən yaşayış evi və (və ya) mənzil dəqiq göstərilməklə), yaşayış evlərinin tikinti layihəsinin memarlıq-planlaşdırma bölməsi, çoxmənzilli yaşayış binasının tikinti layihəsinin memarlıq-planlaşdırma bölməsi və istismarına icazə.".

**Maddə 3.** Azərbaycan Respublikasının Mənzil Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 612 (Cild I); 2024, № 5 (I kitab), maddə 489; 2025, № 3, maddə 219) aşağıdakı məzmunda 28.8-ci və 28-1-ci maddələr əlavə edilsin:

"28.8. Bu maddənin tələbləri bu Məcəllənin 28-1-ci maddəsi ilə müəyyən edilmiş hallara şamil edilmir.";

**"Maddə 28-1. Təbii fəlakət, texnogen qəza və ya hərbi əməliyyat nəticəsində (işğaldan azad edilmiş ərazilər istisna olmaqla) məhv olmuş, yaxud yararsız vəziyyətə düşmüş yaşayış sahələrinin əvəzinə dövlət vəsaiti hesabına yeni yaşayış evlərinin və çoxmənzilli yaşayış binalarının tikintisi**

Təbii fəlakət, texnogen qəza və ya hərbi əməliyyat nəticəsində (işğaldan azad edilmiş ərazilər istisna olmaqla) məhv olmuş, yaxud yararsız vəziyyətə düşmüş, icbari sığortası olan yaşayış sahələrinin əvəzinə yeni yaşayış evlərinin və çoxmənzilli yaşayış binalarının dövlət vəsaiti hesabına tikintisi ilə əlaqədar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən bu barədə qərar qəbul edilə bilər. Həmin qərarda sifarişçinin funksiyalarını yerinə yetirəcək dövlət orqanları (qurumları) müəyyən edilir.".

**Maddə 4.** Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 838 (Cild I); 2024, № 3, maddə 247; 2025, № 1, maddə 14, № 3, maddə 215; Azərbaycan Respublikasının 2025-ci il 3 iyun tarixli 209-VIIQD nömrəli Qanunu) aşağıdakı məzmunda 75.5-2-ci maddə əlavə edilsin:

"75.5-2. Bu Məcəllənin 75.5.2-ci maddəsinə əsasən rəyin bildirilməsi üçün sorğunun göndərilməsi ilə bağlı tələb təbii fəlakət, texnogen qəza və ya hərbi əməliyyat nəticəsində (işğaldan azad edilmiş ərazilər istisna olmaqla) məhv olmuş, yaxud yararsız vəziyyətə düşmüş yaşayış sahələrinin əvəzinə dövlət vəsaiti hesabına inşa ediləcək yeni çoxmənzilli yaşayış binasının tikinti layihəsinə şamil edilmir.".

**Maddə 5.** "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 8, maddə 520 (Cild I); Azərbaycan Respublikasının 2025-ci il 18 mart tarixli 158-VIIQD nömrəli və 24 iyun tarixli 224-VIIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

5.1. aşağıdakı məzmunda 6.5-1-ci və 6.10-1-ci maddələr əlavə edilsin:

"6.5-1. Bu Qanunun 6.5-ci maddəsinin birinci cümləsində müəyyən edilmiş qayda təbii fəlakət, texnogen qəza və ya hərbi əməliyyat nəticəsində (işğaldan azad edilmiş ərazilər istisna olmaqla) məhv olmuş, yaxud yararsız vəziyyətə düşmüş yaşayış sahələrinin əvəzinə yeni yaşayış evlərinin və çoxmənzilli yaşayış binalarının tikintisi üçün torpaq sahələrinin ayrılması halına şamil edilmir.";

"6.10-1. Təbii fəlakət, texnogen qəza və ya hərbi əməliyyat nəticəsində (işğaldan azad edilmiş ərazilər istisna olmaqla) məhv olmuş, yaxud yararsız vəziyyətə düşmüş yaşayış sahələrinin yerləşdiyi torpaq sahələrində yeni yaşayış sahələrinin tikilməsi Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 74-cü maddəsinin 2-ci hissəsində müəyyən edilmiş hallar əsasında məqsədəuyğun hesab edilmədikdə və müvafiq məqsədlər üçün torpaq sahələrinin dövlət ehtiyat fondu torpaqlarından ayrılması mümkün olmadıqda torpaq sahələri mütənasib dəyərdə bələdiyyə mülkiyyətində olan torpaqlardan ayrılır.";

5.2.9.1-ci maddəyə "ayrılması," sözündən sonra "təbii fəlakət, texnogen qəza və ya hərbi əməliyyat nəticəsində (işğaldan azad edilmiş ərazilər istisna olmaqla) məhv olmuş, yaxud yararsız vəziyyətə düşmüş yaşayış sahələrinin əvəzinə yeni yaşayış evlərinin və çoxmənzilli yaşayış binalarının tikintisi üçün torpaq sahələrinin verilməsi," sözləri əlavə edilsin.

**Maddə 6.** Azərbaycan Respublikasının 2002-ci il 15 mart tarixli 274-IIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 216 (Cild I); Azərbaycan Respublikasının 2025-ci il 18 mart tarixli 158-VIIQD nömrəli Qanunu) ilə təsdiq edilmiş "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

6.1. aşağıdakı məzmunda 7-1-ci maddə əlavə edilsin:

"7-1. Bu Əsasnamənin 7-ci maddəsinin dördüncü cümləsində müəyyən edilmiş qayda təbii fəlakət, texnogen qəza və ya hərbi əməliyyat nəticəsində (işğaldan azad edilmiş ərazilər istisna olmaqla) məhv olmuş, yaxud yararsız vəziyyətə düşmüş yaşayış sahələrinin əvəzinə yeni yaşayış evlərinin və çoxmənzilli yaşayış binalarının tikintisi üçün torpaq sahələrinin ayrılması halına şamil edilmir.";

6.2. 10-cu maddəyə "ayrılması," sözündən sonra "təbii fəlakət, texnogen qəza və ya hərbi əməliyyat nəticəsində (işğaldan azad edilmiş ərazilər istisna olmaqla) məhv olmuş, yaxud yararsız vəziyyətə düşmüş yaşayış sahələrinin əvəzinə yeni yaşayış evlərinin və çoxmənzilli yaşayış binalarının tikintisi üçün torpaq sahələrinin verilməsi," sözləri əlavə edilsin.

**Maddə 7.** "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 603 (Cild I); 2025, № 1, maddə 16, № 2, maddə 100; Azərbaycan Respublikasının 2025-ci il 3 iyun tarixli 209-VIIQD nömrəli Qanunu) aşağıdakı məzmunda 8.0.10-2-ci maddə əlavə edilsin:

"8.0.10-2. təbii fəlakət, texnogen qəza və ya hərbi əməliyyat nəticəsində (işğaldan azad edilmiş ərazilər istisna olmaqla) məhv olmuş, yaxud yararsız vəziyyətə düşmüş yaşayış sahələrinin əvəzinə dövlət vəsaiti hesabına tikilmiş yaşayış evlərinə və çoxmənzilli yaşayış binalarının mənzillərinə münasibətdə - həmin evlərin və mənzillərin təqdim edildiyi şəxslərin siyahısı (hər bir şəxsə təhvil verilən yaşayış evi və (və ya) mənzil dəqiq göstərilməklə), yaşayış evlərinin tikinti layihəsinin memarlıq-planlaşdırma bölməsi, çoxmənzilli yaşayış binasının tikinti layihəsinin memarlıq-planlaşdırma bölməsi və istismarına icazə;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyul 2025-ci il*

# "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında", "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamənin təsdiq edilməsi barədə" və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 244-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında", "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamənin təsdiq edilməsi barədə" və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 244-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 74-cü maddəsinin 3-cü hissəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 74-cü maddəsinin 3-cü hissəsinin birinci və ikinci cümlələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi nəzərdə tutulur;

1.3. Azərbaycan Respublikası Mənzil Məcəlləsinin 28-1-ci maddəsinin birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.4. həmin Məcəllənin 28-1-ci maddəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti"Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında", "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamənin təsdiq edilməsi barədə" və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 244-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Azərbaycan Respublikasının 1999-cu il 25 iyun tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 4 avqust tarixli 176 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 486 (Cild I); 2024, № 7, maddə 823) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bəndə "hissəsində (hər iki halda)" sözlərindən sonra "və 74-cü maddəsinin 3-cü hissəsinin birinci və ikinci cümlələrində" sözləri əlavə edilsin;

3.2. 2.1-2-ci bənddən "6-cı maddəsinin dördüncü, yeddinci - onuncu abzaslarında," sözləri çıxarılsın;

3.3. 2.1-3-cü və 2.1-4-cü bəndlər müvafiq olaraq 2.1-4-cü və 2.1-5-ci bəndlər hesab olunsun və aşağıdakı məzmunda 2.1-3-cü bənd əlavə edilsin:

"2.1-3. həmin Məcəllənin 6-cı maddəsinin dördüncü, səkkizinci - on birinci abzaslarında nəzərdə tutulmuş dövlətin vəzifələrini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;";

3.4. 2.2-ci bənddən "6-cı maddəsinin on üçüncü və on dördüncü abzaslarında," sözləri çıxarılsın;

3.5. aşağıdakı məzmunda 2.2-4-cü bənd əlavə edilsin:

"2.2-4. həmin Məcəllənin 6-cı maddəsinin on dördüncü və on beşinci abzaslarında nəzərdə tutulmuş dövlətin vəzifələrini Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi həyata keçirir;";

3.6. 2.3-1-ci bənddə "abzasında" sözü "abzasının birinci cümləsində" sözləri ilə əvəz edilsin;

3.7. 2.4-cü bənddə "on birinci" sözləri "on ikinci" sözləri ilə əvəz edilsin;

3.8. 2.11-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.12-ci bənd əlavə edilsin:

"2.12. həmin Məcəllənin 74-cü maddəsinin 3-cü hissəsinin birinci və ikinci cümlələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi nəzərdə tutulur.".

4. "Azərbaycan Respublikası Mənzil Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 27 avqust tarixli 153 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 629 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.1-ci bəndə "Məcəlləsinin" sözündən sonra "28-1-ci maddəsinin birinci cümləsində," sözləri əlavə edilsin;

4.2. aşağıdakı məzmunda 2.1-1-ci bənd əlavə edilsin:

"2.1-1. həmin Məcəllənin 28-1-ci maddəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 avqust 2025-ci il*

# "Dövlət borcu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Dövlət borcu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 8, maddə 748 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1. 13-cü maddə üzrə:

1.1. 13.1-ci maddədə "və dövlət zəmanəti üzrə öhdəliklərin yerinə yetirilməsini" sözləri ", dövlət zəmanəti üzrə öhdəliklərin yerinə yetirilməsini və "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 1.1.13-cü maddəsinə uyğun olaraq verilmiş büdcə ssudalarının geri qaytarılmasını" sözləri ilə əvəz edilsin;

1.2. 13.2.1-1-ci maddədə "19.2-ci və 19.5-ci maddələrinə əsasən vahid xəzinə hesabının sərbəst qalığının Təminat Fonduna köçürülən hissəsi" sözləri "19.2-2-ci və 19.5-1.3-cü maddələrinə əsasən Təminat Fonduna köçürülən vəsait" sözləri ilə əvəz edilsin.

2. Aşağıdakı məzmunda 14-1-ci maddə əlavə edilsin:

**"Maddə 14-1. Büdcə ssudalarının geri qaytarılması üzrə öhdəliklərin icrası**

"Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 1.1.13-cü maddəsinə uyğun olaraq büdcə ili ərzində dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə, yerli büdcələrə, büdcə təşkilatlarına, dövlət adından yaradılan publik hüquqi şəxslərə və dövlət büdcəsindən maliyyə yardımı alan digər hüquqi şəxslərə verilən büdcə ssudaları həmin şəxslər tərəfindən il ərzində qaytarıla bilmədikdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) verilən büdcə ssudalarının bağlanılması (ödənilməsi) üçün Təminat Fondunun vəsaitindən istifadə edə bilər.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyul 2025-ci il*

# "Dövlət borcu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 246-VIIQD nömrəli Qanununun tətbiqi və "Dövlət borcu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 avqust tarixli 610 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Dövlət borcu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 246-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Dövlət borcu haqqında" Azərbaycan Respublikası Qanununun 14-1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 14-1-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Dövlət borcu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 246-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Dövlət borcu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 avqust tarixli 610 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 8, maddə 758 (Cild I) 3.1-ci və 3.3-1-ci bəndlərində "və 8.2-1-ci maddəsində" sözləri ", 8.2-1-ci və 14-1-ci maddələrində" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 avqust 2025-ci il*

## "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 452 (Cild I); 2024, № 12 (II kitab), maddə 1337) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 18.7-ci maddənin ikinci cümləsində "attestasiyadan" sözü "müsahibədən" sözü ilə əvəz edilsin;

1.2. 29.2.9-cu maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 29.2.10-cu maddə əlavə edilsin:

"29.2.10. prokurorluqda qulluqda olmanın son yaş həddinə çatdıqda.";

1.3. 32-ci maddə üzrə:

1.3.1. 32.2-ci maddədə "yaş həddi 60 "sözləri "son yaş həddi 65" sözləri ilə əvəz edilsin;

1.3.2. 32.3-cü maddənin ikinci, üçüncü və dördüncü cümlələri çıxarılsın;

1.3.3. 32.4-cü maddədə "Yaş" sözü "Son yaş" sözləri ilə əvəz edilsin.

**Maddə 2. Keçid müddəa**

Bu Qanunun 1.3-cü maddəsi bu Qanun qüvvəyə mindiyi gün prokurorluqda qulluqda olan və həmin gündən sonra prokurorluğa qulluğa qəbul edilən prokurorluq işçilərinə şamil edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 iyul 2025-ci il*

## "Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşdirilən, fəaliyyət sahələrinə uyğun olaraq Azərbaycan Respublikasının hüquqi və fiziki şəxslərinə qrant verə bilən qurumların siyahısının təsdiq edilməsi haqqında"Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 oktyabr tarixli 654 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Qrant haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 75-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşdirilən, fəaliyyət sahələrinə uyğun olaraq Azərbaycan Respublikasının hüquqi və fiziki şəxslərinə qrant verə bilən qurumların siyahısının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 oktyabr tarixli 654 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1126 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adına və 1-ci hissəyə "şəxslərinə" sözündən sonra ", habelə bələdiyyələrə" sözləri əlavə edilsin;

1.2. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşdirilən, fəaliyyət sahələrinə uyğun olaraq Azərbaycan Respublikasının hüquqi və fiziki şəxslərinə qrant verə bilən qurumların siyahısı"nın adına "şəxslərinə" sözündən sonra ", habelə bələdiyyələrə" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 avqust 2025-ci il*

## Elçin İlyas oğlu Əfəndiyev

Azərbaycanın mədəni ictimaiyyətinə ağır itki üz vermişdir. Müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq yazıçısı, tanınmış dramaturq, tənqidçi və ədəbiyyatşünas, ictimai-siyasi xadim, filologiya elmləri doktoru, professor Elçin İlyas oğlu Əfəndiyev 2025-ci il avqustun 3-də ömrünün 83-cü ilində vəfat etmişdir.

Elçin Əfəndiyev 1943-cü il mayın 13-də Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra o, 1960-1965-ci illərdə Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsində ali təhsil almış, 1965-1969-cu illərdə Azərbaycan Elmlər Akademiyasının Nizami adına Dil və Ədəbiyyat İnstitutunun aspiranturasında oxumuşdur.

Əmək fəaliyyətinə Azərbaycan Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunda elmi əməkdaş kimi başlayan Elçin Əfəndiyev 1969-1975-ci illərdə orada işləmişdir. O, 1975-1987-ci illərdə Azərbaycan Yazıçılar İttifaqı İdarə Heyətinin katibi, 1987-1993-cü illərdə isə Xaricdə yaşayan həmvətənlərlə Mədəni Əlaqələr Cəmiyyəti - "Vətən" Cəmiyyəti rəyasət heyətinin sədri olmuşdur. Elçin Əfəndiyev 1993-2018-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin müavini vəzifəsində çalışmışdır.

Müasir Azərbaycan ədəbiyyatının parlaq simalarından olan yazıçı Elçin Əfəndiyev bütün fəaliyyəti ərzində 60-cı illər nəslinin ənənələrinə sadiqlik nümayiş etdirmiş və milli bədii fikrin zənginləşməsində mühüm rol oynamışdır.



O, hələ ədəbi yaradıcılığa başladığı ilk vaxtlardan mənəvi axtarışlarla dolu əsərlərinin poetik gücü ilə geniş oxucu kütləsinin dərin rəğbətini qazanmışdır. Realist psixoloji təhlilin dərinliyi və bədii-estetik ifadə vasitələrinin rəngarəngliyi ilə seçilən bu əsərlər Azərbaycan nəsrinin qiymətli nümunələridir.

Ədəbiyyatımızın yeni mərhələsinin formalaşmasının fəal iştirakçısı olan sənətkar uzaq və yaxın tarixi keçmişimizlə bağlı roman, povest, hekayə və pyeslərində xalqımızın mənəvi-əxlaqi dəyərlərinin təbliğini diqqət mərkəzində saxlamışdır. Elçinin ssenariləri əsasında çəkilən filmlər uğurlu ekran həyatı yaşayaraq Azərbaycan kinematoqrafiyasının qızıl fonduna daxil olmuşdur.

Elçin Əfəndiyev tənqidçi-ədəbiyyatşünas kimi klassik irsə və müasir ədəbi prosesə dair aktual mövzularda dəyərli elmi-nəzəri yazıları, portret-oçerkləri ilə ədəbi mühitin inkişafına sanballı töhfələr vermişdir.

Yazıçının əsərləri bir çox xarici dillərə tərcümə olunmuş, müxtəlif teatr səhnələrində tamaşaya qoyularaq müəllifinə şöhrət qazandırmışdır. Onun mötəbər beynəlxalq konfranslarda çıxışları elmi və ədəbi ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır.

Elçin Əfəndiyev ölkəmizin ictimai-siyasi və mədəni həyatında daim yaxından iştirak etmişdir. Xaricdə yaşayan soydaşlarımızın tarixi Vətənlə əlaqələrinin dərinləşməsində xidmətləri onun azərbaycançılıq məfkurəsinə sədaqətinin bariz ifadəsidir. Elçin Əfəndiyev uzun illər Azərbaycan Respublikası Baş nazirinin müavini vəzifəsində təqdirəlayiq fəaliyyət göstərmişdir.

Elçin Əfəndiyevin xidmətləri həmişə yüksək qiymətləndirilmişdir. O, Azərbaycan Respublikasının ali dövlət mükafatları - "İstiqlal" (2003), "Şərəf" (2013), "Şöhrət" (2018) ordenləri və "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" (2023) ilə təltif edilmişdir.

Görkəmli yazıçı və alim, tanınmış ictimai-siyasi xadim, səmimi və təvazökar insan Elçin İlyas oğlu Əfəndiyevin əziz xatirəsi onu tanıyanların qəlbində hər zaman yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

*İlham ƏLİYEV, Mehriban ƏLİYEVA, Əli ƏSƏDOV, Sahibə QAFAROVA, Samir NURİYEV, Eldar ƏZİZOV, Fərəh ƏLİYEVA, Adil KƏRİMLİ, Polad BÜLBÜLOĞLU, İsa HƏBİBBƏYLİ, Anar RZAYEV, Nəriman HƏSƏNZADƏ, Kamal ABDULLAYEV, Çingiz ABDULLAYEV, Hacı İSMAYILOV*

# Xalq yazıçısı Elçin Əfəndiyev son mənzilə yola salınıb

**Avqustun 4-də Azərbaycan Dövlət Milli Gənc Tamaşaçılar Teatrında görkəmli yazıçı, nasir, dramaturq, tənqidçi, ədəbiyyatşünas, filologiya elmləri doktoru, professor, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Xalq yazıçısı, "İstiqlal" ordenli, dövlət və ictimai xadim Elçin Əfəndiyevlə vida mərasimi keçirilib.**





AZƏRTAC xəbər verir ki, vida mərasimində Baş nazir Əli Əsədov, dövlət və hökumət rəsmiləri iştirak ediblər.

Mərhumun cənazəsi Gənc Tamaşaçılar Teatrının matəmsayağı bəzədilmiş səhnəsində postament üzərinə qoyulub.

Postamentin ətrafına Azərbaycan Prezidenti İlham Əliyev, Birinci vitse-prezident Mehriban Əliyeva, dövlət və hökumət təşkilatları adından əklil düzülüb.

Xalq yazıçısı Elçin Əfəndiyevin həmkarları, dostları, tanınmış elm və mədəniyyət xadimləri, Milli Məclisin deputatları, mərhumun əsərlərinin çoxsaylı oxucuları teatrın binasına gələrək, unudulmaz nasirə son borclarını veriblər.

Vida mərasimində çıxış edən mədəniyyət nazirinin müavini Səadət Yusifova bildirib ki, Xalq yazıçısı, dövlət xadimi Elçin Əfəndiyevin vəfatı yalnız ailəsinin və yaxınlarının deyil, eyni zamanda xalqımızın, ədəbi sözümüzün və ziyalı dünyamızın ağır itkisidir.

Elçin Əfəndiyevin özünəməxsus və zəngin yaradıcılığı ilə ədəbiyyatımızın inkişafında silinməz iz qoyduğunu söyləyən S.Yusifova deyib ki, onun ömür yolu böyük bir dövrün ədəbi və mədəni salnaməsidir - XX əsrin ikinci yarısından XXI əsrə qədər uzanan çoxşaxəli yaradıcılıq yoludur.





"Elçin müəllim yazıçı kimi həm klassik ənənəni qorudu, həm də müasir ədəbiyyata yeni nəfəs gətirdi. Onun əsərlərində biz tarixi hadisələri, insan talelərini, zamanın mənzərəsini və millətimizin mübarizə yolunu gördük. Bu əsərlər xalqın yaddaşını və mənəvi dəyərlərini yaşadan sənət nümunələridir. Təsadüfi deyil ki, bu gün görkəmli yazıçımızın "Mahmud və Məryəm", "Ağ dəvə", "Bayraqdarlar", "Ölüm hökmü", "Baş" kimi əsərləri, eləcə də çoxsaylı hekayələri, pyesləri, eləcə də elmi-nəzəri yazıları milli ədəbiyyatımızın qızıl fondunun incilərindən hesab olunur.

Görkəmli yazıçımızın və ictimai xadimimizin xidmətləri dövlətimiz tərəfindən hər zaman yüksək qiymətləndirilib. O, Xalq yazıçısı fəxri adına (1998), "İstiqlal" (2003), Şərəf (2013), "Şöhrət" (2018) ordenlərinə, Azərbaycan Respublikası Prezidentinin fəxri diplomuna (2023), eləcə də bir çox xarici ölkələrin mükafatlarına layiq görülüb.

Elçin Əfəndiyevin zəngin irsi əbədi olaraq yaşayacaq, ədəbiyyatımıza bəxş etdiyi əsərlər gələcək nəsillərə yol göstərəcək, onun xatirəsi xalqın yaddaşında daim uca tutulacaqdır", - deyə mədəniyyət nazirinin müavini vurğulayıb.

Mərasimdə Xalq yazıçıları Anar, Kamal Abdulla və Çingiz Abdullayev, Azərbaycan Teatr Xadimləri İttifaqının İdarə Heyətinin sədri Xalq artisti Hacı İsmayılov çıxış edərək Elçin Əfəndiyevin vəfatını böyük kədər hissi ilə qarşıladıqlarını söyləyiblər.

Xalq yazıçısı Elçin Əfəndiyev bənzərsiz yaradıcılığından danışan natiqlər bildiriblər ki, o, yaradıcılığa ötən əsrin 60-cı illərində başlayıb və Azərbaycan ədəbiyyatında xüsusi yer tutan "60-cılar" ədəbi nəslinin ən aparıcı nümayəndələrindən biri olub. Yazıçı milli ədəbiyyata yeni ab-hava, yeni dəyərlər və bədii ifadə vasitələri gətirib, ədəbi mühitin inkişafında müstəsna rol oynayıb.

Onun nəsr əsərləri, hekayə və povestləri onlarla xarici ölkədə tərcümə edilərək nəşr olunub, Azərbaycan ədəbiyyatının beynəlxalq səviyyədə təbliğində mühüm rol oynayıb. Elçin Əfəndiyev milli ədəbiyyatımızı xaricdə layiqincə təmsil edən ən tanınmış simalardan biri olub.

Diqqətə çatdırılıb ki, Elçin Əfəndiyev yalnız yazıçı kimi deyil, həm də ictimai-siyasi xadim kimi Azərbaycan dövlətçiliyinin və mədəniyyətinin inkişafında böyük xidmətlər göstərib. O, 1993-2018-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin müavini vəzifəsində çalışaraq ölkənin ictimai-siyasi və mədəni həyatında mühüm rol oynayıb. Bununla yanaşı, ötən əsrin 80-ci illərinin sonlarında "Vətən" cəmiyyətinin sədri kimi xaricdə yaşayan azərbaycanlıların birliyinin və tarixi vətənlə əlaqələrinin möhkəmlənməsində, diaspor hərəkatının formalaşmasında əvəzsiz xidmətlər göstərib.

Xüsusi qeyd edilib ki, Elçin Əfəndiyevin xalqımızın tarixi, taleyi və bədii irsi ilə bağlı olan, uzaq və yaxın keçmişimizin mənzərəsini canlandıran əsərləri XX əsr Azərbaycan ədəbiyyatında özünəməxsus yer tutur. Yazıçının yaradıcılığı yalnız Azərbaycanda deyil, sərhədlərimizdən kənarda da elmi-tədqiqat obyektinə çevrilir. Yaradıcılığına metafizik realizm üslubunda hekayələrlə başlayan yazıçı Azərbaycan ədəbiyyatının qızıl fonduna tarixi romanları, absurd dramları, sürrealist və realist hekayə və povestləri ilə daxil olub. Onun işıqlı xatirəsi xalqımızın qəlbində daim yaşayacaq.

Milli Məclisin deputatı, Mədəniyyət komitəsinin sədr müavini Günay Əfəndiyeva ailələri adından atasının yaradıcılığına hər zaman böyük diqqətlə yanaşan Azərbaycan Prezidenti İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlığını bildirib.

Belə ağır gündə onları tək qoymadığına görə bütün iştirakçılara təşəkkürünü bildirən Günay Əfəndiyeva böyük yazıçı olmaqla yanaşı, xoşbəxt bir ailə modeli yaratdığına, hər zaman xeyirxahlığı, alicənablığı, yüksək insani keyfiyyətləri ilə könüllərdə özünə əbədi sevgi quran atasına borclu olduqlarını söyləyib.

Xalq yazıçısı Elçin Əfəndiyevin cənazəsi Gənc Tamaşaçılar Teatrının binasından qaldırılaraq Fəxri xiyabana gətirilib. Burada mərhumun ruhuna dualar oxunub. Əziz xatirəsi xalqımızın qəlbində yaşayacaq böyük yazıçı Elçin Əfəndiyevin cənazəsi torpağa tapşırılıb. Məzarı üzərinə əklillər, gül dəstələri düzülüb.

**Allah rəhmət eləsin!**

# Baş nazir Əli Əsədov Türkmənistana işgüzar səfər edib

**Avqustun 4-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Türkmənistana işgüzar səfər edib.**



Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, Türkmənbaşı şəhərinin beynəlxalq aeroportunda Ə.Əsədovu Türkmənistan Nazirlər Kabineti sədrinin müavini Hocamırat Gəldimıradov və digər rəsmi şəxslər qarsalayıblar.

# Milli Məclisin Sədri Türkmənistana işgüzar səfərə gedib

**Avqustun 3-də Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə Azərbaycan parlament nümayəndə heyəti BMT-nin Dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələr üzrə üçüncü konfransı çərçivəsində keçiriləcək Parlamentlərarası Forumda iştirak etmək üçün Türkmənistana işgüzar səfərə gedib.**



Türkmənbaşı beynəlxalq hava limanında Milli Məclisin Sədrini Türkmənistan Məclisinin Təhsil, elm, mədəniyyət və gənclər siyasəti məsələləri üzrə komitə sədri Bayramgözəl Muradova, Azərbaycanın Türkmənistandakı səfiri Qismət Gözəlov və digər rəsmi şəxslər qarşılayıblar.

Türkmənistanın Avaza şəhərində keçiriləcək Parlamentlərarası Forumun birinci sessiyasına spiker Sahibə Qafarova sədrlik edəcək. Səfər çərçivəsində Milli Məclisin Sədrinin forumda çıxışı və bir sıra görüşləri nəzərdə tutulur .

*"Azərbaycan"*

# Sahibə Qafarova Türkmənistanda Parlamentlərarası Forumda iştirak edib

**Avqustun 4-də Türkmənistanın Avaza şəhərində BMT-nin Dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələr üzrə üçüncü konfransı çərçivəsində Parlamentlərarası Forum öz işinə başlayıb. Tədbirdə ölkəmizi Milli Məclisin Sədri Sahibə Qafarova təmsil edib.**




Əvvəlcə tədbirin açılış mərasimi keçirilib. Spiker Sahibə Qafarova forumun "Vyanadan Avazaya: Həll olunmamış çağırışlar, öyrənilmiş dərslər və irəliyə doğru yol" mövzusunda keçirilən birinci sessiyasına sədrlik edib. O, tədbirin uğurla təşkil olunmasına görə ev sahibi Türkmənistana təbriklərini çatdırıb.

Milli Məclisin Sədri bildirib ki, bu forumun məqsədi dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələrdə, tranzit ölkələrdə və inkişaf tərəfdaşlarında siyasət



və proqramların formalaşdırılması və icrasında, həmçinin bu ölkələr üçün qəbul edilmiş Fəaliyyət Proqramları üzrə öhdəliklərin və prioritetlərin yerinə yetirilməsində parlamentlərin oynaya biləcəyi rolu qəbul etməkdir. Onun sözlərinə görə, parlamentlər müəyyən edilmiş məqsədlərə nail olmağı dəstəkləmək üçün mühüm qanunvericilik bazasına, büdcənin formalaşdırılması və nəzarət alətlərinə malikdir. İnsanların təmsilçisi olaraq məhz parlamentlər ilk olaraq onlarla təmas qururlar. Vurğulanıb ki, hökumətlər və vətəndaşlar arasında körpü rolunu oynayan parlamentlər vətəndaş cəmiyyətinin irəli sürdüyü istənilən fikir və ideyaları dinləyib gündəmə gətirirlər.

Spiker Sahibə Qafarova çıxışında milli sərhədləri aşan və parlamentlərin fəaliyyətini beynəlxalq səviyyəyə qaldıran parlamentlərarası əməkdaşlığın əhəmiyyətini vurğulayaraq, ideyaların müzakirəsi və təcrübə mübadiləsinin parlamentlərin fəaliyyətinə yeni perspektivlər qatacağına inamını ifadə edib. Qeyd olunub ki, belə forumlar parlamentlərin səylərinin birləşdirilməsinə və fəaliyyətlərin əlaqələndirilməsinə kömək edə bilər.

Milli Məclisin Sədri vurğulayıb ki, milli inkişaf, regional əməkdaşlıq, beynəlxalq dəstək və tərəfdaşlıq hazırkı və gələcək fəaliyyətin əsas istiqamətləri kimi qalmalıdır. Onun sözlərinə görə, bu, 2030 Gündəliyinin, Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi, eləcə də heç kimin geridə qalmaması baxımından böyük əhəmiyyət daşıyır.

Parlamentin spikeri müzakirələr zamanı Azərbaycanın bu istiqamətdəki təcrübələrini də diqqətə çatdırıb. O, dənizə çıxışı olmayan ölkə kimi Azərbaycanın həyata keçirdiyi təşəbbüslərin coğrafi məhdudiyyətləri imkanlara çevirdiyini vurğulayaraq bildirib ki, son illər ərzində ölkəmiz nəqliyyat infrastrukturuna, o cümlədən Ələt Beynəlxalq Dəniz Ticarət Limanına, yeni avtomobil və dəmir yollarının inşasına milyardlarla dollar sərmayə yatırıb. Qeyd olunub ki, Trans-Xəzər Orta dəhliz və Şimal-Cənub dəhlizi boyunca yerləşən Azərbaycan bu gün Avrasiyanın nəqliyyat və logistika qovşaqlarından birinə çevrilib.

S.Qafarova qeyd edib ki, Orta dəhlizin təməl daşı olan Bakı-Tbilisi-Qars dəmir yolu ölkəmizin regional əlaqəni yaxşılaşdırmaq öhdəliyinin sübutudur. Hazırda davam edən "Rəqəmsal İpək Yolu" layihəsi - Xəzər dənizinin dibi ilə çəkilən fiber-optik kabel şəbəkəsi - rəqəmsal infrastrukturun və rəqəmsal təhlükəsizliyin inkişafına töhfə verəcək.

Spiker Sahibə Qafarova, həmçinin hazırda həyata keçirilən digər mühüm təşəbbüs - Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi üzrə əməkdaşlıq haqqında da məlumat verib. Qeyd olunub ki, Azərbaycan Cənub-Cənub əməkdaşlığı konsepsiyasına sadiq qalaraq, gömrük işinin təkmilləşdirilməsi, modernləşdirilməsi, rəqəmsallaşdırılması və infrastrukturun inkişafı sahəsindəki təcrübəsini dənizə çıxışı olmayan digər inkişaf etməkdə olan ölkələrlə bölüşür. Bu da həmin ölkələrə coğrafi təcriddən çıxmaq və kollektiv tərəqqiyə nail olmaq imkanı yaradır. O, həmçinin vurğulayıb ki, Azərbaycan beynəlxalq ictimaiyyəti dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələrin dayanıqlı inkişaf məqsədlərinə nail olması üçün onlara dəstək xarakterli daha güclü və praktiki mexanizmlər təqdim etməyə çağırır.

Çıxışda o da vurğulanıb ki, Azərbaycanın təşəbbüsləri dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələr üçün regional əməkdaşlığa və koordinasiyaya, daha yaxşı əlaqələrə və ticarətə töhfədir.

Sonra müzakirələr digər çıxışlarla davam edib. Tədbirin sonunda Milli Məclisin Sədri müzakirələrin səmərəli keçdiyini söyləyərək, belə platformaların təcrübə və yeni ideyaların mübadiləsi baxımından əhəmiyyətli olduğunu bildirib. O, yekun sessiyada qəbul edilən və tədbir iştirakçılarının ümumi mövqeyini əks etdirən yekun sənədin, ümumi məqsədlərimizin reallaşdırılmasına əhəmiyyətli dəstək verəcəyini və Avaza Fəaliyyət Proqramının həyata keçirilməsinə töhfə olacağını söyləyib.

*"Azərbaycan"*

# Azərbaycan və Türkmənistan parlamentləri arasında əməkdaşlıq məsələləri müzakirə edilib



**Avqustun 4-də Milli Məclisin sədri Sahibə Qafarova Türkmənistana işgüzar səfəri çərçivəsində Türkmənistan Məclisinin Sədri Dünyagözəl Qulmanova ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə D.Qulmanova diqqətə çatdırıb ki, konfransda müzakirə olunan məsələlər mühüm əhəmiyyətə malikdir və xalqlarımızın maraqlarına xidmət edir. O, Azərbaycanın və Türkmənistanın qanunverici orqanları arasındakı əməkdaşlığı yüksək qiymətləndirərək ölkələrimiz arasındakı münasibətlərin mövcud səviyyəsindən razılığını bildirib.

Sahibə Qafarova konfransın iştirakçı ölkələrin parlamentləri arasında əməkdaşlığın inkişafı baxımından əhəmiyyətini qeyd edib. O, dost və qardaş ölkələrimiz arasında əlaqələrin inkişafından danışaraq, yüksəksəviyyəli qarşılıqlı səfərlərin münasibətlərin inkişafında böyük rol oynadığını qeyd edib. Milli Məclisin Sədri ötən ay Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədovun başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərini xatırlayaraq, ali qonağın həmin səfər çərçivəsində Prezident İlham Əliyevlə keçirdiyi görüşünün və aparılmış müzakirələrin əhəmiyyətindən danışıb. Bildirib ki, ölkələrimiz arasında imzalanmış sənədlər münasibətlərimizin hüquqi bazasını formalaşdırıb. Bu sənədlər arasında "Azərbaycan Respublikası ilə Türkmənistan arasında Strateji tərəfdaşlıq haqqında Bəyannamə" ölkələrimizin hərtərəfli əməkdaşlığının daha da inkişafı baxımından xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan-Türkmənistan münasibətlərinin inkişafında hər iki ölkənin parlamentlərinin əhəmiyyətini vurğulayan Sahibə Qafarova bu sahədə parlamentlərarası əlaqələr üzrə işçi qruplarının fəaliyyətini təqdir edib.

Görüşdə xalqlarımızı dərin tarixi köklərin, mənəvi və mədəni dəyərlərin birləşdirdiyi, bunları qoruyub gələcək nəsillərə çatdırmağın vacib olduğu diqqətə çatdırılıb.

Söhbət zamanı tərəfləri maraqlandıran digər mövzularda da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Türkmənistanda Özbəkistan Ali Məclisi Senatının Sədri ilə görüşüb



**Milli Məclisin Sədri Sahibə Qafarova Türkmənistanın Avaza şəhərinə işgüzar səfəri çərçivəsində avqustun 4-də Özbəkistan Respublikası Ali Məclisi Senatının Sədri Tənzilə Narbayeva ilə görüşüb.**

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, görüşdə dost və qardaş ölkələrimiz arasında münasibətlərin dinamik inkişafından məmnunluq ifadə olunaraq, əlaqələrimizin dərinləşməsində ölkə başçılarının müstəsna rolu xüsusi vurğulanıb.

Azərbaycanın və Özbəkistanın prezidentlərinin yüksək iradəsi sayəsində ikitərəfli münasibətlərimizin yeni və daha dinamik inkişaf mərhələsinə daxil olduğu qeyd edilərək, ölkələrimizin bir çox sahələrdə uğurla əməkdaşlıq etdiyi diqqətə çatdırılıb.

Söhbət zamanı ölkələrimiz arasında yüksəksəviyyəli münasibətlərin ruhuna uyğun olaraq, parlamentlərimiz arasında da əməkdaşlığın dinamik inkişaf tempinə malik olduğu bildirilib. Qeyd olunub ki, sıx təmaslar, müxtəlif beynəlxalq tədbirlər çərçivəsində keçirilən mütəmadi görüşlər və qarşılıqlı səfərlər qanunverici orqanlarımızın əməkdaşlığına mühüm və müsbət təsir göstərir. Sahibə Qafarova özünün Özbəkistana çoxsaylı səfərlərini, o cümlədən cari ilin iyulunda Birinci Özbəkistan-Azərbaycan parlamentlərarası Forumunda iştirakını məmnunluqla xatırlayıb. Forum çərçivəsində imzalanan "Parlamentlərarası əməkdaşlığın inkişafına dair 2025-2026-cı illər üçün praktiki tədbirlər planı", həmçinin Milli Məclislə Özbəkistan Ali Məclisinin Parlamentlərarası əməkdaşlıq komissiyasının reqlamentinin münasibətlərimizin gələcək inkişafı baxımından əhəmiyyəti bir daha diqqətə çatdırılaraq, bu sənədlərin parlamentlərimiz və onların komitələri, dostluq qrupları və deputatlar arasında əlaqələrin daha da genişləndirilməsinə əhəmiyyətli imkanlar yaratdığı bildirilib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Azərbaycanı dünya siyasətində söz sahibinə çevirən Lider

## İlham Əliyev Azərbaycan tarixinin ən şanlı səhifələrinin müəllifidir



**Elə şəxsiyyətlər var ki, onlar müqayisəolunmaz, bənzərsizdirlər, heç kimi təkrar etmirlər. Uğurlu fəaliyyətləri ilə təmsil olunduqları xalqın tarixini yaradırlar. Belə insanlara Tanrı tərəfindən seçilmişlər də deyirlər. Onlar nəyi nə zaman edəcəklərini və necə edəcəklərini əvvəlcədən bilirlər. Xilaskarlıq missiyası üçün yaranan belə şəxsiyyətlər dəmir iradə və qətiyyətlə, vaxtında qəbul etdikləri qərarlarla təmsil olduqları xalqın əsl lideri sayılırlar.**

Dövlət başçısı İlham Əliyevin hakimiyyətə gəldiyi günləri nəzərdən keçirsək, gözlərimiz önündə o illərdə siyasi hadisələrin çətin bir mərhələsini görərik. Ümumiyyətlə, bir cümlə ilə 2003-cü ilin siyasi panoramasını yaratmaq istəsək, "qarışıq zaman idi" ifadəsi ilə o dövrün ən uyğun təsnifatını vermiş olarıq.

Ulu Öndər Heydər Əliyev Azərbaycanı vətəndaş müharibəsi təhlükəsindən xilas edib ölkəni müstəqillik yoluna çıxarsa da, məkrli planlarını həyata keçirmək istəyən kənar qüvvələr öz qlobal maraqları naminə ölkədə sabitliyi pozmaq üçün bütün gücləri ilə çalışırdılar. Azərbaycan "demokratiya" ixracatçısı olan ölkələrin xüsusi xidmət orqanlarının paliqonuna çevrilmişdi. İllüziyaya inananlar, ilğımı gerçəklik kimi qəbul edənlər, pafoslu və bəlağətli sözlərə, təmtəraqlı çağırışlara aldananlar, bir sözlə, yollarını çaşanlar da az deyildi...

Belə bir zamanda - 1 oktyabr 2003-cü ildə bütün ömrünü Azərbaycan xalqının rifahına həsr etmiş Ulu Öndər Heydər Əliyev xalqa müraciət etdi: "Mən öz mənalı həyatımın düz 60 ilini xalqımın bu günü və sabahı ilə yaşamışam. Bunun son on ili müstəqil Azərbaycan dövlətinə xidmətdə keçib. Bu sahədə görülən işlər Sizə məlumdur, lakin mənim hələ tamamlanmamış çox perspektivli planlarım var". Daha sonra Ulu Öndər müraciətində xüsusi olaraq vurğulayırdı: "Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası Sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

2003-cü il 15 oktyabr prezident seçkilərində seçicilərin 76,8 faizinin səsini qazanan fenomenal tarixi şəxsiyyət İlham Əliyev hakimiyyətə gəldiyi gündən məqsəd və vəzifələrə çatmaq üçün öz strategiya və taktikasını tətbiq etməklə yeni bir mərhələnin başlanğıcını qoydu. Xalqın mütləq əksəriyyətinin səsini qazanaraq ölkə Prezidenti seçilən İlham Əliyevin xalqa ilk mesajı "Mən hər bir azərbaycanlının prezidenti olacağam" oldu. İlham Əliyev gözəl bilirdi ki, güc birlikdədir. Xalqından güc alan, xalqın birliyinə nail olan liderlər tarixdə əbədiyaşar olurlar. Prezidentliyinin ilk günündən etibarən dayanıqlı inkişaf üçün əsaslı addımlar atan, müstəqilliyimizin və ideoloji dayaqlarımızın daha da möhkəmləndirilməsi, vətəndaş həmrəyliyinin bərqərar olması naminə mühüm işlər görən Prezident İlham Əliyev qısa bir zamanda xalqımızın birliyinin rəmzinə çevrildi. Bununla da dünya tarixinə adını yazdırmış liderlər ilə müqayisədə yeni, fərqli bir dövlət başçısı obrazını yaratmış oldu.

İlham Əliyev siyasətinin təməl prinsiplərinin əsasını xalqa həqiqəti söyləmək, obyektiv və dürüst olmaq təşkil edirdi. Yeni lider hakimiyyətə gəldiyi gündən yalnız bir amal uğrunda mübarizə apardı: Azərbaycanı güclü, qüdrətli etmək: 2020-ci il noyabrın 23-də Ağdam rayonuna səfəri zamanı dövlət başçısı bu haqda danışaraq demişdir: "Mən son 17 il ərzində xalqa müraciət edərkən dəfələrlə deyirdim ki, biz daha güclü olmalıyıq, daha qüdrətli ordu qurmalıyıq... Biz son 17 il ərzində münaqişənin həlli üçün hüquqi baza yaratdıq... Mən bu 17 il ərzində daim deyirdim ki, biz iqtisadi sahəyə güclü təkan verməliyik, iqtisadi müstəqilliyimizi təmin etməliyik və təmin etdik. Bu gün biz iqtisadi cəhətdən heç kimdən asılı deyilik". Cənab İlham Əliyevin hakimiyyətdə olduğu illəri Azərbaycan tarixinin şərəf salnaməsinin yazıldığı illər kimi xarakterizə etmək olar.

2006-cı ildə Azərbaycanın enerji resurslarını dünya bazarına çıxaran strateji əhmiyyətli layihə - Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəmərinin istifadəyə verilməsi regional enerji xəritəsində ölkəmizin rolunu artırdı. 2007-ci ildə Azərbaycan qazını Avropaya çatdırmaq üçün ilk və olduqca ciddi addım atıldı: Bakı-Tbilisi-Ərzurum (BTƏ) qaz kəməri işə düşdü. İlk prezidentliyi dövründə ölkəni iqtisadi yüksəliş və regional güc mərkəzinə çevirən İlham Əliyev 2008-ci ildə ikinci dəfə yüksək səs çoxluğu ilə yenidən prezident seçildi.

2009-cu il Azərbaycan tarixinə "Konstitusiyaya dəyişiklik ili" kimi yazıldı. Bakı şəhəri beynəlxalq layihələrin ünvanına çevrildi. 2015-ci ildə Avropa Oyunları, 2016-cı ildə "Formula 1" Qran-prisi, 2017-ci ildə İslam Həmrəyliyi Oyunları Bakıda keçirilməklə paytaxtımız çoxminli qonaqlara qucaq açdı. Vətənimizə qonaq gələn dövlət adamları, turistlər, media təmsilçiləri ölkədə gedən yenidənqurma, quruculuq və abadlıq işlərini görüb heyranlıqlarını gizlədə bilmədilər. Bununla da ölkəmizin iqtisadi gücünə güc qatan turizm sektorunda yeni bir mərhələ başladı.

2015-2020-ci illəri şərti olaraq Azərbaycan Ordusunun qüdrətləndiyi dövr kimi xarakterizə etsək, dövlət başçısının bu illərdə əsas hədəfi Azərbaycan Ordusunu müasir silahlarla təmin etmək, orduda nizam-intizamı yüksəltmək, işğal olunmuş torpaqları azad etmək idi. Bu məqsədlə orduya daha çox sərmayə qoyulur, döyüş təlimlərinə diqqət artırılırdı. 2016-cı ilin aprel ayında baş verən 4 günlük müharibə nəticəsində Azərbaycan Ordusu ilk dəfə düşmən üzərində tarixi əhəmiyyətli qələbə qazanaraq strateji əhəmiyyətli mövqeləri düşməndən geri aldı. Tarixə Azərbaycan Ordusunun ilk uğuru kimi yazılan Aprel döyüşləri cəmiyyət üçün psixoloji dönüş nöqtəsi oldu.

Azərbaycanın Qoşulmama Hərəkatına sədrlik etdiyi 2019-2023-cü illər xarici siyasət sahəsində ölkəmizi beynəlxalq miqyasda nümunəvi dövlət kimi tanıtmaqda diplomatik və siyasi əhəmiyyətə malik bir mərhələ oldu. Azərbaycanın beynəlxalq arenada mövqeyi əsaslı şəkildə möhkəmləndi. Bu, ölkəmizin qlobal siyasətdəki nüfuzunun artmasını, regional və beynəlxalq məsələlərdə söz sahibinə çevrilməsini və bir sıra strateji imkanlar əldə etməsini təmin etdi.

Hakimiyyətinin 17-ci ilində İlham Əliyev Azərbaycan tarixinin ən şanlı səhifəsini yazmaqla ölkəmizin hərb və siyasi tarixinə adını qətiyyətli bir lider, yenilməz bir sərkərdə kimi yazdırmaqla dünya siyasi düzənində də yeni bir formul yaratdı. 2020-ci il sentyabrın 27-də başlayan, 44 gün çəkən İkinci Qarabağ müharibəsi noyabrın 10-da Ermənistanın kapitulyasiyası ilə başa çatdı. Xalqımızın qəlbində dərin məhəbbət qazanan Prezident İlham Əliyev xilaskarlıq missiyasını sona qədər davam etdirdi. 2023-cü il sentyabrın 19-da Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə başlayan lokal xarakterli antiterror tədbiri Qarabağı separatçılardan tamamilə azad etdi.

2020-ci ildə qələbədən sonra işğaldan azad olunmuş ərazilərdə misli görünməmiş bərpa və quruculuq işlərinə start verildi. "Böyük qayıdış" proqramı qəbul edilərək mərhələli şəkildə həyata keçirilməyə başladı. İşğaldan azad edilmiş ərazilərə köç prosesinə start verildi. İllərlə yurd həsrəti çəkən Zəngilan, Laçın, Füzuli, Şuşa, Cəbrayıl, Ağdam, Ağdərə, Xocalı sakinlərinin yurda dönüşü başladı. Bu gün Qarabağ və Şərqi Zəngəzur böyük tikinti meydançasını xatırladır. İşğaldan azad olunmuş ərazilərdə sürətli bərpa-quruculuq işləri gedir. Avtomobil və dəmir yolları, elektrik stansiyaları, tunellər tikilir, sosial obyektlər fəaliyyət göstərir. Əhalinin normal istirahəti, turizmin inkişafı üçün böyük layihələr gerçəkləşdirilir.

İkinci Qarabağ müharibəsinin nəticəsi, Azərbaycan Ordusunun yaratdığı yeni reallıq Cənubi Qafqazda balansın dəyişməsinə səbəb oldu. Azərbaycan 44 günlük müharibədə qələbəsini diplomatik müstəviyə çıxardı. 2020-ci ilin noyabrında imzalanmış üçtərəfli Bəyanatın 9-cu maddəsi Azərbaycan ərazisinin ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikasını Türkiyə ilə birləşdirəcək Zəngəzur dəhlizinin açılmasını şərtləndirdi.

Azərbaycanın Naxçıvanla birbaşa əlaqəsinin təmin olunması üçün regional layihə - İran və Ermənistan üzərindən keçəcək Zəngəzur dəhlizi layihəsi artıq gerçəkləşmək üzrədir.

Dövlət başçısının xüsusi olaraq önəm verdiyi Zəngəzur dəhlizi qitələrarası əhəmiyyəti olan çox ciddi bir layihədir. Bu dəhlizin unikallığı ondan ibarətdir ki, son illər artan iqtisadi nəqliyyat şəbəkəsində Çin yeni alternativi təmsil edir. Bu alternativ layihə yüklərin Çindən Türkiyənin şərq əyalətlərinə, oradan isə Aralıq dənizi və ya İstanbul boğazı vasitəsilə Avropaya daşınmasını nəzərdə tutur. Əslində, bu yenilik həm Türkiyə, həm də Çinin diversifikasiya strategiyalarına uyğundur. Beləliklə, yaxın gələcəkdə Zəngəzur dəhlizi "Şərq-Qərb" nəqliyyat dəhlizinə inteqrasiyası fonunda Avropa və Asiya qitələri arasında mühüm ticarət marşrutuna çevrilmək potensialına malik olacaq.

2022-ci ildə Avropa İttifaqı ilə qaz sazişinin imzalanması ölkəmizin dünyanın enerji diplomatiyasında da öz yerini və nüfuzunu möhkəmlətmiş oldu. Artıq inamla qeyd edə bilərik ki, Azərbaycan enerji və infrastruktur baxımından regionda aparıcı gücə çevrilib. Respublikamız bu gün dünyada Avropanın Rusiya qazından asılılığını azaltmaqda əsas alternativ kimi qəbul edilməkdədir. Bu gün Azərbaycan beynəlxalq arenada müstəqil, balanslaşdırılmış və aktiv siyasət yürüdən dövlət kimi öz mövqeyini və nüfuzunu möhkəmləndirməkdədir.

2024-cü ildə Azərbaycanın COP29 iqlim sammitinə evsahibliyi etməsi ölkəmizin beynəlxalq aləmdə artan nüfuzuna verilən yüksək dəyər idi. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) yekununda qəbul edilən qərarlar bəşəriyyətin gələcəyi üçün müstəsna önəm daşımaqla bərabər, Azərbaycanın liderlik qabiliyyətini və beynəlxalq nüfuzunu bir daha nümayiş etdirdi. Rəsmi Bakı 2024-cü il noyabrın 11-də start götürən və qlobal iqlim dəyişmələri ilə bağlı müzakirələrin aparıldığı toplantının dünya ölkələrinin, xüsusən də inkişaf etməkdə olan dövlətlərin gözlədikləri qərarların qəbulu ilə başa çatması üçün bütün qüvvəsini səfərbər etdi. Bununla Azərbaycan genişmiqyaslı tədbirin öhdəsindən uğurla gəldi, bu sahədə yüksəksəviyyəli təşkilatçılıq qabiliyyətini nümayiş etdirdi. Bütün tərəflərin yekdilliklə COP29-un yüksək səviyyədə təşkilinə görə Azərbaycana rəsmi şəkildə təşəkkür elan olunması barədə qərar qəbul etməsi bunun bariz göstəricisidir.

Bu məqamda Prezident İlham Əliyevin səsləndirdiyi bu fikri xatırlatmaq yerinə düşər: "Azərbaycan xalqı 2003-cü ildə bir daha müdriklik göstərərək, məhz Ulu Öndərin şəxsiyyətinə olan hörməti ifadə edərək Heydər Əliyev siyasətinə səs verdi. Mən 2003-cü ildə xalqa söz vermişdim ki, bu yoldan dönməyəcəyəm. Son 19 ilin hadisələri onu göstərir ki, belə də oldu, Ulu Öndərin bütün tapşırıqları, bütün tövsiyələri yerinə yetirildi. O, öz siyasi vəsiyyətində demişdir ki, bir çox işlər görüldü, ancaq görə bilmədiyimiz işləri mənim davamçılarım görəcək, belə də oldu. Biz onun siyasi xəttini davam və inkişaf etdirərək güclü Azərbaycan dövləti qurduq ki, sözün əsl mənasında, hər bir azərbaycanlı bu dövlətlə, doğma dövlətimizlə fəxr edir. Biz iqtisadi islahatları dərinləşdirdik və son 19 ildə bu sahədə görülən işlər göz qabağındadır. Təkcə onu demək kifayətdir ki, 2003-cü ildən bu günə qədər bizim iqtisadiyyatımız 3 dəfədən çox artmışdır. Bu il iqtisadiyyatımız rekord həddə çatacaq. İlin sonuna qədər gözlənilən proqnoz onu deyir ki, iqtisadiyyatımız 130 milyard manata çatacaq. Bu, rekord göstəricidir".

Bir sözlə, 2003-cü il avqustun 24-də İlham Əliyevin Nazirlər Kabinetinin Sədri təyin olunması, daha sonra isə Prezident seçilməsi ilə Azərbaycan yeni mərhələyə keçdi və tarixinin ən güclü dövlətinə çevrildi.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

## Bölgədə sülh və sabitlik üçün əlverişli şərait yaranıb

**Son beş il ərzində Azərbaycanın qazandığı qələbələr ümumilikdə regionda dayanıqlı sülh üçün mühüm zəmin formalaşdırıb.Təhlükəsizliyin qarantı olaraq yerləşdiyi coğrafiyanı xarici qüvvələrin bitməyən mənfur planlarından xilas edən ölkəmiz prinsipial və qətiyyətli müstəqil siyasəti ilə bölgədə yeni reallıqlar yaradıb.**

Hələ 44 günlük Vətən müharibəsi dövründə, eləcə də 2023-cü ildə keçirilmiş antiterror tədbirləri zamanı bölgədə maraqları olan xarici güclər layiqincə yerlərinə otuzduruldu. Azərbaycana qarşı qeyri-dost hərəkət sərgiləyənlər, düşmən mövqedə dayananlar, təcavüzkara dəstək verənlər niyyətlərinə çata bilmədilər. Torpaqlarımız işğaldan azad olundu, dövlət suverenliyimiz təmin edildi. Qarabağ və Şərqi Zəngəzurda yaradılan "boz zona"ya son qoyuldu.

Bu minvalla onilliklər boyu adı qaynar münaqişə bölgəsi kimi hallanan Cənubi Qafqaz nəhayət ki, rahat nəfəs almağa başladı. Hazırda regionda əməkdaşlıq, qarşılıqlı əlaqələr, rifah, tərəqqi üçün yaranmış hərtərəfli şərait də məhz Azərbaycanın ortaya qoyduğu sarsılmaz iradənin nəticəsidir.

### Bu, yeganə seçimdir

2023-cü ildən sonra Azərbaycan ilə Ermənistanın münasibətlərinin normallaşması istiqamətində də nəzərəçarpacaq irəliləyişlərə nail olunub və bu prosesin üçüncü tərəflərə lüzum görülmədən həyata keçirilməsi diqqətçəkən məqamdır. Məlumdur ki, həm münaqişə, həm də postmünaqişə dövründə məhz tərəflər arasında vasitəçilik etmək istəyən dairələrin qərəzli mövqe sərgiləmələri barışın əldə edilməsinə birbaşa maneə yaradan amillərdən olub.

Ötən müddətdə İrəvanın dildə sülh tərəfdarı olduğunu deməsi, reallıqda isə revanşa hazırlaşması və sülhdən yayınması da Fransa kimi xarici himayədarlarının verdiyi siyasi, hərbi dəstəyin nəticəsi idi. Bir tərəfdən sülh danışıqlarında tərəf kimi iştirak etmək üçün çaba göstərən Fransa digər tərəfdən Ermənistanı silahlandırmaqla sülhə əngəl yaradıb. Bu günlər Fransa Milli Assambleyasında ölkəmizlə bağlı qərəzli qətnamə layihəsinin hazırlanması da Cənubi Qafqazda kövrək sülh mühitini pozmaq niyyəti güdür. Bədnam qətnamə iyulun 22-də Fransa Milli Assambleyasındakı "Sağ Respublikaçılar" qrupunun rəhbəri və Fransa-Ermənistan dostluq qrupunun sədri LoranVokye, habelə həmin dostluq qrupunun sədr müavini Aleksandr Marten tərəfindən irəli sürülüb. Başdan-başa yalan və iftira üzərində qurulan qətnamədə Azərbaycanın suverenliyi və ərazi bütövlüyü şübhə altına alınır.

Ancaq erməni lobbisinin təsiri ilə Azərbaycana qarşı təşkil olunan qərəz kampaniyaları iflasa məhkumdur. Çünki indiyə qədər havadarlarının çaldıqları havaya həvəslə oynayan, siyasi iradə ortaya qoymağı bacarmayan rəsmi İrəvan artıq anlayır ki, sülhdən başqa çıxış yolu yoxdur. Azərbaycanla yeni müharibə hərtərəfli tənəzzül yaşayan, Vətən müharibəsində hərbi gücü darmadağın edilən Ermənistanın bir dövlət olaraq məhvi anlamına gəlir. Ermənistan 44 günlük müharibə zamanı da gördü ki, xarici himayədarları ona heç bir kömək edə bilmirlər. Azərbaycanın qətiyyətli siyasi, diplomatik siyasəti qərəzli güclərə əl-qol açmağa imkan vermədi.

### Proses geridönməz xarakter alıb

Eləcə də İkinci Qarabağ müharibəsindən sonra qərəzli xarici güclərin Ermənistan üzərindən bölgədə yenidən münaqişə, müharibə ocağı qalamaq istəyi özünü büruzə verməyə başladı. Avropa İttifaqının "müşahidə missiyası"nın bölgəyə yerləşdirilməsi də bunun tərkib hissəsidir. Halbuki Azərbaycan BMT Təhlükəsizlik Şurasının qətnamələrini öz gücünə yerinə yetirərək beynəlxalq hüququ təmin edib və bununla bölgədə münaqişəyə son qoyub. Yəni bu "missiya"nın bölgədə müşahidə edəcəyi hər hansı qarşıdurma, münaqişə, müharibə mövcud deyil.

Cənubi Qafqazda sülhün təşəbbüskarı rəsmi Bakıdır. Azərbaycanla Ermənistan arasında sərhədlərin delimitasiya və demarkasiyasına start verilməsi, sərhəd dirəklərinin quraşdırılması, sülh sazişi layihəsinin mətni ətrafında danışıqlar prosesinin yekunlaşması, həmçinin Ermənistan-Azərbaycan normallaşma prosesində ikitərəfli dialoqlara başlanılması məhz ölkəmizin sülh səylərinin uğurlu nəticələridir. Həmçinin Azərbaycan və Ermənistan liderlərinin Əbu-Dabi şəhərində keçirilən görüşü sülh müqaviləsinin imzalanması istiqamətində atılan mühüm addımdır. Görüşdə sərhədlərin delimitasiyası, Zəngəzur dəhlizinin açılması və inkişafı, sülh sazişinin paraflanması ilə bağlı müzakirələr aparılması da bunu təsdiqləyir.

III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşü zamanı Prezident İlham Əliyev söyləmişdi ki, bu iki məsələ - Ermənistan Konstitusiyasına dəyişiklik və ATƏT-in Minsk qrupunun buraxılması, - həll edilən kimi sülh müqaviləsi imzalana bilər: "Bəli, mətn paraflana bilər və Azərbaycan tərəfi artıq Əbu-Dabidə bu təkliflə çıxış edib. Lakin bildiyiniz kimi, paraflanma heç də imzalanma demək deyil. Yəni biri var ki, tərəflər arasında şifahi razılıq əldə olunur, biri də var ki, tərəflər sənədin hər səhifəsinin sonunda öz imzalarını qoyaraq onu paraflayır. Məncə, biz sülh müqaviləsinin imzalanmasına çox yaxınıq".

Dövlət başçısı hesab edir ki, bu proses geridönməz xarakter alıb: "Bunun hər hansı bir yenidən baxılması, yenidən baş verməsi mümkün deyil. Biz heç nəyi yenidən müzakirə etməyəcəyik. Ancaq Ermənistan yenidən müzakirəyə başlamağa çalışırsa, o deməkdir ki, onlar sülh istəmirlər. Deməli, o ərazi iddiası qalır. Ona görə də biz düzgün istiqamətdəyik. Onlar öz ev tapşırıqlarını yerinə yetirməlidirlər. Bu baş verdiyi halda biz sülh müqaviləsini imzalaya bilərik. Bu da region üçün çox böyük yenilik, çox böyük dəyişiklik olacaq..."

Vurğulayaq ki, sülh istiqamətində əldə olunan bu müsbət irəliləyişlərə beynəlxalq birlik də dəstəyini bildirir. Əbu-Dabidə Ermənistan ilə Azərbaycan liderlərinin ikitərəfli görüşündən dərhal sonra ABŞ tərəfindən bölgədə sülh səylərinin dəstəkləndiyi ilə bağlı açıqlama verilməsi bunun təsdiqidir. Həmçinin ABŞ Prezidenti Donald Trampın Ermənistanla Azərbaycan arasında münaqişənin tezliklə uğurla və birdəfəlik həll olunacağına inandığını bildirməsi, Birləşmiş Millətlər Təşkilatının Baş katibi Antonio Quterreş tərəfindən Əbu-Dabi görüşünün bölgədə dayanıqlı sülhə gedən yolda ciddi irəliləyiş, Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsi üzrə əldə olunan razılığın möhkəmləndirilməsi istiqamətində atılmış mühüm addım kimi dəyərləndirilməsi də görüşün dünyada geniş rezonans doğurduğundan xəbər verir.

Göründüyü kimi, sülh təşəbbüsçüsü olaraq Azərbaycanın yürütdüyü məqsədyönlü siyasət yerləşdiyi coğrafi bölgənin yenidən münaqişə, müharibə ocağına çevrilməsinin qarşısını qətiyyətlə alır. Bütün bunlar isə Cənubi Qafqaza sabitlik və inkişaf vəd edir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# İlham Əliyevin qətiyyətli enerji siyasəti sülh və əməkdaşlıq rəmzinə çevrilir



## Azərbaycan daha bir regionun enerji təhlükəsizliyinin təminatçısına çevrilir

**İndi artıq Suriya da Azərbaycan qazı alır. Bununla da mavi yanacağımızı idxal edən ölkələrin sayı 14 oldu. Hazırda Avropanın enerji təhlükəsizliyinə əhəmiyyətli töhfə verən Azərbaycan bu layihə ilə enerji ixracı coğrafiyasını Yaxın Şərqə doğru genişləndirir.**

Türkiyənin Kilis şəhərində cari il avqustun 2-də Azərbaycan qazının Türkiyə ərazisindən Suriyaya nəqlinə başlanılması ilə bağlı tədbir keçirilib və bu, haqlı olaraq Azərbaycan və Suriya arasında tarixi enerji əməkdaşlığının əsasının qoyulması kimi dəyərləndirilir.

Azərbaycan qazının Türkiyə ərazisindən Suriyaya ixracına bu il aprelin 11-də Antalyada və iyulun 12-də Bakıda Azərbaycan Prezidenti İlham Əliyevlə Suriyanın keçid dövrü Prezidenti Əhməd Əl Şaraa arasında keçirilən görüşlərdə əldə edilmiş razılaşmalar əsasında, qısa müddət ərzində start verilib. Xatırladaq ki, Əhməd Əl Şaraanın ölkəmizə işgüzar səfəri çərçivəsində iyulun 12-də Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə Suriya Ərəb Respublikası Hökuməti arasında Anlaşma Memorandumu da imzalanmışdı. Sənədi Azərbaycanın iqtisadiyyat naziri, SOCAR-ın Müşahidə Şurasının sədri Mikayıl Cabbarov və Suriyanın energetika naziri Məhəmməd Əl Bəşir imzalamışdılar.

M.Cabbarov avqustun 2-də sözügedən tədbirdə çıxış edərkən bildirib ki, Azərbaycan təbii qazının Türkiyə ərazisi ilə Suriyaya nəql olunması ölkəmizin enerji ixracı tarixində mühüm mərhələdir və Cənubi Qafqaz ilə Yaxın Şərq arasında yeni enerji körpüsünün əsasını qoyur. Türkiyə-Suriya Təbii Qaz Boru Xəttinin açılışı ilə Azərbaycandan Suriyaya qaz nəqlinin başlanması ölkəmizin etibarlı və strateji enerji təchizatçısı olduğunu bir daha nümayiş etdirir. Bu layihə ölkəmizin qaz ixracı coğrafiyasının yeni istiqamətlər üzrə genişləndirilməsinə mühüm töhfələr verəcək.

Suriyaya qaz Kilis şəhərindəki "Yavuzlu Ölçmə Stansiyası"ndan ötürülür. Azərbaycan qazını bu ölkəyə nəql edən boruların günlük potensialı 6 milyon kubmetrdir. Sadəcə hələlik 3,4 milyon kubmetr qazın nəqli nəzərdə tutulur.

İlkin mərhələdə Suriyaya ildə 2 milyard kubmetrə qədər təbii qaz ixracı mümkün olacaq. Həmin təbii qaz vasitəsilə təqribən 1200 meqavatlıq quraşdırılmış güc aktivləşəcək. Bu layihə Suriyada həyatın normallaşmasına çox ciddi töhfə verəcək, insanların həyat səviyyəsini yüksəldəcək və ölkəyə geri qayıdış prosesini sürətləndirəcək.

Suriyanın energetika naziri Məhəmməd Əl Bəşir jurnalistlərə açıqlamasında bu barədə belə deyib: "Azərbaycanlı qardaşlarımıza bu dəstəyə görə təşəkkür edirəm. Təbii ki, bu razılaşma hər iki ölkə başçısının sonuncu görüşündən sonra baş tutub. Bu, birbaşa Suriya xalqının rifahına və elektrik enerjisi ilə davamlı təminatına xidmət göstərəcək. Bu layihə sonuncu deyil, ilk layihədir. Bundan sonra da bizim birgə layihələrimiz olacaq. Azərbaycanın iqtisadiyyat naziri, qardaşım Mikayıl Cabbarov ilə də bir az öncə görüləcək işlərlə bağlı müzakirələr apardıq. Texniki qrupların qarşılıqlı şəkildə səfərləri təşkil olunacaq. Azərbaycanın Suriyada investisiya ilə bağlı proqram və layihələrini müzakirə etdik".

SOCAR ilə brlikdə Azərbaycan qazının Türkiyə-Suriya sərhədində təhvil verilməsini nəzərdə tutan SVOP (mübadilə) razılaşmasının imzalandığını bildirən Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktar kədərli və sevincli günlərdə daim Türkiyənin yanında olan Azərbaycanın bu layihədə də dəstəyini əsirgəmədiyini vurğulayıb.

Türkiyənin Uludağ Universitetinin professoru, iqtisadçı, türk dünyası üzrə mütəxəssis Mehmet Yüce də bu mühüm hadisə barədə dəyərli fikirlər söyləyib: "Kilis-Hələb təbii qaz boru xəttinin istifadəyə verilməsi regional baxımdan olduqca mühüm və çoxşaxəli nəticələr doğuracaq strateji hadisə kimi qiymətləndirilə bilər. Bu boru xətti Suriyanın təcili enerji tələbatını qarşılamaqla yanaşı, Türkiyənin regional enerji diplomatiyasında və Azərbaycanın enerji ixracında yeni bir səhifə açan strateji layihədir. Burada söhbət təkcə enerji nəqlindən getmir, bu xətt bölgədə sabitliyin və iqtisadi dirçəlişin dəstəklənməsi baxımından böyük əhəmiyyət daşıyır. Həyata keçirilən layihə yalnız enerji transferi deyil, həm də Türkiyənin regional liderlik iddialarını gücləndirən, Suriyanın yenidənqurma prosesinə mühüm töhfə verən və Azərbaycanın enerji diplomatiyasını genişləndirən çoxşaxəli strateji addımdır. Bu layihə regional enerji təhlükəsizliyinin təmin edilməsi, humanitar vəziyyətin yaxşılaşdırılması və uzunmüddətli regional sabitliyin yaradılması baxımından mühüm potensiala malikdir. Yəni bu xətt yalnız enerji layihəsi deyil, eyni zamanda regional geosiyasi balans, dövlətlərarası münasibətlər və enerji təhlükəsizliyi kontekstində dərindən təhlil olunmalı strateji addımdır".

Beləliklə, Azərbaycan qazının alıcısı olan ölkələrin sayı getdikcə artır. Artıq yeni müraciətlər də var, bu istiqamətdə növbəti danışıqlar aparılır. Məsələn, gələn ilin əvvəlindən Albaniyanın da ölkəmizdən qaz idxal edəcəyi gözlənilir. Bütün bunlar isə Prezident İlham Əliyevin həyata keçirdiyi qlobal enerji layihələrinin, qətiyyətinin, yeritdiyi müstəqil siyasətin və ölkəmizin enerji sahəsində dünyada qazandığı etibarlı tərəfdaş imici sayəsində mümkün olub.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Yeni enerji paradiqması: Azərbaycan-Suriya əməkdaşlığı və geosiyasi reallıqlar

**"Avqustun 2-də Türkiyənin Kilis şəhərində baş tutan tədbir bir daha göstərdi ki, Azərbaycan enerji diplomatiyasını yalnız Avropaya yönəltməklə kifayətlənmir, bu siyasət artıq Yaxın Şərqin geosiyasi oyunçularını da əhatə edir. Məhz həmin gün Azərbaycan qazının Türkiyə üzərindən Suriyaya ötürülməsi ilə bağlı ilk rəsmi mərasim keçirildi. Bu, enerji daşıyıcılarının istiqamətində yeni cığırın açıldığını göstərir və Azərbaycanın Yaxın Şərq strategiyasında yeni səhifə açır".**



Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Müşfiq Məmmədli bildirib.

O qeyd edib ki, son onillikdə dağıdıcı müharibə ilə üzləşən Suriya bu gün yeni mərhələyə qədəm qoyur - bərpa və dövlət institutlarının dirçəldilməsi mərhələsinə. Bu dövrdə Azərbaycan həmin prosesin kənarında dayanmaq əvəzinə aktiv rol almağa qərar verib. İyulun 12-də Suriyanın keçid dövrü Prezidenti Əhməd Əl Şaraanın Bakıya səfəri, ondan əvvəl Antalyada Azərbaycan və Suriya prezidentləri arasında baş tutan təmaslar rəsmi Bakının bu bölgəyə marağının təsadüfi olmadığını göstərir.

Azərbaycan Prezidenti İlham Əliyevin birbaşa göstərişi ilə Baş nazirin müavini Samir Şərifovun rəhbərlik etdiyi nümayəndə heyətinin Suriyaya səfəri isə sadəcə protokol xarakterli addım deyil, bu, konkret planların araşdırılması və tətbiqi mərhələsidir. Azərbaycan bu ölkənin enerji infrastrukturunun bərpasına, iqtisadi sabitliyinin təmin olunmasına dəstək verməklə yanaşı, öz enerji siyasətini də yeni coğrafiyalara inteqrasiya edir.

Deputatın sözlərinə görə, Azərbaycan bu günə qədər əsasən Avropa ölkələrinə qaz ixrac edir. Hazırda 14 ölkə bu siyahıya daxildir. Lakin dəyişən enerji bazarları və geosiyasi risklər fonunda qaz ixracının diversifikasiyası artıq zərurətə çevrilib. Bunun üçün ən uyğun platformalardan biri də Yaxın Şərqdir. Azərbaycan qazının Suriyaya ixracı, əslində, daha böyük strateji planın tərkib hissəsidir. Suriya təkcə son istehlakçı kimi deyil, həm də tranzit məntəqə kimi mühüm rol oynaya bilər. Suriyanı İordaniya ilə birləşdirən, lakin münaqişə zamanı dağıdılmış qaz kəmərinin bərpası bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Əgər bu infrastruktur yenidən işə salınarsa, Azərbaycan qazı Misirə qədər uzanan marşrut üzrə nəql edilə bilər. Bu həm də "Cənub-Qərb" enerji dəhlizinin genişlənməsi deməkdir.

Elektrik enerjisi ixracında yeni perspektivlərdən danışan Müşfiq Məmmədli deyib: "Enerji ixracı təkcə qazla məhdudlaşmır. Azərbaycan elektrik enerjisi sahəsində də ciddi inkişaf əldə edib. Günəş və külək enerjisi ilə yanaşı, su və istilik stansiyalarının gücü artırılır və artıq ixrac potensialı yaranıb. Yaxın Şərq ölkələri isə bu sahədə etibarlı tərəfdaş axtarışındadır. Azərbaycan həm texniki, həm də diplomatik baxımdan bu boşluğu doldurmaq imkanına malikdir".

Deputat bildirib ki, Azərbaycanın Suriya ilə münasibətləri daha geniş bir strategiyanın tərkib hissəsidir. Rəsmi Bakı artıq uzun illərdir ki, Avropa İttifaqı, Türkdilli Dövlətlər Təşkilatı və ŞƏT kimi platformalarda fəal rol oynayır. Eyni fəallıq indi Yaxın Şərqdə müşahidə olunur. Burada Azərbaycanın fərqləndirici cəhəti onun balanslı və qarşılıqlı hörmətə əsaslanan yanaşmasıdır. Prezident İlham Əliyevin xarici siyasəti bu fəallığın arxasında dayanan əsas mexanizmdir. Onun təşəbbüsləri nəticəsində Azərbaycan yalnız enerji resurslarının ixracatçısı deyil, eyni zamanda münaqişədən çıxan ölkələr üçün etibarlı tərəfdaş, təcrübə paylaşan və iqtisadi inkişafı təşviq edən aktora çevrilib.

"Azərbaycan-Suriya əməkdaşlığına yalnız qaz ixracı prizmasından baxmaq bu təşəbbüsün mahiyyətini dəyərləndirməkdə yetərli deyil. Bu, Azərbaycanın regionda artan nüfuzunun, enerji diplomatiyasını geosiyasi alət kimi istifadə etməsinin və beynəlxalq münasibətlər sistemində dinamik, adaptiv oyunçuya çevrilməsinin göstəricisidir. Suriya ilə əməkdaşlıq, əslində, Azərbaycanın Yaxın Şərqə yalnız enerji deyil, sabitlik və tərəfdaşlıq modeli ixrac etməsidir. Bu isə gələcək üçün çoxşaxəli, dayanıqlı və qarşılıqlı faydaya əsaslanan regional inteqrasiya perspektivlərini artırır", - deyə M.Məmmədli vurğulayıb.

### *Ekrem GÜREL:* "Azərbaycanın Suriyaya qaz nəqlinə başlaması regionun enerji siyasətində mühüm mərhələdir"



**"Azərbaycan qazının Suriyaya nəql olunmasına başlanması regionun enerji siyasətində mühüm mərhələdir. Bu hadisə regional sabitliyi möhkəmləndirəcək".**

Bunu AZƏRTAC-a açıqlamasında İğdır Universitetinin rektoru professor Ekrem Gürel bildirib.

O deyib ki, Azərbaycan qazının Türkiyə vasitəsilə üçüncü ölkələrə nəqli Bakı-Tbilisi-Ərzurum və Trans-Anadolu boru kəməri (TANAP) kimi layihələrə də müsbət siyasi və iqtisadi təsir göstərir.

Ekrem Gürel həmçinin Bakı ilə Ankaranın Suriyanın bərpasına töhfəsinin təkcə iqtisadi deyil, sosial-siyasi nəticələrinə də diqqət çəkib: "Azərbaycan qazı Türkiyə ərazisindən ilk növbədə Suriyanın İdlib, Afrin, Əl-Bab və Cerablus bölgələrinə veriləcək. Bu ərazilərin enerji infrastrukturu uzunmüddətli münaqişə dövründə ciddi zərər görüb. Azərbaycanın qazı hesabına mənzillər isidiləcək, elektrik enerjisi istehsal olunacaq, kiçik sənaye müəssisələri yenidən fəaliyyətə başlayacaq. Nəticədə əhalinin rifahı yaxşılaşacaq və qaçqınlar öz evlərinə daha fəal şəkildə qayıtmağa başlayacaqlar".

İğdır Universitetinin rektoru qeyd edib ki, bu gün Azərbaycan qazı yalnız Avropa ölkələrinə deyil, eyni zamanda Yaxın Şərqə də nəql olunur. Bu da Azərbaycanın enerji siyasətində yeni mərhələyə keçidinin göstəricisidir. "İstisna deyil ki, gələcəkdə bu cür "enerji dəhlizləri" İordaniya və Livan kimi ölkələr üçün də aktual ola bilər", - deyə Ekrem Gürel diqqətə çatdırıb.

### *İğdırdakı "Azərbaycan Evi"nin rəhbəri:* "Suriyaya təbii qazın idxalı Azərbaycan ilə Türkiyənin ortaq baxışının növbəti göstəricisidir"



**"Türkiyənin Suriyanın enerji infrastrukturunun yenidən qurulması prosesində üzərinə götürdüyü fəal işə Azərbaycanın dəstək verməsi iki ölkə arasındakı ortaq baxışın növbəti nümunəsidir".**

Bu barədə AZƏRTAC-a açıqlamasında Türkiyənin İğdırdakı "Azərbaycan Evi"nin rəhbəri Ziya Zakir Acar bildirib.

O deyib ki, Azərbaycanın Yaxın Şərqə qaz nəqlinə başlaması ilə Suriyada elektrik enerjisinin verilişi gündə 3-4 saatdan 10 saata qaldırılacaq. Bu, Suriyanın yenidən qurulmasına təkan verəcək mühüm hadisədir. Bu qazdan Hələbdə yerləşən stansiyada elektrik enerjisi istehsalı məqsədilə istifadə ediləcək və təxminən 1200 meqavatlıq elektrik enerjisinə çevriləcək. Beləliklə, Suriyada hazırda istehsal olunan elektrik enerjisinin miqdarı təxminən iki dəfə artacaq.

Türkiyənin bundan əvvəl Suriyanın şimalına məhdud həcmdə enerji ixrac etdiyini, vaxtaşırı elektrik ötürücü xətləri vasitəsilə bölgəyə dəstək göstərdiyini xatırladan Ziya Zakir Acar deyib: "Azərbaycan-Türkiyə qardaşlığı hər keçən gün daha da möhkəmlənir. Prezident İlham Əliyevin Kahramanmaraşdakı çıxışında Azərbaycanda türklərin 10 milyon qardaşının olması və azərbaycanlıların da Türkiyədə 80 milyondan çox qardaşının olduğunu bildiyini deməsi, Azərbaycan tərəfindən Türkiyədəki zəlzələ bölgəsində qısa müddətdə yeni yaşayış binalarının inşa edilməsi iki ölkə xalqları arasındakı birliyin ən böyük ifadəsi idi. Bu birlik Qarabağın azadlığı uğrunda aparılan haqq mübarizəsində də özünü bariz şəkildə göstərdi. Yəni Azərbaycan və Türkiyə hər zaman bir-birinin yanında olub. Suriyaya qədər uzanan Azərbaycan qazı da bu birliyin, ortaq baxışın nümunəsidir. Azərbaycan artıq dünya dövlətləri arasında önəmli yer tutub, Qafqazın parlayan ulduzuna çevrilib. Neft və təbii qaz istehsalçısı olan Azərbaycan gələcəkdə qlobal enerji bazarı olmağa namizəddir. Bu səbəbdən neft və təbii qaz idxalında mənbə müxtəlifliyi, tədarük təhlükəsizliyi və davamlılığın təmin edilməsi, eləcə də enerjidaşıma layihələrinin inkişaf etdirilməsi Azərbaycanla yanaşı, Türkiyə üçün də böyük əhəmiyyət kəsb edir".

### *Türkiyədən olan sabiq deputat:* "Cənubi Qafqaz ilə Yaxın Şərq arasında yeni enerji körpüsünün təməli qoyulub"



**"Azərbaycan təbii qazının Avropadan sonra Yaxın Şərqə nəqlinə başlanılıb. Bu, çox mühüm və strateji addım olmaqla yanaşı, həm də Azərbaycanın enerji ixracı tarixində əhəmiyyətli bir mərhələ kimi qeydə alındı. Bununla Cənubi Qafqaz ilə Yaxın Şərq arasında yeni bir enerji körpüsünün təməli qoyuldu".**

Bunu AZƏRTAC-a açıqlamasında Türkiyə Böyük Millət Məclisinin sabiq deputatı Yavuz Subaşı bildirib.

O deyib ki, Suriyaya qaz nəqli ilə bağlı həyata keçirilən layihə Azərbaycanın etibarlı və strateji enerji təchizatçısı olduğunu bir daha nümayiş etdirib. "Cənub qaz dəhlizi", Trans-Adriatik təbii qaz boru kəməri, Cənubi Qafqaz təbii qaz boru kəməri və Bakı-Tbilisi-Ceyhan boru kəməri kimi layihələr Azərbaycanın təbii qaz ixracının coğrafiyasının genişlənməsinə mühüm töhfələr verəcək. Azərbaycandan Türkiyəyə gələn təbii qazın artıq Kilis vasitəsilə Suriyaya verilməsinə başlanıb və gündəlik 6 milyon kubmetr gücündə qaz nəqli həyata keçiriləcək. Bununla, Suriyadakı elektrik stansiyalarının da yaxın zamanda işə salınacağı və təqribən 5 milyon ailəyə xidmət göstəriləcəyi gözlənilir. Azərbaycanın hasil etdiyi təbii qazın Avropadan sonra Yaxın Şərqdə də istifadə olunması Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycanın enerji təhlükəsizliyi sahəsində etibarlı və strateji rol oynadığını göstərən mühüm amildir. Türkiyə "Bir millət, iki dövlət" şüarı ilə hər zaman Azərbaycanın yanında olub və biz daima Azərbaycanın uğurlarından qürur duymuşuq. Prezident İlham Əliyevin rəhbərliyi altında iri addımlarla irəliləyən Azərbaycana uğurlar arzulayıram", - deyə o vurğulayıb.

### *Qafqaz Universitetləri Birliyinin rəhbəri:* "Azərbaycanın şaxələnən enerji siyasəti türk dünyası üçün həyati əhəmiyyət daşıyır"



**"Azərbaycan hər gün inkişaf edir, böyüyür və bölgədə təsirli bir aktora çevrilmək yolunda sürətlə irəliləyir. Azərbaycan rəhbərliyinin yeniliyə və dialoqa açıq olması onun strateji bir dövlət kimi ön plana çıxmasını təmin edir. Asiya, Avropa və Yaxın Şərq ticarətində fəal rol oynayan Azərbaycan Suriyadakı münaqişənin sona çatması ilə üzərinə yeni missiyalar götürə biləcək güclü mövqe qazanıb".**

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Qafqaz Universitetləri Birliyinin rəhbəri, professor Ramazan Korkmaz deyib.

O bildirib ki, beynəlxalq siyasətdə nümayiş etdirdiyi ağıllı, balanslı və sabit mövqeyi Azərbaycanı enerji sektorunda strateji aktora çevirib: "Qaz ticarətində əsas tərəfdaşlar olan Avropa ölkələrinə əlavə olaraq, Misir, Suriya və İordaniya kimi dövlətləri də bu prosesə cəlb etmək istəyən Azərbaycanın nüfuz dairəsini genişləndirmək arzusu onun bölgə gücünə çevrilməsi baxımından türk dünyası üçün də həyati əhəmiyyət daşıyır".

## Demokratiyanın iki üzü - ədalətin ikili standartı

# Reallığa göz yumanda ədalətli olmaq mümkün deyil

### Yaxud Rusiyada erməniəsilli rəssama görə isterikanın məqsədi nədir?

**Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur bölgələrinin Ermənistan silahlı qüvvələri və Xankəndidə yuva salmış hərbi-kriminal xuntanın işğalı altında olduğu illərdə məhv edilən, tarixi saxtalaşdırılan və ya ən yaxşı halda ciddi zərər vurulan dəyərlərimizdən biri də maddi mədəniyyət abidələrimiz olub. Onlarla məscidlərimiz amansızlıqla təhqir edilib və dağıdılıb, məzarlıqlarımız yer üzündən silinib.**

Tariximizdə, mədəniyyət və incəsənətimizdə, ədəbiyyatımızda görkəmli rol oynamış şəxsiyyətlərimizin abidələri uçurdulub, Şuşanın simvollarından olan Natəvan, Bülbül və dahi Üzeyir bəyin büstləri təhqir edilib, satılmaq üçün İrəvana aparılıb. Yalnız Ulu Öndər Heydər Əliyevin səyləri ilə onlar geri qaytarılıb, Müzəffər Ali Baş Komandan İlham Əliyevin göstərişi ilə yenidən azad olunmuş Şuşada tarixi yerlərində quraşdırılıb.

Təəssüf ki, 30 ilə yaxın bir dövrdə dünya bu vəhşətə göz yumub, münaqişənin guya ki, nizamlanması ilə məşğul olan ATƏT-in Minsk qrupu üzvlərindən heç biri Ermənistana irad bildirməyib. Əksinə, bu illər ərzində biz başqa mənzərənin şahidi olmuşuq: erməni separatçıları bizə məxsus tarixi abidələri saxtalaşdırıb öz adlarına çıxıblar, Azərbaycan torpaqlarının işğalında iştirak etmiş və əlləri xalqımızın qanına batmış canilərin heykəl və büstlərini yaşayış məntəqələrimizdə quraşdırıblar. Məsələn, Şuşada şəhərin işğalına rəhbərlik edən şəxslərdən biri - Ermənistanın o vaxtkı müdafiə naziri, sonra hökumətinin başçısı Vazgen Sarkisyanın heykəli qoyulmuşdu. Laçında isə İkinci Dünya müharibəsində həlak olmuş həmvətənlərimizin abidəsi saxtalaşdırılaraq Qarabağın işğalçılarının "xatirə lövhəsi"nə çevrilmişdi. Bu cinayətlərin ən təəccüb doğuran və bəlkə də gülməli olan tərəfi odur ki, ərazi bütövlüyünü bərpa edən Azərbaycan bu qanunsuz qurğuları sökdükcə Ermənistan tərəfindən elə "ah-nalə" qaldırılır ki, sanki biz torpaqlarımızı işğal etmiş canilərin heykəl və büstlərini qoruyub saxlamalı, hətta vaxt olanda onları tər əklillərlə "yad etməliyikmiş". Bu anormal təxəyyülün daha bir problemli tərəfi odur ki, dünya ya bu reallıqdan xəbərsizdir, ya gerçək vəziyyəti bilmək istəmir, ya da ənənəvi ermənipərəstliyindən qurtulmaq imkanında deyil.

#### Erməniəsilli rəssamın heykəlinin Xankəndidə nə işi vardı?

Azərbaycan dövlətinin heç bir icazəsi olmadan, özbaşına formada quraşdırılan və ya tikilən abidə və obyektlərin bir qismi də 2020-2023-cü illər arasındakı dövrə təsadüf edir. Erməni separatçıları Rusiya sülhməramlılarına güvənərək ötən illərdə törətdikləri qanunsuzluqları davam etdiriblər. Səlahiyyətlərini aşan və missiyalarının gerçək təyinatını "unudan" sülhməramlıların bəzi rəhbərləri isə separatçıların xoşuna gəlmək və onların dəstəyini qazanmaq üçün addımlar atmaqdan çəkinməyiblər. Məsələn, erməniəsilli sovet marşalı Baqramyanın heykəlini mütəmadi yad edib, qarşısına gül düzüblər.

İndi də son bir neçə gündür ciddi müzakirəyə çevrilmiş hadisə - rəssam İvan Ayvazovskinin Xankəndidəki abidəsinin demontajı mövzusu Ermənistan və Rusiya mediası tərəfindən qəsdlə manipulyasiya edilir. Ermənilər bundan "Azərbaycanın Rusiyaya qarşı" addımı kimi istifadə edirlər, rus KİV-ində isə bilərəkdən Azərbaycanın "rus mədəniyyətinə münasibətində hörmətsizlik" axtarışına çıxıblar.

Ermənilərlə məsələ aydındır. Ancaq hansı səbəbdən Rusiya mediasında bu büstün tarixi ilə maraqlanıb əsl gerçəkliyi üzə çıxarmaq istəmirlər - aydın deyil. Əslində, aydındır. Amma yenə də maraqlıdır: bu, qərəzdir, yaxud qeyri-peşəkarlıq? Məsələn, əsl adı Hovanes Ayvasyan olan İvan Ayvazovskinin büstü hansı əsasla Azərbaycan torpağında qoyulmalı idi? Onu "ucaldarkən" Azərbaycan hökumətindən icazə alınmışdımı? Yaxud Qarabağdakı rus sülhməramlılarının missiyasında bu kimi fəaliyyət növü yazılmışdımı? İndi heç kim bu suallarla maraqlanmaq istəmir, çünki Azərbaycana qarşı qərəz kampaniyasının gerçək məramı başqadır - bizi gözdən salmaq və Bakı-Moskva münasibətlərini gərginləşdirmək.

#### Rusiya mediası "stepanakert" və "artsax" axtarışında

Erməniəsilli rəssamın qanunsuz abidəsinin demontajı hadisəsi fonunda Rusiyanın bəzi KİV-ində tüğyan edən anti-Azərbaycan kampaniyası təbii ki, təəssüf doğurur. Xüsusən də o media orqanlarındakı, onlar həmişə azərbaycanlı həmkarları ilə sıx əməkdaşlıq ediblər, Azərbaycan dövlətinin diqqətində olublar. Avqustun 1-də TASS agentliyi tərəfindən dərc edilən materialda Ayvazovskinin heykəlinin demontajının "rus mədəniyyətinə qarşı qəsd" prizmasından yozulması, üstəlik bu zaman "stepanakert", "naqornıy Karabax", "artsax" kimi ifadələrə yer verilməsi isə bu diqqətin fonunda yumşaq desək, ədalətsizlikdir.

Maraqlıdır ki, TASS agentliyi Rusiya media orqanları arasında bu kimi məqamlara diqqətli yanaşması ilə seçilən KİV olub. Ancaq III Şuşa Qlobal Media Forumundakı iştirakından sonra qəflətən və müəmmalı şəkildə "təqaüdə göndərilən" Mixail Qusmanın yoxluğundan istifadə edən agentlik bu siyasətində dəyişiklik etmək qərarına gəlib.

Rusiya Federasiyasının rəsmi dövlət agentliyi olan TASS-da Azərbaycanın Xankəndi şəhərinin "stepanakert" adlandırılması ölkəmizin ərazi bütövlüyünə hörmətsizlik və təhqiramiz addım idi, hətta bu "səhv" sonradan düzəldilsə də. Əgər dövlət agentliyində hesab edirlərsə ki, burada qeyri-adi heç nə yoxdur, onda biz də Rusiyanın yaşayış məntəqələri və coğrafi yerlərinin adlarını çəkərkən tarixə müraciət edə bilərik. Bizim tarixi toponimlərimiz son iki əsrdə necə erməniləşdirilib saxtalaşdırılmışdısa, Rusiyadakı bəzi şəhər, çay və dağların türk mənşəli adları da ruslaşdırılmışdır. Odur ki, bizim dilimizə və qulağımıza doğma olan adlardan istifadə etməyimiz çətinlik törətməz, hətta xoş olar.

#### Niyə məhz Ayvazovski...

Məsələyə münasibət bildirən Rusiya Prezidentinin xüsusi nümayəndəsi Mixail Şvıdkoy da bu direktivdən, görünür ki, təlimatdan çıxış edərək Ayvazovskinin qanunsuz qoyulmuş büstünün demontajına "rus mədəniyyətinə hörmətsizlik" prizmasından yanaşmağa çalışıb. Artıq Azərbaycan XİN-i Şvıdkoyun da iştirakçısı olduğu Rusiyanın media orqanlarındakı bu təxribata dərhal reaksiya verib və irəli sürülmüş iddiaları əsaslı dəlillərlə alt-üst edib: "Erməniəsilli rəssam İvan Ayvazovskinin (Hovanes Ayvasyan) büstünün Rusiya sülhməramlıları tərəfindən Azərbaycan tərəfinin icazəsi olmadan torpaqlarımızda quraşdırılması qanunsuz idi. Bu, Azərbaycan Respublikasının suverenliyinə münasibətdə Rusiya tərəfindən hörmətsizliyin təzahürü olub... Cənab Şvıdkoyun guya Azərbaycanda Rusiya mədəniyyətinin "ləğv edilməsi" iddiaları növbəti yalandır... Belə ki, Azərbaycanda rus teatrı, rus dilində məktəblər, rus dilində nəşrlər olduğu halda, Rusiyada Azərbaycan dilində teatr, məktəblər, qəzet və jurnallar mövcud deyil. Bu disparitetə baxmayaraq, biz Rusiyada Azərbaycan mədəniyyətinin "ləğv edilməsi" iddiası ilə çıxış etmirik. Amma, Rusiyanın yüksək vəzifəli rəsmiləri bilməlidir ki, əgər onların anti-Azərbaycan tədbirləri və açıqlamaları davam edərsə, Azərbaycanla Rusiya arasında qeyd edilən disparitetə düzəlişlər edilməsi istisna olunmur".

O da maraqlıdır ki, Şvıdkoy bu yaxınlarda Azərbaycanın işğaldan azad edilmiş ərazilərində, o cümlədən Şuşada olan zaman Natəvan, Üzeyir bəy Hacıbəyli, Bülbül və Azərbaycanın digər mədəniyyət xadimlərinin abidələrinə qarşı vandallıqlar, habelə törədilmiş dağıntılarla tanış olarkən, cəsarət tapıb bu halları pisləyən açıqlama verməyib. Bəs nədən indi erməniəsilli rəssam belə hay-küyə səbəb olub?

Bir məqama da xüsusi diqqət yetirmək lazımdır ki, Rusiya sülhməramlıları Xankəndidə rus mədəniyyətinin digər görkəmli nümayəndələrinin də heykəl və büstünü quraşdıra bilərdilər. Ancaq məhz Ayvazovskini seçdilər. Niyə? Yerli ermənilərə xüsusi münasibətlərinə eyham vurmaq məqsədiləmi? Yoxsa Azərbaycana göstərmək üçün ki, biz buraya separatçıları müdafiə etməyə gəlmişik?

Siyasət reallıq sənətidir. Reallıq isə ondan ibarətdir ki, bu gün bütün Qarabağ və Şəqri Zəngəzur kimi Xankəndi də Azərbaycandır. İndi bu torpaqlarda separatçıların heç bir izi ola bilməz. Ərazi bütövlüyümüzü təmin etmişik. Tarixi abidələrimiz bərpa olunur, yaşayış məntəqələrimiz yenidən qurulur. Başımızın üstündə isə öz bayrağımız dalğalanır, işğaldan azad edilmiş şəhərlərimizdə öz dahilərimizin abidələri qoyulur. O üzdən kimsə Ayvazovskinin büstünə görə "haray" qoparmaqla, Xankəndiyə "stepanakert" deməklə heç nəyi dəyişdirə bilməz.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Rusiyanın qeyri-dost addımları

## Kreml uğursuzluqlarını üçüncü qüvvə hesabına ört-basdır etməyə çalışır

**Son dövrlərdə Rusiyanın Azərbaycana qarşı qeyri-dost addımları və mətbuatda ölkəmiz əleyhinə apardığı kampaniyalar, xüsusən Xankəndinin "stepanakert" adlandırılması və sairə bu kimi məsələlər daha çox daxili auditoriyaya hesablanır. Belə ki, süni gərginliyin yaradılması uğursuzluqlarını üçüncü qüvvə hesabına ört-basdır etmə cəhdləridir. Kreml yaxşı bilir ki, Azərbaycanda nə "stepanakert", nə də "Dağlıq Qarabağ" deyə inzibati ərazi var.**

Milli Məclisin deputatı Pərvanə Vəliyeva "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, hazırkı reallıqla barışmaq bəzi qüvvələr üçün çətindir. Rusiyanın Cənubi Qafqazdakı əvvəlki maraqlarını qorumaq, Qarabağ məsələsində ölkəmizə təsir etməsi artıq mümkün deyil. Bunu qəbul etmək və bərabərhüquqlu münasibətlər qurmaq tələb olunur. "İvan Ayvazovskinin büstünün Rusiya sülhməramlıları tərəfindən Azərbaycanın razılığı olmadan Xankəndidə quraşdırılması, ölkəmizin suverenliyinə qarşı açıq təxribat idi. O büstün quraşdırılması Rusiyanın "mədəniyyət" pərdəsi altında ərazidə möhkəmlənmək cəhdi, həm də keçmiş separatçı rejimin narrativini dirçəltməyə xidmət idi. Azərbaycanın bu heykəli sökməsi ölkəmizin suveren hüququdur. Ərazimizlə bağlı qərarların verilməsi yalnız və yalnız dövlətimizə məxsusdur", - deyə o əlavə edib.



Deputat qeyd edib ki, Rusiya dövlət agentliyinin ölkəmizin suverenliyinə qarşı qərəzli mövqe sərgiləməsi və bunun fonunda Azərbaycanın TASS-dan üzrxahlıq və düzəliş tələb etməsi, eyni zamanda bu agentliyin Azərbaycandakı fəaliyyətinə qarşı tədbirlər görülə biləcəyini bildirməsi dövlətimizin hansısa təxribata qarşı qətiyyətli mövqe sərgiləməsini göstərir: "Mixail Şvıdkoyun Rusiyanın Qarabağda "rus icması" olduğu iddiası tamamilə əsassızdır. İcma adı altında Rusiyanın bölgədə qalmaq üçün süni əsaslar yaratmaq istəyi uğursuz cəhdir".

P.Vəliyeva vurğulayıb ki, Azərbaycanın 2023-cü ildə Qarabağda həyata keçirdiyi antiterror tədbirləri ilə erməni separatçılarını ərazilərimizdən tamamilə təmizləməsi, separatizmin kökünü kəsməsi ilə Rusiya sülhməramlılarının bölgədən çıxarılması, Kremlin bütün planlarını alt-üst edib. Bu, Azərbaycanın öz ərazi bütövlüyünü bərpaetmə istiqamətindəki uğurunun və suverenliyinə sadiqliyinin göstəricisidir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Dənizdə suverenliyimizin təminatçısı

## Azərbaycan Hərbi Dəniz Qüvvələri ölkəmizə qarşı yönələ biləcək hər hansı bir həmləni dəf etməyə qadirdir

**Bəlkə də min illər öncə deyilib bu məhşur kəlam. Kim bilir, bəlkə də elə yurdumuzun ömrü qədərdir bu sözlərin ömrü. Babalarımız elə bu torpaqları Vətən edəndə deyiblər: "Ordun varsa, yurdun var"...**



Hər halda xalqın qan yaddaşından süzülüb gəlib, sınaqdan çıxıb, təsdiq olunub, özünə əbədiyaşarlıq qazanıb. Müstəqil dövlətin əsas atributlarındandır ordu. Xalqımızın böyük oğlu, Ulu Öndər Heydər Əliyev deyirdi: "Azərbaycan Ordusu dövlətin dayağı, xalqın güvənc yeri və qürur mənbəyidir". Şübhəsiz ki, güclü ordu ilə güclü dövlət anlayışı vəhdət təşkil edir. Dövlətin nüfuzu iqtisadi, siyasi və elmi potensialı ilə yanaşı, onun malik olduğu ordusunun qüdrəti ilə də ölçülür.

Azərbaycan Silahlı Qüvvələrinin yüksəliş tarixi bütün ömrünü xalqının xoşbəxt gələcəyi, azadlığı və müstəqilliyi uğrunda mübarizəyə həsr etmiş Ümummilli Lider Heydər Əliyevin adı ilə sıx bağlıdır. Bu gün qürurla deyə bilərik ki, ölkəmiz iqtisadi və siyasi nailiyyətlərə imza atmaqla yanaşı, ordu quruculuğu prosesində də böyük uğurlar əldə edib. Bir həqiqətdir ki, bu gün Azərbaycanın Silahlı Qüvvələri Cənubi Qafqazın ən güclü ordusudur.

Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın dövlətçilik tarixində özünəməxsus rolu və miras qoyduğu yeni milli dəyərlərlə tarixiləşmişdir. 1918-ci il iyunun 26-da Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının qərarı ilə Əlahiddə Azərbaycan Korpusu yaradılmışdır. Bu qərar Şərqin ilk demokratik hökumətinin öz ordusunu yaratmasına hüquqi əsas vermişdir.

Azərbaycanın Hərbi Dəniz Qüvvələri isə 1919-cu ilin avqustunda ingilislər ölkəmizi tərk etdikdən sonra formalaşmağa başladı. 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bütün sahələrdə olduğu kimi, ordu quruculuğunda da işləri başa çatdıra bilmədi. Xalq Cümhuriyyətinin donanması Sovet Azərbaycanının Qırmızı donanması adlandırıldı və 1920-ci ilin yayında bu donanma Xəzər Dəniz Qüvvələrinin tərkibinə daxil edildi.

Müstəqillik bərpa olunduqdan sonra parlamentin 1991-ci il oktyabrın 9-da qəbul etdiyi "Azərbaycan Respublikası Silahlı Qüvvələri haqqında" qanuna əsasən, Silahlı Qüvvələrin tərkib hissəsi kimi Hərbi Dəniz Qüvvələrinin yaranmasının hüquqi bazası müəyyən edildi. Keçmiş SSRİ-nin tərkibində olmuş Xəzəryanı dövlətlər arasında əldə olunan razılığa əsasən, Azərbaycan onun ərazisində yerləşən sabiq Xəzər hərbi donanmasının bütün bazalarına və 25 faiz hərbi gəmilərinə sahib oldu.

Xatırladaq ki, 1990-cı illərin əvvəllərində Qarabağ uğrunda gedən döyüşlərdə iştirak etmək üçün Hərbi Dəniz Qüvvələrinin gəmi və sahil bölmələrinin heyətindən qısa müddətdə Dəniz Piyadası Taboru formalaşdırıldı. Ağdam-Tərtər istiqamətində düşmən hücumunun qarşısının alınması üçün 1994-cü il aprelin 19-da cəbhə bölgəsinə göndərildi və 1994-cü il iyulun 25-də vəzifə borclarını yerinə yetirdikdən sonra hərbi hissəyə döndü.

Və nəhayət, Ümummilli Lider Heydər Əliyevin 1996-cı ildə imzaladığı sərəncamla hər il avqustun 5-i ölkəmizdə Hərbi Dəniz Qüvvələri Günü kimi qeyd edilməyə başladı.

Müasir Azərbaycan dövlətinin qurtuluş və inkişaf dövrü xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər Azərbaycanın hərtərəfli inkişafına, qüdrətlənməsinə öz töhfəsini verərək, onun gələcəyinin inkişaf strategiyasını müəyyən edib, ordu quruculuğu ilə bağlı genişmiqyaslı islahatlar aparıb. Və qısa müddətdə hərbi hissələrin, ayrı-ayrı qoşun növlərinin formalaşdırılması başa çatdırılıb. Ordunun mərkəzləşdirilmiş maddi-texniki təminatı əhəmiyyətli dərəcədə yaxşılaşdırılıb. Silahlı Qüvvələrin mükəmməl qanunvericilik bazası yaradılıb.

Ordumuzun qüdrətini vaxtında dəyərləndirən Ulu Öndər deyirdi: "Bizim ordumuz güclüdür. Ordumuzun gücü gündən-günə artır. Ölkəmizin gözəl gələcəyi var. Azərbaycan xalqı, Azərbaycan dövləti işğal olunmuş torpaqları mütləq azad edəcəkdir. Onu biz azad edəcəyik, biz! Biz bunu sülh yolu ilə həll etmək istəyirik. Bu barədə çoxlu səylər etmişik və bundan sonra da edəcəyik. Ancaq bizim bu səylər sonsuz olmayacaqdır. Biz bütün səylərimizi qoyub məsələni sülh yolu ilə həll etməyə çalışacağıq. Əgər bu, mümkün olmasa, bizim əziz zabitlərimiz, əziz Silahlı Qüvvələrimiz, siz torpaqlarımızın azad olunması üçün hər gün hazır olmalısınız! Torpaqlarımız azad olacaq, ordumuz inkişaf edəcək, respublikamızın iqtisadiyyatı yüksələcək və ən yaxın illərdə Azərbaycan böyük inkişaf yoluna qədəm qoyacaqdır. Buna əmin ola bilərsiniz".

Bütün sahələrdə Ulu Öndərin siyasi kursunu davam etdirən Prezident İlham Əliyev ordu quruculuğu sahəsində də ənənəyə sadiqlik nümunəsi göstərdi. Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin ciddi nəzarəti altında qısa müddət ərzində Azərbaycan Ordusu böyük inkişaf yolu keçdi və bölgənin ən güclü qüvvəsinə çevrildi. Ölkənin iqtisadi cəhətdən yüksəlişi hesabına Azərbaycan Ordusunun arsenalı ən müasir silah və hərbi texnika ilə gücləndirildi, hərbçilərin bilik və bacarıqları artırıldı, onların sosial müdafiəsinin, iş şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atıldı. 2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti irimiqyaslı hərbi əməliyyatlara başlamasına, Azərbaycan Ordusunun mövqelərinə və mülki yaşayış məntəqələrinə atəş zərbələri endirməsinə cavab olaraq əks-hücum əməliyyatı işə düşdü, sonradan "Dəmir Yumruq" adını alan bu əməliyyat Vətən müharibəsinə çevrildi.

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi zamanı Hərbi Dəniz Qüvvələrinin Xüsusi Təyinatlıları döyüşlərdə fədakarlıq, əzmkarlıq, dözümlülük və qəhrəmanlıq göstərərək Zəngilan, Cəbrayıl, Füzuli, Qubadlı rayonlarının və Şuşa şəhərinin azad olunmasında fəal iştirak etdilər. İşğalçılarla mübarizədə Hərbi Dəniz Qüvvələrinin 9 hərbi qulluqçusu Vətən uğrunda şəhid oldu, 50 nəfər yaralandı. Prezidentin sərəncamlarına əsasən, Vətən müharibəsində xüsusi xidmətlərinə görə fərqlənmiş şəhid kiçik miçman Zalov Fəqan Amil oğluna ölümündən sonra və daha 2 hərbi qulluqçuya Vətən Müharibəsi Qəhrəmanı adı verildi, digərləri isə müxtəlif orden və medallarla təltif olundular.

Ulu Öndər deyirdi: "Sülh danışıqlarını cəsarətlə apara bilmək üçün güclü orduya malik olmaq lazımdır". Artıq zaman o zamandır. Azərbaycan 2020-ci ildə qazandığı böyük qələbədən sonra ədalətli şərtlərlə sülh müqaviləsini imzalamağa hazırlaşır. Qürurla qeyd edə bilərik ki, gündən-günə qüdrətlənən Azərbaycan Ordusu və onun Hərbi Dəniz Qüvvələri ölkəmizə qarşı yönələ biləcək hər hansı bir həmləni dəf etməyə hazır və qadirdir.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# XİN İranın Xarici İşlər Nazirliyinin mətbuat katibinin Azərbaycanda həbsdə olan İran vətəndaşları ilə bağlı iddialarına münasibət bildirib

**İran İslam Respublikasının Xarici İşlər Nazirliyinin mətbuat katibi İsmayıl Bəqainin guya Azərbaycanda İran əsilli məhbuslarla pis rəftar edilməsi ilə bağlı iddialarının heç bir əsası yoxdur.**

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycanın Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə sözügedən iddialara dair şərhində bildirib.

Onun sözlərinə görə, "Konsulluq əlaqələri haqqında" 1963-cü il tarixli Vyana Konvensiyasının müddəalarına uyğun olaraq, ölkəmizdə saxlanılan və həbs edilən bütün İran İslam Respublikası vətəndaşları haqqında məlumatlar İran tərəfinə rəsmi qaydada təqdim edilib.

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin penitensiar müəssisələrində saxlanılan, İran İslam Respublikasının vətəndaşı olan məhkum və həbs edilmiş şəxslərin hüquqları, qanuni mənafeləri və şəxsi təhlükəsizlikləri qorunur, onlar zəruri maddi-məişət şəraiti ilə təmin olunurlar.

Qüvvədə olan qanunvericiliyin tələblərinə uyğun olaraq, məhkum və həbs edilmiş şəxslər telefonla danışmaq, bağlama almaq və ailə üzvləri ilə görüşmək hüquqlarından istifadə edirlər. Bəzi penitensiar müəssisələrdə İran İslam Respublikası vətəndaşı olan məhbuslara ailə üzvləri ilə videogörüntü əsasında görüşlərin keçirilməsi imkanı yaradılıb.

Həbsdə saxlanılan əcnəbilər, o cümlədən İran İslam Respublikasının vətəndaşları mütəmadi olaraq tibb-sanitariya bölməsində müayinələrdən keçirlər. Bununla yanaşı, İran İslam Respublikasının Azərbaycan Respublikasındakı səfirliyinin əməkdaşları tərəfindən öz vətəndaşları üçün gətirilmiş dərman preparatları tibb xidmətinin əməkdaşları tərəfindən normativ aktların tələblərinə uyğun qaydada qəbul edilib və məhkumlara çatdırılıb.

Yalnız 2025-ci ildə İran İslam Respublikasının səfirliyinin əməkdaşları ilə penitensiar müəssisələrdə cəza çəkən 37 nəfər İran vətəndaşı arasında konsul görüşünün keçirilməsi üçün şərait yaradılıb. Son olaraq belə görüş iki İran vətəndaşı ilə iyulun 31-də baş tutub.

Ayxan Hacızadə fikrincə, Azərbaycan tərəfinin, həmçinin bir sıra İran vətəndaşları ilə bağlı humanistlik nümayiş etdirdiyi İran tərəfinə yaxşı məlumdur. Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 26 may tarixli Sərəncamı ilə 5 nəfər İran vətəndaşı əfv edilib.

Xarici İşlər Nazirliyinin mətbuat katibi əlavə edib ki, bu tədbirlərə baxmayaraq, İranda saxlanılan və həbs edilən əksər vətəndaşlarımız barədə məlumatlar Azərbaycanın bu ölkədəki diplomatik missiyalarına təqdim olunmur, vətəndaşlarımıza əksər hallarda İrandakı diplomatik missiyalarımızla və ailə üzvləri ilə görüşməyə, telefon əlaqəsi qurmağa, 1998-ci il fevralın 21-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında azadlıqdan məhrum edilmiş məhkumların cəza çəkmək üçün verilməsi haqqında Müqavilə"nin müddəalarına uyğun olaraq cəzasının qalan hissəsini Azərbaycanda çəkmək üçün müraciətin təqdim edilməsinə icazə verilmir. Eyni zamanda sorğu olunmasına baxmayaraq Azərbaycan vətəndaşlarının işləri ilə bağlı İranda keçirilən məhkəmə iclasları, həmin iclaslar zamanı qəbul edilən qərarlar barədə Azərbaycan tərəfinə məlumat verilmir.

"Ölkəmiz hər zaman bu kimi məsələlərin siyasiləşdirilmədən, ikitərəfli müstəvidə, diplomatik kanallarla müzakirəsinin tərəfdarı olub. Digər məsələlərlə yanaşı bu istiqamətdə danışıqlar 2025-ci il aprelin 15-də Tehran şəhərində Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və İran İslam Respublikasının Xarici İşlər Nazirliyi arasında növbəti konsulluq məsləhətləşmələri zamanı aparılıb", - deyə Ayxan Hacızadə vurğulayıb.

## 5 Avqust Hərbi Dəniz Qüvvələri Günüdür

# Dənizdən zirvəyə

## Vətən Müharibəsi Qəhrəmanı, Sualtı Hücum Xüsusi Təyinatlı Qüvvələrinin kiçik miçmanı şəhid Fəqan Zalovun döyüş gündəliyi

**Fəqan Zalovun kükrəyən dalğalardan əzəmətli dağlara uzanan qəhrəmanlıq yolu ta doğulduğu gündən çətinliklərdən, sınaqlardan, mübarizələrdən keçərək əbədiyyətə uzandı...**

**O, 1 aprel 1997-ci ildə Sabirabad rayonunun Qalaqayın kəndindəki çadır düşərgəsində gözünü dünyaya məcburi köçkün kimi açdı...**

Lap kiçik yaşlarından vətən həsrəti qəlbinə köz kimi düşdü. Heç zaman görmədiyi, sadəcə valideynlərinin xatirələri, çoxdan saralmış ağ-qara fotolardan aşina olub varlığıyla bağlandığı ana torpağını - ata-anasının doğulduğu Füzulini, Aşağı Güzlək kəndini azad etmək eşqi ilə böyüdü...

Bayrağına könül verdi. Öncə Azərbaycanın üçrəngli ay-ulduzlu bayrağını idman yarışlarında bir güləşçi kimi başı üzərində qaldırdı, sonra şanlı bayrağımızı Qarabağın zirvələrində qürurla dalğalandırdı...

Coşan dalğalara, dibsiz girdablara, qopan fırtınalara heç zaman boyun əyməyən "dəniz canavarı" Fəqan Zalov dərin yarğanlardan, sıx meşələrdən, sıldırım qayalardan dolaşan zəfər yolunu mərd-mərdanə keçərək hərb meydanında düşmənə aman vermədi. Sonradan döyüşçü yoldaşları cəsur igidin şücaətlərindən söz açanda ilk dedikləri bu oldu ki, o, neçə-neçə düşmənlə üz-üzə, qarşı-qarşıya gələrək onları məhv edib.

44 günlük müharibənin sonuna qədər döyüşlərdə hünərlə iştirak edən Hərbi Dəniz Qüvvələrinin xüsusi təyinatlısı Fəqan Zalov oktyabr ayında ağır yaralansa da, qələbə missiyasını başa vurmadan qətiyyən müharibədən ayrılmayacağını bildirdi. Həkimlərin, valideynlərinin israrlarına rəğmən onunla çiyin-çiyinə döyüşərək həlak olan şəhid yoldaşlarının qisasını almaq, hərbçi yoldaşlarına dəstək olmaq, ana torpağını azad etmək üçün yenidən düşmən üzərinə yeridi...



Axı uşaqlıqdan ata-anasına söz vermişdi - doğma torpağını düşmən tapdağından qurtaranlardan biri olacaq...

Vətən müharibəsində yurd yerlərimiz bir-bir azad olunduqca valideynlərinə zəng vurub gözaydınlığı verirdi, od-alovun içində, ölümlə burun-buruna olduğu halda gülə-gülə "ata, ana, narahat olmayın, hər şey yaxşıdır" deyirdi...

Bir də...

Qədd-qamətli, qaraqaş, qaragöz gənc döyüşçü xalasına zəng vurub çoxdandır ürəyində pünhan saxladığı sirrini açdı, qəlbini verdiyi bir nigara onun sevgisini yetirməyi tapşırdı...

O anlarda istər-istəməz üzünə-gözünə ılıq bir təbəssüm qondu... Müharibənin bitdiyini, doğmalarına qovuşduğunu, bəylik libası geyindiyini xəyal etdi... Qulağına vağzalı sədası gəldi...

Eh... Baharında ömrünün sazağa düşəcəyindən xəbərsiz idi...

Görünür, gülüş günündə doğulduğu üçün idi ki, Fəqanın yaşadığı qısa - cəmi 23 illik həyatında doğmaları, dostları, tanışları onun üzündən nə zamansa təbəssümün, dodağından gülüşün əskik olduğunu heç zaman görmədilər...

"Mənə zəng vurub demişdilər ki, Fəqan yaralıdır, Füzulidə hospitala gətirirlər. Ancaq təxliyə maşını gəlib morqun ağzında dayananda hər şeyi başa düşdüm. O, şəhid olmuşdu. Özümü morqa necə yetirdiyimi bilmirəm. Fəqanı uzandırmışdılar, elə bil ona heç nə olmamışdı, sadəcə yatmışdı. Baxdım ki, üzündə təbəssüm var, o, gülə-gülə şəhid olmuşdu... Balamı bağrıma basıb öpəndə gördüm ki, bədəni hələ istidir, o, yenicə keçinmişdi..."

"Azərbaycan" qəzeti üçün müsahibə aldığımız zaman qəhrəman şəhidimizin atası Amil Zalovun oğlu ilə son görüşünə dair təsvir etdiyi və ürəyimizi parçalayan bu dəhşətli mənzərə cəsur Azərbaycan oğlu, "dəniz canavarı" Fəqan Zalovun ölümdən belə qorxmadığını, zalım Əzrayılı gülə-gülə qarşıladığını göstərirdi...

### Uğur illəri

Əslən Füzuli rayonunun Aşağı Güzlək kəndindən olan Fəqan Zalov 2003-2007-ci illərdə Füzuli rayon Babı kəndindəki Marks Hacıyev adına tam orta məktəbdə təhsil alıb. 2010-2014-cü illərdə Sumqayıt şəhərində yerləşən Qubadlı rayon Alı Mustafayev adına Zilanlı kənd tam orta məktəbində təhsilini davam etdirib. 2015-ci ildə hərbi xidmətə çağrılıb. Artilleriya Qoşunlarında müddətli həqiqi hərbi qulluqçu kimi xidmət edib.

Azərbaycan Artilleriya Qoşunlarının əsgəri Fəqan Zalov Aprel döyüşlərində iştirak edib. Həmin döyüşlərdə yaralanan əsgər Zalov müalicəsi bitdikdən sonra xidmətini davam etdirib. 2017-ci ilin yanvar ayında müddətli həqiqi hərbi xidmətini başa vurduqdan 9 ay sonra 2017-ci ilin oktyabrından dekabrınadək müddətdən artıq həqiqi hərbi xidmət qulluğu kursu keçərək, Azərbaycan Hərbi Dəniz Qüvvələrinin müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu (matrosu) olub.

2017-ci ilin dekabrından 2019-cu ilin martına qədər HDQ-nin Gözətçi Gəmilər Diviziyasının gəmisində xidmət edib. Gəmidə xidmət etdiyi dövrdə Xəzəryanı dövlətlərin birgə təşəbbüsü ilə keçirilən "Beynəlxalq dəniz kuboku" yarışlarına qatılıb. Onun xidmət etdiyi gəmi dəniz kuboku yarışlarında dəfələrlə qalib gəlib. Yarışlarda Fəqan Zalov bir çox fəxri fərmanla təltif olunub.

2018-ci ilin martından həmin ilin dekabrınadək "N" saylı hərbi hissənin nəzdindəki Xüsusi Təyinatlı Kəşfiyyat kursunu birincilik dərəcəsi ilə bitirdiyinə görə "kiçik miçman" rütbəsi alıb. 2019-cu ilin martından "N" saylı hərbi hissədə Sualtı Hücum (SAH) Xüsusi Təyinatlı Qüvvələrində xidmət edib. Xidmət dövründə kəşfiyyatçı kimi "Dağçılıq", "Paraşüt", "Antiterror", "Amfibiya" kurslarını bitirib. Fəqan Zalov "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" yubiley medalı ilə təltif edilib.

### Vətən uğrunda



Azərbaycan Ordusunun Sualtı Hücum (SAH) Xüsusi Təyinatlı Qüvvələrinin kiçik miçmanı Fəqan Zalov İkinci Qarabağ müharibəsi zamanı əvvəlcə Cəbrayılın azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşub. Cəbrayıl rayonundan başlayan



əks-hücum əməliyyatlarında qarşı tərəfin illərboyu qurduğu və möhkəmləndirdiyi mühəndis-istehkam və müdafiə zolaqlarının yarılmasında, strateji yüksəkliklərin ələ keçirilməsində fərqlənib. Xüsusi Təyinatlı Qüvvələr tərəfindən dörd gün ərzində Cəbrayıl şəhəri istiqamətində olan strateji mövqelər, o cümlədən Cəbrayıl şəhəri və rayonun 14 yaşayış məntəqəsi - Aşağı Maralyan, Çaxırlı, Mehdili, Quycaq, Şəybəy, Cəfərabad, Çərən, Daşəsən, Dəjəl, Horovlu, Karxulu, Mahmudlu, Şürbəyli və Yuxarı Maralyan işğaldan azad edilib.

Fəqan Zalov 11 oktyabr 2020-ci ildə Cəbrayıl rayonunun Soltanlı kəndi istiqamətində ayağından qəlpə yarası alaraq yaralanır. Əvvəlcə Füzuli, sonra Beyləqan, sonuncu dəfə isə Hacıqabul rayon xəstəxanalarına yerləşdirilir. Verilən məzuniyyətdən imtina edərək döyüş meydanına qayıdır. İlk olaraq Xocavənd istiqamətində gedən döyüşlərdə adsız yüksəkliklərin ələ keçirilməsində iştirak edir və fərqlənir.




Oktyabrın 19-da SAH Xüsusi Təyinatlı Qüvvələrinin də iştirak etdiyi hərbi əməliyyatlar nəticəsində Azərbaycan Silahlı Qüvvələri tərəfindən Cəbrayıl rayonunun Soltanlı, Əmirvarlı, Maşanlı, Hasanlı, Alıkeyxalı, Qumlaq, Hacılı, Göyərçin Veysəlli, Niyazqulular, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı kəndləri işğaldan azad edilir.

Fəqan Zalov bundan sonra Qubadlının azad edilməsi uğrunda gedən döyüşlərdə də vuruşaraq fərqlənir.

### Şəhadət yolçuluğu

Fəqan Zalov 9 noyabr 2020-ci ildə üçtərəfli Bəyanatın imzalanmasına 6 saat qalmış Xocavənd rayonunun (601 və 436 metr) yüksəkliklərinin cənub istiqamətində "Qızılqaya" adlı ərazidə yarımqrup tərkibində hücum əməliyyatını yerinə yetirən zaman qarşı tərəfin atdığı mərmilərin partlayışı nəticəsində qəlpə yarası alır. Boyun hissəsindən girərək, ağciyərini və ürəyini parçalayan qəlpənin yarası ölümcül olduğu üçün onu xilas etmək mümkün olmur. O, şəhidlik zirvəsinə ucalır.

Fəqan Zalov Füzuli rayonunun Babı kəndində yerləşən qəbiristanlıqda dəfn edilib.

Prezidentin sərəncamlarına əsasən, o, "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb, həmçinin "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib.

Horadiz şəhərindəki 3 nömrəli tam orta məktəbə Fəqan Zalovun adı verilib.

### Şəhid və qazi atası: "Oğlanlarımla fəxr edirəm"

İllər öncə Fəqan hərbçi olmaq arzusunu atasına söyləyəndə Amil müəllim əvvəlcə buna etiraz etmişdi. Böyük oğlu Nicat Zalov hərbçi olduğu üçün atası Fəqanın başqa peşəyə yiyələnməsini istəyirdi. Ancaq Fəqanın elə hərbçilərə xas möhkəm inad və iradə ilə arxasıyca gedib pillə-pillə ucaldığı bu peşəni zamanla çox sevmiş, oğlu ilə qürur duymuşdu. Şəhid və qazi atası Amil Zalovla kövrək, qüssəli notlara köklənən müsahibəmiz zamanı söylədi ki, övladları Nicat və Fəqan uşaqlıqdan vətənpərvər ruhda böyüyüblər:

- Buna görə də hər ikisi hərbçi olmağa can atırdı. Xüsusi Təyinatlı Qüvvələrdə xidmət edən böyük oğlum Nicat Aprel döyüşlərində iştirak edib yaralanmışdı. İkinci Qarabağ müharibəsində də ön sıralarda olub. Füzuli rayonunun Merdinli kəndində döyüşlər zamanı snayperlə vurulmuşdu. Nicat həm də antiterror tədbirlərinin iştirakçısı oldu. Fəqan Sabirabadda doğulduğu üçün Füzulini, kəndimizi görməmişdi. Bir dəfə uzaqdan kəndimizi ona nişan verəndə əlini çiynimə qoyub dedi ki, "ata, narahat olma, torpaqlarımızın hamısını alıb kəndimizə qayıdacağıq".

Vətən müharibəsi zamanı demək olar ki, Fəqanla hər gün telefonla danışırdıq. Həmişə deyirdi ki, biz qələbə çalacağıq. Onunla son dəfə noyabrın 8-də danışdıq. Səhəri günü işdən evə qayıdanda dedilər ki, Fəqan yaralanıb, gətirəcəklər Böyük Bəhmənli kəndindəki Diaqnostika Mərkəzinə. Mən də ora getdim. Şər qarışırdı, baxdım ki, kənd camaatının hamısı bu mərkəzə toplaşıb. Soruşanda dedilər ki, Fəqandan başqa da yaralı var, onu da gətirirlər. Demə, onlar məni yanıltmaqdan ötrü belə deyirmişlər. Az sonra hərbi çağırış idarəsindən zəng vurub Fəqanın yaralı olduğunu söylədilər. Öz-özümə düşündüm ki, bundan əvvəl də hər iki oğlum yaralanmışdı, amma onda heç kim mənə zəng vurub bu barədə heç nə deməmişdi. Görünür, nəsə var. Təxliyə maşını gəlib morqun ağzında dayananda başa düşdüm ki, Fəqan şəhid olub. O an dünyam başıma uçdu...

Valideyn üçün övlad itkisi çox ağırdır, bunu sözlə ifadə etmək mümkün deyil. Amma hər oğula da bu cür şərəfli ölüm qismət olmur. Fəqan indi ən ali məqamda, şəhidlik zirvəsindədir. Vətən sağ olsun! Allah qazilərimizə cansağlığı, şəhidlərimizə rəhmət eləsin! Nəvəmin adını Fəqan qoymuşuq. Eynilə əmisinə oxşayır, xasiyyəti, duruşu, yerişi, gülüşü ilə...

Bilirsiniz, gündə yüz dəfə Allaha şükür edirəm ki, böyük oğlum salamatdır. Nicat həm Aprel döyüşlərində, həm də Vətən müharibəsində ağır yaralanmışdı.

Bir şəhid, qazi atası olaraq oğlanlarımla fəxr edirəm. Onlar işğal altında olan torpaqlarımızı azad etdilər, bizi doğma yurdumuza qovuşdurdular.



### "Nə olar, yuxularıma gəl, Fəqan!"

Sinəsində bala dağı, gözlərində çeşmə kimi çağlayan yaş bir yaralı ana ilə - şəhid anası ilə dünyadakı ən qiymətli varlığı olan oğlu haqqında keçmişdə danışmağın necə ağrılı-acılı olduğunu yazmağa lüzum belə yoxdur.

Təkcə onu deyək ki, qəhrəman şəhidimiz Fəqan Zalovun anası Səridə xanım cəmi 23 yaşında torpağa tapşırdığı balasının ürəkdağlayan, həsrət, kədər hopmuş xatirələrinin heç birini tamamlaya bilmədi... Bu yasyüklü xatirələrin hamısını yaralı ananın fəryadı, hönkürtüləri yarımçıq kəsdi...

Sınıq, boynubükük xatirələri Səridə xanımı 1997-ci ilə - Qalaqayın çadır şəhərciyindəki acılı-şirinli günlərinə çəkib apardı:

- Fəqanı çox əziyyətlə böyütdüm. İsti çadır, su qıtlığı, heç bir şərait yox... Hardasa 6 ay bu cür çətinliklərlə yaşadıqdan sonra Füzulinin Babı kəndinə - ata evimizə köçdük. Çətinliklə balalarımızı böyütməyə başladıq. Fəqan uşaq yaşlarından çox fəal, ünsiyyətcil idi. Oxumağa da böyük həvəsi vardı. O, 4-5 yaşında olarkən xəbər tutduq ki, özündən böyük bacısının çantasını gizlincə götürüb çiyninə taxaraq məktəbə yollanıb. Birinci sinfə getdiyi gün indi də gözümün qabağındadır. Digər uşaqlar ağlayırdılar, o isə elə sevinirdi ki... Bacı-qardaşından oxuyub-yazmağı öyrənmişdi. Dərslərini yaxşı oxuyurdu, müəllimləri tərifləyirdi. Dostcanlı, idarəçilik ruhu olan uşaq idi. Fəqan həm də çox zarafatcıl idi. Görərdin ki, nəsə gülməli bir söz deyərdi, hamı qəhqəhə çəkərdi, özü isə ciddi görkəm alardı... Orta məktəbdə oxuyan zaman yunan-Roma güləşinə gedirdi, nailiyyətlər də qazanmışdı. Ta uşaqlığından Fəqanda bayrağımıza böyük sevgi vardı. Hər bazara gedəndə bizə tapşırardı ki, bayraq alaq, toqqasının, saatının, çantasının üzərində bayraq şəkilləri olardı. Nə biləydik ki, bir gün o özü də bayrağa bükülləcək... Məzarının üzərinə bayrağımız kölgə salacaq...

Biz rayonda, Fəqan isə Masazırda qardaşı Nicatgildə qalırdı. 2020-ci il sentyabrın 26-da zəng vurdular ki, "ana, ikimiz də təlimə gedirik, sən gəl Bakıya, uşaqların yanında qal". Səhərisi gün müharibə başladı. Çox nigaran idim onlardan. Sentyabrın 29-da xəbər gəldi ki, Nicat ağır yaralanıb. Onu vertolyotla Bakıya gətirmişdilər. Bir müddət sonra Fəqan da dizindən qəlpə yaraları aldı. Onu Füzulidəki hərbi hospitala gətirmişdilər, sonra Hacıqabula xəstəxanaya köçürdülər. Mən Hacıqabulda onun yanına getdim. Yaralı da olsa, heç zarafatından qalmırdı. Həmin vaxt Fəqana 15 gün məzuniyyət vermişdilər, gəlib bir neçə gün Masazırda qaldıqdan sonra dedi ki, döyüşə qayıdıram. Nə qədər yalvar-yaxar etsək də, onu fikrindən döndərə bilmədik. Dedi ki, "yox, getməliyəm, dostlarım oradadır, onları tək qoya bilmərəm". O məni sakitləşdirirdi ki, "ana, narahat olma, qorxulu bir şey yoxdur, qorxaq ermənilər elə bizi görən kimi qaçırlar". Onu yenidən cəbhəyə yola saldıq, arxasınca su atdım, dedim: "Sağ-salamat get-gəl, Fəqan". Balalarıma iki qurban demişdik, Nicatın qurbanını kəsdik, amma Fəqana qismət olmadı... (ağlayır)



Daha mən də Bakıda qala bilmirdim, ona görə də qayıdıb getdim Füzuliyə ki, heç olmasa Fəqana yaxın olum. Noyabrın 8-də səhər-səhər onunla danışdım. Dedim "anan qurban, necəsən? Gəlmişəm, rayondayam". Dedi ki, "ana, yaxşılıqdı, Cəbrayıldayıq, dincəlirik, sonra döyüşə gedəcəyik". Səhəri gün nəsə ürəyim çox narahat idi. Evdə heç qərar tuta bilmirdim. Bu dəm qızım zəng elədi ki, "ana, deyirlər Fəqan yaralanıb gətiriblər hospitala, bir azdan evə gətirəcəklər". Bu məni şübhələndirdi ki, yaralı xəstəxanada olmalıdır, axı nə üçün onu evə gətirirlər? Birdən qonşulardan kimsə soruşanda mənim kənddə olduğumu bilməyən əmim oğlu bərkdən dedi ki, Fəqan şəhid olub, aparıblar məscidə... O anda elə bildim ürəyimə bıçaq sancıldı. Çırpındım ki, Fəqan şəhid olub?! Dünən onunla danışmışam... Bir anda kənd töküldü qapımıza. Fəqanın bayrağa bükülmüş nəşini gətirdilər... Axı mən balamı belə gözləmirdim... Zənn edirdim ki, o, çiynində bayrağımız gülə-gülə doqqazdan içəri girəcəkdi, sarılacaqdı boynuma, "ana, gözün aydın, müharibə qurtardı, aldıq torpaqlarımızı, qələbə çaldıq, qəhrəman oğlunla fəxr et" deyəcəkdi...

Çox darıxıram onun üçün. Bilmirəm balamın həsrətini necə ovudum, bircə gücüm göz yaşlarıma çatır. Bir də gecə-gündüz yalvarıram ki, nə olar yuxularıma gəl, ay Fəqan!..

Torpağını, bayrağını bu dünyadakı hər nəsnədən çox sevən Fəqan Zalovun elə noyabrın 9-da - Bayraq Günündə şəhadətə ucalması da sanki taleyin qisməti idi. Qəhrəman şəhidimiz canı qədər sevdiyi müqəddəs torpağımızın zirvələrində Azərbaycan bayrağını dalğalandırmaq üçün gözünü qırpmadan gənc ömrünü fəda etdi.

Suda da, quruda da böyük hünər, igidlik, şücaət sərgiləyən Sualtı Hücum Xüsusi Təyinatlı Qüvvələrinin kiçik miçmanı şəhid Fəqan Zalov adını Vətən tarximizə və xalqımızın qəlbinə unudulmaz qəhrəman kimi həkk etdi...

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*



# Diaspor Gənclərinin Xankəndidə keçirilən VI Yay Düşərgəsinin açılışı olub

**Xankəndi şəhərində "Konstitusiya və Suverenlik İli"nə həsr olunan Diaspor Gənclərinin VI Yay Düşərgəsinin rəsmi açılış mərasimi keçirilib.**





AZƏRTAC xəbər verir ki, mərasim Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi və şəhidlərin xatirəsinin yad olunması ilə başlayıb.

Açılış mərasimində Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin (DİDK) sədri Fuad Muradov, Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Elçin Yusubov, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdir müavini Nigar Hacıyeva, Heydər Əliyev Fondunun nümayəndəsi Aydan Ramazanova, Qarabağ Universitetinin rektoru Şahin Bayramov, Gənclər Fondunun icraçı direktoru vəzifəsini icra edən Yusif Vəliyev çıxış ediblər.

Çıxışlarda yay düşərgəsinin Xankəndidə keçirilməsinin xüsusi əhəmiyyətinə toxunulub, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxşaxəli diaspor siyasətinin uğurlu nəticələrindən danışılıb.

DİDK sədri Fuad Muradov Xankəndinin sülh, əməkdaşlıq və inkişaf simvoluna çevrildiyinə diqqət çəkib, düşərgəyə gənclərin ildən-ilə daha çox maraq göstərdiklərini, bu platformanın ilk gündən özünü doğrultduğunu ifadə edib.

Tədbirdə dövlət başçısının Xankəndidə bayraq qaldırmasının, oradakı tarixi çıxışının yer aldığı videoçarx nümayiş olunub, həmçinin Diaspor Gənclərinin Yay Düşərgələrinin tarixi ilə bağlı fakt və rəqəmlər səsləndirilib.

DİDK-nin şöbə müdiri Vəsilə Vahidqızının və Rəvan Rədin aparıcılıq etdikləri açılış mərasimi bədii hissə ilə davam edib.

Qeyd edək ki, avqustun 9-dək davam edəcək Diaspor Gənclərinin VI Yay Düşərgəsi Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin və Heydər Əliyev Fondunun birgə təşkilatçılığı ilə gerçəkləşdirilir. Diaspor Gənclərinin VI Yay Düşərgəsində dünyanın 61 ölkəsindən 128 gənc iştirak edir. Bundan əvvəlki düşərgələr Şəki, Şamaxı, Şuşa, Naxçıvan və Laçın şəhərlərində baş tutub, düşərgələrə hər il 60-dan çox ölkədən ümumilikdə 700-dən artıq gənc qatılıb.

# Ermənistan silahlı qüvvələrinin hücumları nəticəsində yaralanmış, mina qurbanı olmuş, əsirlikdə və girovluqda saxlanılmış şəxslər məhkəmədə ifadə veriblər

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası avqustun 4-də davam etdirilib.**



AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Hakim Zeynal Ağayev prosesə ilk dəfə qatılan zərərçəkmiş şəxslərə məhkəmə heyətini, dövlət ittihamını müdafiə edən prokurorları, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

İfadə verən İnqilab Məmmədov 44 günlük Vətən müharibəsi zamanı yaşadığı Mingəçevir şəhərində mülki şəxs kimi zərər çəkdiyini bildirib. İ.Məmmədov 2020-ci il oktyabrın 4-də raket düşməsi nəticəsində ikimərtəbəli evinin dağıldığını, özünün və üç azyaşlı övladının dağıntılar altında qalaraq xəsarətlər aldıqlarını söyləyib. Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin suallarını cavablandıran zərərçəkmiş qeyd edib ki, evinin ətrafında heç bir hərbi obyekt yoxdur. "Sonradan öyrəndik ki, bu, Ermənistan silahlı qüvvələri tərəfindən atılan "Smerç" raketidir", - deyə o bildirib.

Elçin Bağırov da ifadəsində həmin gün Mingəçevirdə evinin yaxınlığına "Smerç" raketinin düşməsi nəticəsində maddi və mənəvi zərər çəkdiyini deyib. O, dövlət ittihamçısı Təranə Məmmədovanın suallarına cavabında hadisə nəticəsində özünün, anası Nabat Bağırovanın və dayısının yaralandığını söyləyib. Bildirib ki, dayısı aldığı xəsarətlər nəticəsində iş qabiliyyətini itirib.

Elməddin Əlişanov ifadəsində vurğulayıb ki, işğaldan azad edilmiş Qubadlı rayonunda 2021-ci il fevralın 26-da mina partlaması nəticəsində xəsarətlər alıb, nəticədə bir gözünü itirib.

Samir Sultanov ifadəsində söyləyib ki, 1994-cü ildə Füzuli rayonunda yaralanıb və əsir götürülüb. Ermənistanın Gorus rayonunda saxlanılıb, 1995-ci il aprelin 29-da Azərbaycana qaytarılıb.

Balaqardaş Məlikməmmədov qeyd edib ki, 2021-ci il fevralın 4-də mina partlaması nəticəsində xəsarət alıb. Hadisə zamanı daha bir hərbçi yaralanıb, digər hərbçi isə şəhid olub.

Nəzərəli Kərimov 2016-cı il mart ayında Tərtər rayonunun Qapanlı kəndində Ermənistan silahlı qüvvələrinin açdığı atəş nəticəsində yaralandığını deyib.

Samir Piriyev bildirib ki, hərbi xidmət zamanı 2007-ci il mayın 5-də Tərtər rayonunun Çaylı kəndində Ermənistan silahlı qüvvələrinin açdığı atəş nəticəsində yaralanıb.

Zərərçəkmiş digər şəxslər Murad Babayev, Qismət Fərzalıyev, Rəşad Hacıyev, Ramazan Balakişiyev, Sakit Həsənov, Alim Əfəndiyev, Xəzri İsmayılov Nurlan Mansurov, Səməd İsgəndərov, Xətai Mansurov, Turac Nəzərov, Azad Mərdəliyev, Nizami Talıbov, İslam Tatayev, Əli Mehdiyev, Əliabbas Ələmov, Aqşin Ağayev, Samir Səmədov, Emil Məhərrəmov və Kənan Əhədov ifadələrində Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin açdıqları atəşlər nəticəsində yaralandıqlarını diqqətə çatdırıblar. K.Əhədov müharibədən sonra mina partlaması nəticəsində də xəsarətlər alıb.

Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarını cavablandıran Ədalət Sultanov 2006-cı il sentyabrın 1-də Füzulinin Alxanlı kəndində Ermənistan silahlı qüvvələrinin təxribatı nəticəsində güllə xəsarəti aldığını söyləyib.

Dövlət ittihamçısı Vüsal Abdullayevin suallarına cavabında Səlim Məmmədov 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı soyqırımı zamanı girov götürüldüyünü qeyd edib. O, Xankəndiyə aparılıb, girovluq zamanı işgəncələrə məruz qalıb, döyülüb. Beş gün sonra Azərbaycan tərəfinə qaytarılıb. Zərərçəkmiş şəxs Məhəmməd Məmmədlinin hüquqi varisi - anası Mehriban Məmmədova ifadəsində övladının Vətən müharibəsi zamanı, 2020-ci il oktyabrın 2-də Ermənistan silahlı qüvvələrinin açdığı atəş nəticəsində şəhid olduğunu deyib.

Zərərçəkmiş Elmar İbrahimovun hüquqi varisi - anası Ümmü İbrahimova övladı Elmar İbrahimovun Vətən müharibəsində, 2020-ci il oktyabrın 2-də Ermənistan silahlı qüvvələrinin açdığı atəş nəticəsində şəhid olduğunu vurğulayıb.

Dövlət ittihamçısı Fuad Musayevin suallarını cavablandıran zərərçəkmiş Adilə Əliyeva bildirib ki, 1992-ci ildə Xocalı soyqırımı zamanı qohumları və həmyerliləri ilə birlikdə girov götürülərək Xankəndiyə aparılıb. Soyqırımı zamanı doğmaları Ermənistan silahlı qüvvələri tərəfindən qətlə yetirilib.

Daha sonra məhkəmədə fasilə elan olundu.

Fasilədən sonra prosesdə hakim elan edib ki, təqsirləndirilən şəxs Levon Balayana yeni vəkil təyin olunub. Levon Balayan ona yeni vəkil təyin olunmasına etiraz etmədiyini bildirib.

Ardınca məhkəmə prosesi zərərçəkmiş şəxslərin dindirilmələri ilə davam etdirilib.

Zərərçəkmiş Gəray Həşimov ifadəsində 1992-ci ildə Ağdam rayonunun Qərvənd kəndi uğrunda gedən döyüşlərdə qəlpə yaraları aldığını diqqətə çatdırıb.

Zülfüqar Hüseynov ifadəsində söyləyib ki, 1991-ci il sentyabrın 8-də Ağdam şəhərindən Xocavənd rayonunun Qaradağlı kəndinə gedərkən rayonun Kiş kəndində idarə etdiyi "LAZ" markalı avtobus atəşə tutulub. Hadisə nəticəsində avtobusda olan mülki şəxslərdən 8-i həlak olub, onlarla şəxs, o cümlədən Z.Hüseynov özü yaralanıb.

Faiq Məmmədov ifadəsində 1992-ci il sentyabrın 2-də yaralanması nəticəsində əsir götürüldüyünü deyib. Əsirlikdə döyülüb, işgəncələrə məruz qalıb. Əsirliyinin 6 ay yarım müddətini İrəvanda saxlanılıb, həmin vaxt məcburi şəkildə müxtəlif işlərə cəlb olunub. 2 il 2 ay 14 gündən sonra əsirlikdən qaçıb. Həmin vaxt Şuşanın Xəlfəli kəndində saxlanılırmış.

Bəhram Səmədov ifadəsində hərbi xidmətdə olarkən 2003-cü il aprelin 20-də Füzuli rayonunda postda Ermənistan silahlı qüvvələrinin açdığı atəş nəticəsində güllə yarası aldığını deyib. O, təqsirləndirilən şəxs Levon Mnatsakanyanın suallarına cavabında hadisənin Ermənistan silahlı qüvvələri tərəfindən atəşkəsin pozulması nəticəsində baş verdiyini, qarşı tərəfin məqsədinin postu almaq olduğunu, lakin buna nail ola bilmədiyini qeyd edib.

Elşad Səmədov ifadəsində B.Səmədovun dediklərini təsdiqləyib. O, hadisə zamanı güllə yarası aldığını bildirib.

Tural Bəhrəmli ifadəsində 2020-ci il noyabrın 23-də Ağdam rayonunun işğaldan azad olunmuş hissəsində mina partlaması nəticəsində xəsarətlər aldığını diqqətə çatdırıb.

İlqar Səfərov ifadəsində hərbi xidmətdə olarkən 1995-ci il avqustun 17-də hərbçi yoldaşları ilə birlikdə Ermənistan silahlı qüvvələri tərəfindən əsir götürüldüyünü deyib. O və digər əsirlər döyülüb. Sonradan pul müqabilində Azərbaycan tərəfə qaytarılıb.

Zaur Mahmudov 2023-cü il dekabrın 26-da Ağdamda mina partlayışı nəticəsində xəsarətlər aldığını söyləyib.

Rüfət Balaməmmədov 1992-ci il martın 19-da Qazax rayonunun Aşağı Əskipara kəndində Ermənistandan açılan artilleriya atəşi nəticəsində yaralandığını qeyd edib.

Zərərçəkmiş şəxs Anar Vəliyevin hüquqi varisi - atası Həmzə Vəliyev övladının Vətən müharibəsi zamanı Suqovuşanda şəhid olduğunu deyib.

Müşfik Əliyev ifadəsində bildirib ki, 1993-cü il avqustun 23-də Füzulidən Beyləqana qayıdarkən nəqliyyat vasitəsi Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulub. Nəticədə nəqliyyat vasitəsinin sərnişinlərindən 5-i həlak olub. Hadisə zaman o, əsir götürülüb. 2 il 9 ay 17 gün müddətində Xocavənddə, Xankəndidə, Şuşa həbsxanasında və digər ərazilərdə saxlanılıb. Əsirlik zamanı döyülüb, işgəncələrə məruz qalıb.

Zərərçəkmiş şəxs Allahverdi Babayevin hüquqi varisi - atası Ələt Babayev övladının 2020-ci ildə Vətən müharibəsinin ilk günündə Suqovuşan istiqamətində şəhid olduğunu diqqətə çatdırıb.

Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin suallarını cavablandıran Rəşad Həziyev 2021-ci il sentyabrın 30-da Ağdamın Şelli kəndində mina partlaması nəticəsində xəsarətlər aldığını bildirib.

Sahib Abdullayev ifadəsində 2016-cı ildə Aprel döyüşləri zamanı yaralandığını deyib.

Afiq Qasımov ifadəsində 1993-cü il yanvarın 4-də əsir götürüldüyünü, aprelin 26-da Azərbaycan tərəfinə qaytarıldığını söyləyib. Bildirib ki, əsirlik zamanı döyülüb, işgəncələrə məruz qalıb.

Elməddin Alışanov ifadəsində 1994-cü il aprelin 18-də yaralı vəziyyətdə əsir götürüldüyünü qeyd edib. Əsirlik müddətində Ağdamda, Xankəndidə, habelə digər ərazilərdə saxlanılıb, Samvel Babayan üçün evin tikilməsi işlərinə məcburi şəkildə cəlb olunub. Əsirlik zamanı döyülüb, işgəncələrə məruz qalıb, o cümlədən dişləri çıxarılıb.

Turan Məmmədovun hüquqi varisi Nağı Məmmədov qardaşının Vətən müharibəsində, 2020-ci il oktyabrın 7-də Suqovuşanda şəhid olduğunu vurğulayıb.

Yaşar Abdullayev 1994-cü ildə Kəlbəcər uğrunda döyüşlərdə əsir götürüldüyünü qeyd edib. Əsirlik zamanı Ağdərədə, Xankəndidə, Şuşa həbsxanasında və digər ərazilərdə saxlanılıb. Əsirlikdə mütəmadi olaraq döyülüb, işgəncələrə məruz qalıb.1996-cı il mayın 8-də Azərbaycan tərəfə təhvil verilib.

Kamil Babayev ifadəsində Ermənistan silahlı qüvvələri tərəfindən əsir götürüldüyünü, 1 il 10 ay saxlanıldığını, əsirlik zamanı işgəncələrə məruz qaldığını bildirib.

Asif Bayramov ifadəsində hərbi xidmətdə olarkən 2003-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən əsir götürüldüyünü, bir həftədən sonra Azərbaycan tərəfə geri qaytarıldığını diqqətə çatdırıb.

Eyvaz Həbiyev ifadəsində 1993-cü ildə Murov istiqamətində Ermənistan silahlı qüvvələri tərəfindən əsir götürüldüyünü, 2 il 8 ay müddətində işgəncələrə məruz qaldığını söyləyib.

Murad Əmirbəyov Vətən müharibəsi zamanı, 2020-ci il oktyabrın 22-də yaşadığı Qəbələ rayonuna Ermənistan silahlı qüvvələri tərəfindən raket atılması nəticəsində yaralandığını deyib.

Rasif Kərimzadə ifadəsində bildirib ki, 2022-ci il oktyabrın 2-də Xocavənd rayonunun Böyük Tağlar kəndində şirkət əməkdaşı qismində yenidənqurma işləri ilə məşğul olarkən mina partlaması nəticəsində xəsarətlər alıb.

Zərərçəkmiş digər şəxslər - Rafael Xəlilov, Fuad Musayev, Salman Həsənov, Pünhan Əliyev, Niyad Əliyev, Emin Camalov, Məsim Əskərov, İbadət Yaqublu və Hüseyin Həmidov ifadələrində müxtəlif tarixlərdə Ermənistan silahlı qüvvələrinin təxribatları nəticəsində yaralandıqlarını vurğulayıblar.

Zərərçəkmişlər, həmçinin təqsirləndirilən şəxslərin, onların müdafiəçilərinin və özlərinin nümayəndələrinin suallarını da cavablandırıblar.

Məhkəmə prosesi avqustun 7-də davam etdiriləcək.

Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.

## Mustafa Topçubaşov - 130

# Tibb elminin görkəmli siması

**Azərbaycan xalqı həmişə ona şöhrət gətirən görkəmli elm xadimləri, bacarıqlı alimləri ilə öyünüb, fəxr edib. Belə elm xadimləri sırasında Ulu Öndər Heydər Əliyevin "...Onun bizim üçün və gələcək nəsillər üçün qoyduğu irs milli sərvətimiz, milli iftixarımızdır" deyərək haqqında danışdığı akademik Mustafa bəy Topçubaşovun xüsusi yeri var.**



Bu il avqust ayının 5-də Azərbaycan tibb elmini dünyada tanıdan, ona beynəlxalq aləmdə layiqli nüfuz qazandıran, Sosialist Əməyi Qəhrəmanı, akademik Mustafa bəy Ağabəy oğlu Topçubaşovun anadan olmasının 130 ili tamam olur. Yubileyin təntənəli qeyd olunması ilə əlaqədar Prezident İlham Əliyev bu il iyunun 10-da sərəncam imzalayıb.

86 ildən bir qədər çox şərəfli ömür yaşayan akademik M.Topçubaşov zəngin yaradıcılıq fəaliyyəti ilə sübut etdi ki, onun genindəki elm Azərbaycan xalqına xas xüsusiyyətdir. Bu xüsusiyyəti onun, onun timsalında da Azərbaycan xalqının əlindən heç kim nə ala bilər, nə də dana bilər.

Ümummilli Lider Heydər Əliyevin 31 iyul 1995-ci il tarixli sərəncamı ilə həmin il oktyabr ayının 14-də Azərbaycan Dövlət Opera və Balet Teatrında akademik M.Topçubaşovun anadan olmasının 100 illik yubileyi qeyd olundu. Yubiley gecəsində Ulu Öndər çıxış edərək dedi: "Mustafa bəy Topçubaşovun həyat yolu, yaradıcılığı, onun bizim üçün və gələcək nəsillər üçün qoyduğu irs milli sərvətimiz və milli iftixarımızdır". Akademik M.Topçubaşov irsi, onun elmi əsərləri, kəşfləri və ixtiraları müasirliyini indi də bütün dolğunluğu ilə mühafizə edərək saxlayıb. 1995-ci ilin dekabr ayında akademik M.Topçubaşovun ATİ-dəki iş otağında alimin "Xatirə muzeyi"nin təşkili, 2010-cu ildə ATU-nun yaranmasının 80 illik yubileyi ərəfəsində 5 cildlik "Xüsusi cərrahlıq" kitabının nəfis tərtibatda yenidən nəşr edilməsi, eləcə də müxtəlif illərdə onun yubileylərinə həsr edilmiş elmi-praktik konfransların keçirilməsi haqqında kitablar yazılması akademik M.Topçubaşova göstərilən böyük ehtiramdan irəli gəlir.

Akademik M.Topçubaşov AMEA-nın ilk həqiqi üzvlərindən olmuş, həyatını bütünlüklə Azərbaycan səhiyyə sisteminin təkmilləşməsinə, milli tibb kadrlarının hazırlanmasına, onların təkmil mütəxəssis kimi yetişmələrinə həsr etmişdir. Görkəmli alim həmçinin tibb sahəsinin maddi-texniki bazasının möhkəmləndirilməsində, elmdə, tibb təhsilinin tədrisində, müalicə və profilaktika işlərində mühüm islahatların həyata keçirilməsində misilsiz xidmətlər göstərmişdir.

1895-ci il avqust ayının 5-də İrəvanın Göykümbət kəndində dünyaya gələn Mustafa Topçubaşov ibtidai və gimnaziya təhsilini İrəvanda alıb. Uşaqlıq dostu, gələcəyin görkəmli dövlət və elm xadimi kimi şöhrət qazanan Əziz Əliyevlə eyni ibtidai məktəbdə, eyni gimnaziyada oxuyub. O vaxtlar İrəvan ibtidai məktəbi və gimnaziyasının təşkilində əsasən azərbaycanlı müəllimlərin böyük rolu olub.

1914-cü ildə İrəvan Gimnaziyasını bitirən gələcək akademik o dövrdə Rusiya imperiyasının mühüm elm mərkəzlərindən sayılan Kiyev Universitetinin Tibb fakültəsinə daxil olub. Təhsil illərində və sonrakı dövrdə böyük çətinliklərlə, ciddi maneələrlə üzləşsə də, möhkəm iradəsi, mənəvi və fiziki dözümü sayəsində 1919-cu ildə təhsilini müvəffəqiyyətlə başa vurub. M.Topçubaşov müəllimlərinin onun Kiyev Universitetinin Tibb fakültəsinin kafedralarından birində qalıb işləməsi təkliflərinə minnətdarlığını bildirərək vətənə qayıdıb. O vaxt Azərbaycan Xalq Cümhuriyyəti təzə qurulmuşdu. Gənc həkim yaxşı bilirdi ki, vətəndə bütün sahələrdə olduğu kimi, ölkənin səhiyyə xidmətində də ciddi problemlər mövcuddur, xüsusən də milli həkim kadrlarına böyük ehtiyac var. M.Topçubaşovun vətənə qayıtması BDU-nun Tibb fakültəsinin cərrahiyyə kafedrasında çalışan professor A.Oşman və universitetin rektoru, görkəmli cərrah-anatom, professor V.Razumovskini də məmnun etmişdi. Mustafa Topçubaşovun BDU-nun Tibb fakültəsinin cərrahiyyə kafedrasında ordinator kimi işə düzəlməsində bu alimlərin böyük rolu olmuşdu. Sonralar Mustafa bəy görkəmli cərrah professor A.Oşmanın ona münasibətini xatırlayaraq yazırdı: "Professor A.Oşman mənim ikinci Darülfünunum olubdur".

Mustafa bəy BDU-nun Tibb fakültəsində cərrahlıq fənnindən dərs deməyə cəlb edilən ilk milli kadrlardan olub. İlk illərdə ordinator işləməklə yanaşı, Azərbaycan Səhiyyə Komissarlığının Cərrahlıq Xəstəxanasının müdiri vəzifəsində çalışıb, tez-tez rayonlara gedərək, yerlərdə cərrahi şöbələr təşkil edib, ambulatoriya və stasionaraqədərki cərrahi yardımın mexanizmini qurub, əhaliyə tibbi yardım göstərib. Akademik M.Topçubaşov 1922-ci ildə N.Nərimanovun təklifi ilə Naxçıvana göndərilib. O, Naxçıvanda xəstəxana, ambulatoriya, Ordubadda feldşer məntəqələri təşkil edib. Akademik sonralar xatirələrində həmin illəri belə təsvir edirdi: "İş vaxtımın başlanğıcı və sonu yox idi. Gündüzün və gecənin nə vaxtı olursa-olsun xəstə gətirirdilər, yaxud xəstə üstə çağırırdılar. Mən həm terapevt, həm cərrah, həm nevropatoloq, həm epidemioloq, həm vərəm həkimi, həm yoluxucu xəstəliklər həkimi... işləyirdim. Həkimsən, demək loğmansan, bütün dərdlərə əlac qılmalısan".

Gənc həkim-cərrah respublikada qısa müddətdə məşhurlaşmış, xalq arasında "Topçubaşov skalpeli" məfhumu yaranmışdı. M.Topçubaşov 1923-cü ildə professor A.Oşmanın təqdimatı ilə əsasən neftçilərə xidmət edən və Bayılda yerləşən Paster adına xəstəxananın cərrahlıq şöbəsinin, Azərbaycan SSR Xalq Səhiyyə Komissarlığı Cərrahlıq Xəstəxanasının müdiri təyin edildi.

Azərbaycanda sovet hakimiyyətinin ilk illərində səpgili yatalaq, qarın yatalağı, malyariya, traxoma kimi infeksion xəstəliklər əhali üçün ciddi təhlükə törədirdi. Bununla əlaqədar 1925-ci ilin iyul ayında hökumət "Azərbaycan SSR-də qızdırmaya qarşı mübarizə" haqqında qərar qəbul etdi. Bundan sonra M.Topçubaşov elmi-tədqiqat işlərini qızdırmanın profilaktikasına yönəltdi.

1926-cı ildə Mərkəzi Komitə Azərbaycanda "Həkimlərin nəzəri və təcrübi hazırlığını yaxşılaşdırmaq haqqında" adlı xüsusi qərar qəbul edir. Qərarda deyilirdi ki, Azərbaycan Xalq Maarif Komissarlığı tibbi təcrübə keçmək üçün Almaniyaya 20 həkim göndərsin. Lakin Almaniyaya gedənlərin siyahısına Mustafa bəyin adı salınmadı və əsas səbəb də o oldu ki, komissarlığın kollegiya iclasında Topçubaşovun namizədliyi irəli sürüləndə hamının yekdil rəyi bu oldu: "Mustafa Topçubaşov artıq özü öyrədir. Öyrənməyə ehtiyacı olanları göndərmək lazımdır".

İş elə gətirdi ki, Almaniyaya göndərilən 20 həkimdən 8 nəfəri bu səfərdən imtina edəsi oldu. Belə olduqda M.Topçubaşov ərizə yazaraq namizədliyinin irəli sürülməsini xahiş etdi. Komissarın M.Topçubaşovun təkidindən xoşu gəlir və müvafiq orqanlarla məsləhətləşdikdən sonra onun da adı siyahıya salınır. Beləliklə, gələcəyin akademiklərindən M.Mirqasımov və M.Topçubaşovla birlikdə Azərbaycandan gəlmiş digər həkimlər Almaniyanın Berlin, Münhen, Leypsiq və digər şəhərlərində təkmilləşmədə oldular. Mustafa bəy Almaniya təəssüratı haqqında yazırdı: "Professor Krause çox hörmətli mütəxəssis idi. Həddən ziyadə tələbkar olduğu üçün onunla işləmək çox çətin idi. Professorun qohumlarından biri yol qəzasına düşmüşdü. Onu ağır vəziyyətdə klinikaya gətirmişdilər. Təcili qan köçürülməli idi. Həmin xəstəyə eyni qan qrupu olduğu üçün mənim qanımın köçürülməsinə razılıq verdim. Şahidlər deyirdilər ki, professor Krause bu nəcibliyə heyran qalmışdı. Həmin əhvalatdan sonra professor Krause ilə mənim aramda xoş ünsiyyət yaranmışdı".

Göründüyü kimi, akademik M.Topçubaşov təkcə öz skalpeli ilə deyil, lazım gəldikdə donor kimi xeyirxahlığı ilə də insanları ölümün pəncəsindən qurtarmağı bacarırdı. Bu əhvalatdan sonra almanlar azərbaycanlıları daha yaxından tanıdılar. Professor Krause azərbaycanlı həkimlərə müraciətlə demişdi: "Əgər Azərbaycanın indi sizin kimi yüz oğlu varsa, yarım əsrdən sonra yüz professoru olacaqdır. Mən bütün varlığımla buna inanıram".

Alman alimi professor Krausenin inamı doğruldu. Azərbaycan həkimləri Bakıya qayıtdıqdan sonra Almaniyada əldə etdikləri mükəmməl təcrübə onların hər birinin gələcək yollarına işıq saçdı. M.Topçubaşov Almaniyadan qayıtdıqdan sonra şəhər xəstəxanalarından birində cərrahi yardım göstərən ilk elmi-metodik mərkəz yaratdı.

Fəaliyyətinin ilk dövrlərindən elmi tədqiqatlara böyük maraq göstərən cərrah 1930-cu ildə "Malyariya mənşəli splenomeqaliyanın klinikası, patogenezi və cərrahi müalicəsi" mövzusunda doktorluq dissertasiyası müdafiə edib, tibb elmləri doktoru elmi dərəcəsi və professor elmi adına layiq görülüb. Bundan sonra o, Azərbaycan Dövlət Tibb İnstitutunun fakültə cərrahlığı kafedrasının müdiri seçilərək, ömrünün sonuna qədər (1981-ci il) həmin vəzifəni şərəflə yerinə yetirib.

Akademik M.Topçubaşov uzun müddət cərrahi ağrısızlaşdırma problemi üzərində işləyib və məqsədinə nail olub. Bu sahədə apardığı elmi axtarışlar ona 1937-ci ildə cərrahlıq praktikasına yeni, nisbətən təhlükəsiz keyləşdirmə üsulunu - "Analgezin" adlanan inyeksion efir-yağ narkozunu tətbiq etməyə imkan verib. Bu üsul sadəliyinə, hazırlanma və tətbiq texnikasının asanlığına, inhalyasion narkoz zamanı rast gəlinən bir sıra mənfi halların - dərin narkoz yuxusu, qanda narkotik maddələrin yüksək konsentrasiyada toplanması və s. halların aradan qaldırılmasına imkan verdiyinə görə, cərrahlar tərəfindən geniş tətbiq edilib. Təklif edilən efir-yağ qarışığı inyeksiyalarından həm də öddaşı xəstəliyinin sancıları, travmatik şok, tetanus, qıcolma halları zamanı müalicə və eləcə də doğuş proseslərində ağrısızlaşdırma vasitəsi kimi istifadə olunub.

1945-ci ildə SSRİ Xalq Səhiyyə Komissarlığının Elmi-Tibbi Şurası Farmakologiya Komitəsinin iclasında efir-yağ qarışığının "Analgezin" adı altında istehsal edilməsinə icazə verilib. Bu üsulun kəşfi və tətbiqi ilə əlaqədar 1963-cü ildə SSRİ Tibb Elmləri Akademiyasının A.Vişnevski adına Elmi-Tədqiqat Cərrahlıq İnstitutunda keçirdiyi konfransda M.Topçubaşov öz kəşfi barədə çıxış edib. Həmin konfransda A.Vişnevski adına mükafata və diploma layiq görülüb. Leninqradda (Sankt-Peterburq) fəaliyyət göstərən akademik P.Kupriyanov M.Topçubaşovun "Analgezin" haqqındakı kəşfindən danışarkən demişdir: "...Bakı nefti müharibə illərində tanklarımıza, təyyarələrimizə nə vermişdisə, efir-yağ narkozu da hərbi-səhra cərrahiyyəmizə onu vermişdir. Akademik M.Topçubaşovun zəhmətini başqa heç cür müqayisə etmək və qiymətləndirmək olmaz".

Böyük Vətən müharibəsi illərində akademik M.Topçubaşov Azərbaycan Xalq Səhiyyə Komissarlığı Evakohospital İdarəsinin baş cərrahı təyin edilib və burada da özünü bacarıqlı təşkilatçı, novator-cərrah kimi göstərib. O, SSRİ-də ilk dəfə evakohospitalların ixtisaslaşdırılma və növbələşdirilməsinin təşəbbüskarı və yaradıcısı olub. Müharibə illərində bundan hərbi-səhra cərrahlığı işinin təşkilində uğurla istifadə edilib. Evakohospitallarda apardığı çoxsaylı əməliyyat və müşahidələr professora bir sıra səmərəli təkliflər irəli sürmək imkanı da verib.

Hərbi-səhra cərrahlığının ən aktual problemlərindən olan insan bədəninə daxil olmuş metal yad cismin lokalizasiyası və onun xaric edilməsi problemi üzərində çalışan alimin konstruksiya etdiyi stereoskop aparatı portativliyinə və yad cismin lokalizasiyasını dəqiq təyinetmə imkanına görə təcrübədə uğurla tətbiq edilib. M.Topçubaşov periferik sinir zədələnmələrinin cərrahi müalicəsində mum-parafin tubajı, ətraflarda əmələ gələn və müalicəyə tabe olmayan ifliclər zamanı tendomioplastika, kəllə sümüklərinin kranioplastikası və s. kimi böyük əhəmiyyət kəsb edən orijinal təkliflərinə görə respublikadan kənarda da böyük şöhrət qazanıb.

Mustafa Topçubaşovun müharibə dövründə boş vaxtı olmurdu. O, hamıya kömək əli uzadırdı. Alim həmin illər Sabunçuda Cərrahiyyə şöbəsinə rəhbərlik etməklə yanaşı, Bakıdakı Dəmiryolu xəstəxanasında, Doğum evi, Xalq Səhiyyə Komissarlığı xəstəxanalarında, hərbi hospitalda, təyyarəçilər xəstəxanasında, Keşlə, Qara şəhər, Mərdəkan, Neftçilər xəstəxanalarında, Binəqədi rayon xəstəxanasında da əməliyyatlar edirdi. Təsadüfi deyil ki, Mustafa bəy müharibə illərindəki əvəzsiz xidmətlərinə görə 1944-cü ildə "Lenin" ordeni və "Qafqazın müdafiəsinə görə" medalı, 1946-cı ildə isə "Qırmızı Əmək Bayrağı" ordeni və "Almaniya üzərində qələbə" medalı ilə təltif edilib. Müharibədən sonra M.Topçubaşov Azərbaycan SSR Səhiyyə Nazirliyinin baş cərrahı vəzifəsində çalışaraq cərrahi xidmətin yenidən təşkilinə bilavasitə rəhbərlik edib.

M.Topçubaşov elmi-praktik fəaliyyətində beynəlxalq miqyasda əldə etdiyi nailiyyətlərinə, ixtira və kəşflərinin dəyərinə, səhiyyə sahəsindəki xidmətlərinə görə 1949-cu ildə SSRİ Tibb Elmləri Akademiyasının müxbir, 1960-cı ildə isə həqiqi üzvü seçilib.

Alimin elmi-tədqiqat işlərinin əsas istiqamətini malyariya mənşəli splenomeqaliyanın klinikası, patogenezi, profilaktikası və cərrahi müalicəsi, öd yolları xəstəliklərinin, xərçəng xəstəliyinin cərrahi müalicə üsullarının işlənib hazırlanması və praktikaya tətbiqi, qarın və döş boşluğu orqanlarının cərrahi əməliyyat tələb edən xəstəliklərinin diaqnostikası, klinikası, profilaktikası və cərrahi müalicəsi, neyrocərrahiyyə və travmatologiya problemləri, müasir tibbi texnologiyaların işlənib hazırlanması, onların səhiyyə praktikasına tətbiqi və s. təşkil edib. Akademik portal hipertenziya zamanı baş verən profuz qida borusu-mədə qanaxmaları ilə mübarizə üsulu hazırlayıb, qida borusu yanıqlarında rast gəlinən daralmaların müalicəsi ilə məşğul olub, bunun üçün ən yaxşı süni qida borusu vasitəsinin nazik bağırsaq olduğunu, borulu sümüklərin sınıqlarının təxirəsalınmaz osteosintezi üsulunu təklif edib. Alim dalaq, qaraciyər, böyrək, böyrəküstü vəzi kimi orqanlara abdominal-diafraqmal və bel-diafraqmal yollarının, urologiyada, travmatologiyada, neyrocərrahlıqda, abdominal və torakal cərrahlıqda yüksəksəviyyəli əməliyyatın müəllifi kimi keçmiş Sovetlər İttifaqı, eləcə də xarici ölkə cərrahları arasında şöhrət qazanıb.

Akademik M.Topçubaşov 5 cildlik "Xüsusi cərrahlıq" kitabının, 8 monoqrafiyanın, 300-dən çox elmi işin və elmi-kütləvi məqalənin müəllifi olub. Onun rəhbərliyi və məsləhətçiliyi altında 12 doktorluq və 30 namizədlik dissertasiyası müdafiə edilib.

Mustafa bəy genişmiqyaslı elmi-pedaqoji fəaliyyətlə də məşğul olub və yüksəkixtisaslı həkim kadrlarının hazırlanmasında böyük xidmətlər göstərib. Onun layihəsi üzrə kafedrada əməliyyat - auditoriya təşkil edilib ki, bu da tələbələrə cərrahi müdaxilənin bütün fraqmentlərini izləməyə imkan verib.

O, dəfələrlə beynəlxalq cərrahlıq konqreslərində çıxış edib, xarici ölkələrdə elmi-təcrübə mübadilələrinin iştirakçısı olub. Akademikin Bolqarıstanda apardığı təmənnasız mürəkkəb cərrahi əməliyyatlar ona bolqar xalqının rəğbətini, səmimi məhəbbətini qazandırıb və o, 1952-ci ildə Bolqarıstan Elmlər Akademiyasının müxbir üzvü seçilib.

Cərrahların Lissabonda keçirilən XI Beynəlxalq Konqresində akademik M.Topçubaşov 20 sovet tibb alimi ilə birlikdə Beynəlxalq Cərrahlar Assosiasiyasının üzvü seçilib ki, bu da görkəmli alimin simasında dünya miqyasında Azərbaycan cərrahlıq elminə verilən yüksək dəyər, yüksək qiymətdir.

Azərbaycan SSR Elmlər Akademiyasının 15 nəfərlik ilk təsisçilərindən biri olan M.Topçubaşov 1951-1956-cı və 1969-1981-ci illərdə həmin akademiyanın vitse-prezidenti, 1955-1959-cu və 1967-1971-ci illərdə Azərbaycan SSR Ali Sovetinin sədri olub. I-X çağırışlarda respublika Ali Sovetinə, həmçinin SSRİ Ali Sovetinə deputat seçilib, Azərbaycan Respublikası Sülhü Müdafiə Komitəsinin sədri, Ümumittifaq Sülhü Müdafiə Komitəsinin üzvü, Sovet İttifaqının Asiya və Afrika Ölkələri Xalqları ilə Həmrəylik Komitəsinin üzvü, "Böyük Tibb Ensiklopediyası"nın redaktorlarından biri və Azərbaycan Sovet Ensiklopediyası redaksiya heyətinin üzvü olub. O, Azərbaycan Sülhü Müdafiə Komitəsinin sədri və Ümumittifaq Sülhü Müdafiə Komitəsinin üzvü kimi çoxsaylı beynəlxalq konqreslərdə iştirak edərək dünya xalqları arasında sülh və dostluğa həsr olunmuş bütün yüksəksəviyyəli forumlarda dərin məzmunlu çıxışları ilə diqqəti cəlb edib. Sülh işi uğrunda xidmətlərinə görə Ümumdünya Sülh Şurasının gümüş medalı və Sovet Sülhü Müdafiə Komitəsinin fəxri fərmanları ilə təltif olunub.

Görkəmli alim vətən qarşısındakı xidmətlərinə görə 4 dəfə "Lenin", "Qırmızı Əmək Bayrağı", "Qızıl ulduz", "Şərəf nişanı" ordenlərinə, Bolqarıstanın III dərəcəli "Kirill və M.Mefodi" ordeninə, Sosialist Əməyi Qəhrəmanı adına, SSRİ Dövlət mükafatı laureatı adına, "Oraq və Çəkic" qızıl medalına, "Qafqazın müdafiəsinə görə", "Almaniya üzərində qələbə", "Fədakar Əməyə görə" medallarına, "SSRİ Səhiyyə Əlaçısı", "SSRİ-nin Sanitar Müdafiəsi Əlaçısı" döş nişanlarına və bir çox fəxri fərmanlara layiq görülüb.

Akademik M.Topçubaşov nümunəvi ailə başçısı idi. Onun həyat yoldaşı Reyhan xanım Topçubaşova Azərbaycan Rəssamlar İttifaqının üzvü olub, Əməkdar incəsənət xadimi fəxri adına layiq görülüb. Oğlu görkəmli alim-cərrah, professor İbrahim Topçubaşov beynəlxalq aləmdə novator-cərrah kimi tanınıb və ölkəmizdə həkim-bəstəkar kimi də şöhrət qazanıb. Əməkdar həkim fəxri adına, Prezidentin fəxri təqaüdünə layiq görülən qızı Zemfira xanım uzun müddət ATU-nun mamalıq və ginekologiya kafedrasının müdiri, sonra isə ömrünün sonunadək həmin kafedranın dosenti vəzifəsində çalışıb. Digər qızı Elmira xanım musiqişünas-alim olub, Əməkdar müəllim fəxri adına layiq görülüb və Azərbaycan Musiqi Akademiyasının dosenti vəzifəsində çalışıb.

1981-ci il noyabrın 20-də əbədiyyətə qovuşan Azərbaycan xalqının böyük elm adamı, ictimai-siyasi xadim, akademik Mustafa bəy Topçubaşov qədirbilən xalqımızın qəlbində həmişə yaşayacaqdır.

***Əhliman ƏMİRASLANOV,***
***akademik, SSRİ Dövlət mükafatı laureatı***

# BMU-da kompüter elmləri ixtisası üzrə beynəlxalq ikili diplom proqramı icra edilir

**Bakı Mühəndislik Universiteti (BMU) ilə Koreya Respublikasının İNHA Universiteti arasında icra olunan beynəlxalq ikili diplom proqramı (BMU-İNHA İDP) kompüter elmləri (süni intellekt mühəndisliyi) ixtisasına yiyələnmək istəyən abituriyentlər üçün geniş imkanlar yaradır. BMU bu müasir və strateji əhəmiyyət daşıyan ixtisası ölkəmizdə tədris edən ilk universitetlərdən biridir.**




BMU-dan AZƏRTAC-a bildirilib ki, kompüter elmləri (süni intellekt mühəndisliyi) ixtisası tələbələrə alqoritmlər, maşın öyrənməsi, dərin öyrənmə, neyron şəbəkələr və digər qabaqcıl texnologiyalar sahəsində peşəkar bilik və bacarıqlar qazandırır.

Məzunlar süni intellekt sistemlərinin hazırlanması, tətbiqi və təkmilləşdirilməsi sahələrində fəaliyyət göstərə, eləcə də müxtəlif sahələr üzrə ağıllı qərarverici sistemlər üzərində işləyə biləcəklər. Maliyyə, bank, səhiyyə, sənaye, nəqliyyat, kibertəhlükəsizlik, oyun sənayesi və digər texnoloji sahələrdə süni intellekt mühəndislərinə böyük ehtiyac var.

Təhsil müddətində tələbələr "Python", "TensorFlow", "PyTorch", SQL, C++ və digər proqramlaşdırma alətləri ilə işləməyi öyrənəcək, layihələr və beynəlxalq komanda işi üzrə praktiki təcrübə qazanacaqlar. Tədrisin ingilis dilində aparılması isə beynəlxalq layihələrdə iştirak və qlobal karyera imkanlarını genişləndirəcək.

BMU-İNHA İDP "2019-2023-cü illər üzrə Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması Dövlət Proqramı" çərçivəsində 2020-ci ildən icra olunur. Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması ilə bağlı əlavə tədbirlər haqqında" 2025-ci il 22 iyul tarixli sərəncamına əsasən, proqramın icra müddəti 2030-cu ilədək uzadılıb.

Proqramın tədrisi 3+1 modelinə əsaslanır: 3 il BMU-da, 1 il isə Koreya Respublikasının İNHA Universitetində keçirilir. Təhsil müddətinin sonunda tələbələrə İNHA Universiteti tərəfindən süni intellekt mühəndisliyi, BMU tərəfindən isə kompüter elmləri ixtisası üzrə bakalavr diplomları təqdim edilir. Bu ixtisas üzrə məzunlar süni intellekt mühəndisi, maşın öyrənməsi üzrə mütəxəssis, proqramçı, proqram təminatı üzrə mühəndis, data analitik və digər vəzifələrdə çalışmaq imkanına malik olacaqlar.

Təhsilalanların Koreya Respublikasında 1 illik tam təhsili və 3 həftəlik yay məktəbində iştirakı, habelə təhsil haqqı, qeydiyyat, tədris materialları və elektron informasiya resurslarına çıxış xərcləri dövlət proqramı çərçivəsində Azərbaycan Respublikasının Dövlət Neft Fondu tərəfindən qarşılanır. Proqram məzunlarının qazanacağı bilik və bacarıqlar qeyd olunan 4 ixtisas üzrə mühəndislik, tədqiqat, beynəlxalq təhsil, təhlil və inkişaf sahələrini əhatə edəcək.

Beynəlxalq ikili diplom proqramına qəbul Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən keçirilən qəbul imtahanlarının (bakalavriat səviyyəsi üzrə) nəticələri və İNHA Universiteti tərəfindən təşkil olunacaq daxili imtahan əsasında aparılır. BMU-İNHA İDP-də Azərbaycan vətəndaşı olan, 2025-ci ildə DİM imtahanlarından uğurla keçən 1-ci ixtisas qrupu üzrə müəyyən edilmiş müvafiq keçid balını toplamış abituriyentlər iştirak edə bilər. Seçim nəticəsində 25 tələbə kompüter elmləri (süni intellekt mühəndisliyi) ixtisası üzrə təhsil almaq hüququ qazanacaq.

Bundan əlavə, proqrama müraciət etmiş namizədlər BMU ilə İNHA Universitetinin birgə təşkil etdiyi və yazılı formada keçirilən riyaziyyat, fizika, ingilis dili üzrə daxili imtahandan da uğurla keçməlidir. Daxili imtahanda iştirak etmək üçün namizədlər tələb olunan sənədləri "onlayn anket"ə daxil etməlidir. Sənədlər avqustun 9-dək (saat 23:55) qəbul ediləcək. Sənədlər göstərilən tarixədək onlayn anket formasında təqdim edilməlidir.

BMU-İNHA İDP-yə qəbul üçün daxili imtahan avqustun 11-də keçiriləcək və nəticələri avqustun 15-də elan ediləcək.

Proqramla bağlı ətraflı məlumatı elandan əldə etmək mümkündür.

BMU-İNHA İDP-yə qəbul olunmuş namizədlərin siyahısı Elm və Təhsil Nazirliyinə göndərilərək, DİM-də rəsmi olaraq qeydiyyata alınır. Əlavə olaraq, qəbul olunmuş namizədlər rəsmi BMU-İNHA İDP tələbəsi statusunu qazanaraq, DİM-in ixtisas seçimində (kodlaşdırma) iştirakdan azaddırlar. BMU-İNHA İDP-yə qəbul olmayan namizədlərin DİM-in ixtisas seçimində (kodlaşdırma) iştiraklarını təmin etmək üçün kifayət qədər vaxtın ayrılması nəzərə alınıb.

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

struktur idarələrinə tələb olunan tibbi çantaların satın alınması məqsədilə

**açıq tender elan edir**

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 11 avqust 2025-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132.**

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

ASCO-nun struktur idarələrinə tələb olunan ipli və ipsiz çəkmələrin (Lot1 və Lot2 üzrə) satın alınması məqsədilə

**açıq tender elan edir**

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 08 avqust 2025-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

ASCO-nun struktur idarələrinə tələb olunan taxta materiallarının satın alınması məqsədilə

**açıq tender elan edir**

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 11 avqust 2025-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

ASCO-nun struktur idarələrinə tələb olunan avtoşinlərin satın alınması məqsədilə

**açıq tender elan edir**

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 13 avqust 2025-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" *qəzetinə*

*2025-ci il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Tramp nüvə sualtı qayıqlarının "lazım olan yerə" göndərildiyini təsdiqləyib

**ABŞ Prezidenti Donald Trampın Rusiyanın keçmiş Prezidenti Dmitri Medvedevlə qiyabi mübahisəsindən sonra "müvafiq bölgədə" yerləşdirilməsini əmr etdiyi iki nüvə sualtı qayığı təyin olunmuş yerə çatıb. Avqustun 3-də Nyu-Cersidən Vaşinqtona uçmazdan əvvəl Tramp jurnalistlərə deyib ki, onlar "artıq lazım olan bölgədədirlər".**



Bununla belə, o, sualtı qayıqların hansı regionda yerləşdirildiyini, onların nüvə qurğuları və ya nüvə silahı ilə təchiz edilib-edilmədiyini dəqiqləşdirməyib. Tramp qayıqların harada olduğunu açıqlamasa da, onların Rusiyaya daha da yaxınlaşdığını vurğulayıb. Qeyd edək ki, Amerikanın nüvə sualtı qayıqlarının yeri çox məxfidir.

Trampın iki nüvə sualtı qayığını "müvafiq rayonlara" göndərmək əmri avqustun 1-də məlum olub. O, bu addımını Dmitri Medvedevin son dərəcə təxribatçı bəyanatları ilə izah edib. Tramp "Truth Social" sosial şəbəkəsində yazıb ki, "bu qərar axmaq və qızışdırıcı bəyanatların sadəcə söz yox, başqa bir hal olacağı üçün" qəbul edilib. Tramp izah edib ki, sözlər çox vacibdir və çox vaxt gözlənilməz nəticələrə gətirib çıxarır: "Ümid edirəm ki, bu dəfə belə olmayacaq".

İyulun 28-də D.Medvedev "X" sosial şəbəkəsində Rusiyaya qarşı sanksiyaların tətbiqinin tərəfdarı olan amerikalı senator Lindsi Qremlə mübahisə edib. O, Ağ Ev rəhbərinin yeni ultimatumunu - Ukraynada müharibəyə son qoymaq məqsədilə razılığın əldə olunması üçün son müddəti 50 gündən 10 günə endirməsini Rusiya ilə ABŞ arasında "hədə və müharibəyə doğru addım" kimi qiymətləndirib, Tramp və Qremi isə "babalar" adlandırıb.

Buna cavab olaraq iyulun 31-də D.Tramp "Truth Social" sosial şəbəkəsində Rusiya neftinin ən böyük idxalçılarından biri olan Hindistanın və Rusiyanın iqtisadiyyatlarını "ölü" adlandırıb. O, Medvedevi sözlərinə diqqət etməyə çağırıb və qeyd edib ki, o, çox təhlükəli əraziyə daxil olur.

Həmin gün D.Medvedev "Telegram" kanalında yazıb: "Əgər keçmiş Rusiya Prezidentinin bəzi sözləri ABŞ-nin bütöv, qorxunc Prezidentində belə, əsəbi reaksiyaya səbəb olursa, deməli, Rusiya hər şeydə haqlıdır və öz yolu ilə getməyə davam edəcək".

"Hindistan və Rusiyanın ölü iqtisadiyyatı və təhlükəli əraziyə giriş haqqında bunu deyə bilərəm - qoy o, "gəzən ölülər" haqqında sevimli filmlərini xatırlasın, həmçinin təbiətdə olmayan "ölü əl"in nə qədər təhlükəli olduğunu düşünsün", - deyə D.Medvedev əlavə edib. Avropa və ABŞ-də "ölü əl" (Dead Hand) SSRİ-də hazırlanmış, lakin hələ də Rusiyada istifadə olunan kütləvi cavab nüvə zərbəsinə avtomatik nəzarət edən "Perimetr" kompleksinin adıdır. Kompleks rabitə xətlərinin zədələnə biləcəyi fövqəladə hallar zamanı raketlərin buraxılması üçün əmrlərin məntəqələrə çatdırılmasına zəmanət vermək üçün nəzərdə tutulub.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Samir Nuriyev Xalq yazıçısı
**ELÇİN ƏFƏNDİYEVİN**
vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov və komitə üzvləri Rəşad Mahmudov, Məlahət İbrahimqızı, Kamaləddin Qafarov, İlham Məmmədov, Müşfiq Məmmədli, Soltan Məmmədov, Anatoliy Rafailov və Pərvanə Vəliyeva Əfəndiyevlər ailəsinə
**ELÇİN ƏFƏNDİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Milli Məclisinin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova və Rüfət Səfərəliyev Xalq yazıçısı
**ELÇİN ƏFƏNDİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatı Xanlar Fətiyev Xalq yazıçısı
**ELÇİN ƏFƏNDİYEVİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Milli Məclis Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşları iş yoldaşları Nicat Hüseynliyə əzizi
**ƏNVƏR SEYİDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Xalq yazıçısı
**ELÇİN ƏFƏNDİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəhbərliyi və kollektivi Baş nazirin keçmiş müavini, Xalq yazıçısı
**ELÇİN ƏFƏNDİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə
**ƏNVƏR SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə və Milli Məclisin deputatı Cavanşir Paşazadə görkəmli ictimai-siyasi xadim, Xalq yazıçısı
**ELÇİN ƏFƏNDİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatı Səttar Möhbalıyev Bakı Ağır Cinayətlər Məhkəməsinin keçmiş hakimi
**ƏNVƏR SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin deputatı Səttar Möhbalıyev Xalq yazıçısı
**ELÇİN ƏFƏNDİYEVİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Xalq yazıçısı, ictimai-siyasi xadim
**ELÇİN ƏFƏNDİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin rəhbərliyi, deputatlar, Parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclisin deputatı Günay Əfəndiyevaya atası, Xalq yazıçısı
**ELÇİN ƏFƏNDİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Xalq yazıçısı
**ELÇİN ƏFƏNDİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi Xalq yazıçısı, ictimai xadim
**ELÇİN ƏFƏNDİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva Xalq yazıçısı, dövlət və ictimai xadim
**ELÇİN ƏFƏNDİYEVİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Hakimlər İttifaqının üzvləri Bakı Ağır Cinayətlər Məhkəməsinin sabiq hakimi
**ƏNVƏR SEYİDOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Orucovlar ailəsi Mobil Mehdiyevə dayısı
**ARİF BABAYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Şaiq Əfəndiyev ailəsi ilə birlikdə Timurçin Əfəndiyevə qardaşı, Xalq yazıçısı
**ELÇİN ƏFƏNDİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Azərbaycan Respublikasının Xalq yazıçısı
**ELÇİN ƏFƏNDİYEVİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi Xalq yazıçısı
**ELÇİN ƏFƏNDİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq yazıçısı
**ELÇİN ƏFƏNDİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik İsa Həbibbəyli Milli Məclisin deputatı Günay Əfəndiyevaya atası, Xalq yazıçısı
**ELÇİNİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin sədri Elbay Qasımzadə Azərbaycan Respublikası Milli Məclisinin deputatı Günay Əfəndiyevaya atası
**ELÇİN ƏFƏNDİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektorluğu, professor-müəllim heyəti və ictimai təşkilatları görkəmli yazıçı, nasir
**ELÇİN ƏFƏNDİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Azərbaycan Respublikasının Xalq artisti
**ARİF BABAYEVİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəhbərliyi və kollektivi Xalq artisti
**ARİF BABAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəhbərliyi və kollektivi Xalq yazıçısı
**ELÇİN ƏFƏNDİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Hüseynbala Mirələmov ailəsi ilə birlikdə Xalq yazıçısı
**ELÇİN ƏFƏNDİYEVİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Hüseynbala Mirələmov ailəsi ilə birlikdə Bakı Ağır Cinayətlər Məhkəməsinin sabiq hakimi
**ƏNVƏR SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

K.Y.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunun direktoru və iş kollektivi institutun şöbə müdiri Aygün Məmmədovaya atası
**ƏNVƏR CÜMŞÜD OĞLU SEYİDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3797
Sifariş 1624

Qiyməti 60 qəpik